Quranda xəbər verilən hz. Yusifin (ə.s): "**Mən nəfsimi də təmizə çıxartmıram. Həqiqətən, nəfs şiddətli şəkildə pis işlər görməyi əmr edər. Ancaq Rəbbimin rəhm etdiyi kimsə istisnadır. Şübhəsiz ki, Rəbbim bağışlayandır, rəhmlidir". (Yusif surəsi, 53)** sözləri, möminlərin necə düşünməli olduğunu göstərir. Mömin, nəfsinin onu hər an azdırmaq istədiyini dərk etməli və buna görə ayıq-sayıq olmalıdır.

Eyni ayənin davamından nəfsin fücuru ilə yanaşı, bu fücurdan (günahdan) çəkinməyin ilham edildiyini öyrənirik. Nəfsin insanı Allaha, dinin bildirdiyi həqiqətlərə və xeyirxah əməllərə yönəldən, xeyirlə-şəri ayırd etməyə imkan yaradan bu yönü xalq arasında "vicdan" kimi izah edilir.

Nəfsdə həmişə insanı pisliyə səsləyən istəklə yanaşı, onu davamlı yaxşılığa çağıran vicdan da var. Odur ki, insanın içində onu daima haqqa çağıran "kompas" vardır. Vicdan, bizi həqiqətə aparan Allahın səsidir. İnsan

həmişə bu səsə qulaq asarsa və Quranda göstərilən əsas prinsipləri tam dərk edərsə doğru yolda irəliləyəcək.

İnsan vicdanına tabe olduğu müddətcə Allahın gözəl sifətlərinin təcəllilərini daşıyar. Allah sonsuz mərhəmətlidir, ona görə də, Allaha təslim olan mömin də mərhəmətli olar. Allah sonsuz ağıl sahibidir, bu da, Ona qulluq edən möminlərin də ağıllı olduqları deməkdir. İnsan Allaha yaxınlaşdıqca və təslim olduqca Rəbbimizin üstün əxlaqını daha çox daşıyar və ayədə bildirildiyi kimi **"məxluqların ən xeyirlisi" (Beyyinə surəsi, 7)** olar.

Quranın bütün hökmləri insandakı vicdana və bu vicdanın ölçülərinə görə təyin olunur. Halbuki Qurandakı vicdan normaları cahil cəmiyyətdə qurulan "vicdan" normalarından tamamilə fərqlidir. Cahil əxlaqlı bəzi insanların vicdan anlayışı yolda bir kasıba sədəqə vermək, heyvanlara sevgi göstərmək kimi son dərəcə səthi nümunələrlə məhdudlaşır. Halbuki mömінin vicdanı Quranın bütün əmr və tövsiyələrinin yerinə yetirilməsini tələb edir. Əslində Quranda ümumi şəkildə ifadə edilən bir çox məsələnin təfərrüatları vicdan sayəsində müəyyən edilir və həyata keçirilir.

Məsələn, Quranda iman edənlərə ehtiyaclarından artıq qalanı infaq etmələri əmr edilir. Lakin ehtiyacının nə qədər olduğunu hər kəs öz vicdanı ilə təyin edər. Vicdanı güclü olmayan bir insan isə dinin hökmlərini Allahın rizasına uyğun şəkildə tətbiq etməz.

Mömin gündəlik həyatda həmişə bir neçə variant arasında seçim etməli olur. Qarşılaşdığı variantlar içində, Allahın rizasına ən uyğun olanını, dinin mənfəətinə ən faydalı olanını seçməklə məsuldur. Bu seçimi edərkən əlaqədar olduğu variantlar qarşısında vicdanı ilk olaraq dövrəyə girər və hansı variantın Allahın rizasına daha uyğun olacağını ona deyər. Ancaq ikinci mərhələdə nəfsi də dövrəyə girəcək və onu digər alternativlərə yönəltməyə çalışacaq. Bunun üçün də insana bəhanələr pıçıldayacaq. Quranda nəfsin qarşıya qoyduğu bu "bəhanə"lərə tez-tez diqqət çəkilir.

Mömin, nəfsin ona pıçıldadığı bütün bəhanələrə qulağını tıxamalı və vicdanının ona göstərdiyi doğrunu tətbiq etməlidir. Quranda möminlərin vicdanına aid verilən nümunələr, insanı bu mövzuda düşünməyə yönəltməlidir. Ayələrdə Peyğəmbərimiz (s.ə.v) dövründəki möminlərin döyüşə çıxma şövqləri belə bildirilir:

**Allah və elçisi üçün (insanlara) öyüd-nəsihət verəcəkləri təqdirdə, acizlərə, xəstələrə, xərcləməyə bir şey tapa bilməyənlərə (döyüşə getməməkdə) heç bir günah yoxdur. Yaxşı işlər görənlərə heç bir qınaq yoxdur. Allah bağışlayandır, rəhm edəndir. Minik təmin etməyin üçün sənin yanına gəldiklərində: "Sizi mindirməyə bir heyvan tapa bilmirəm", - dediyin zaman xərcləyəcək bir şey tapa bilmədikləri üçün kədərdən gözlərindən yaş axa-axa geri dönən kimsələrə də (günah və qınaq) yoxdur. (Tövbə surəsi, 91-92)**

Müharibəyə getmək çox təhlükəlidir. Döyüşməyə gedən adam öləcəyini və ya yaralanacağını bilir. Ancaq Peyğəmbərimizin (s.ə.v) dövründə möminlərdə Allah yolunda döyüşmək həvəsi böyük idi və döyüşə gedə bilmədiklərinə görə kədərlənirdilər. Bu, Quranda ifadə edilən vicdanın parlaq nümunəsidir.

Nəfs mömini dərhal dindən döndərməz, ancaq kiçik bəhanələrlə dindən uzaqlaşdırmağa çalışar. Məsələn, mömini Allah rizası üçün edəcəyi bir işdə tənbəlliyə sürükləməyə çalışar. Bəzi bəhanələr gətirərək onu tənbəlliyə sürükləyər. Nəfsin xırda istəklərinə yol verilərsə, nəfsin insana təsiri getdikcə artar və nəticədə insan imanı tərk edib yenidən nəfsinin əsiri ola bilər.

Hər bir mömin, hansı vəziyyətdə olursa olsun, öz nəfsini deyil, Allahın əmri ilə hərəkət etməli, nəfsini boğaraq, nəfsi ehtiraslarını cilovlamağa borcludur. Bir ayədə belə buyurulur:

**Bacardığınız qədər Allahdan qorxun, (sizə verilən öyüdlərə) qulaq asın, Ona itaət edin və öz xeyriniz üçün infaq edin! Nəfsinin xəsisliyindən qorunanlar əsil nicat tapanlardır. (Təğabun surəsi, 16)**

Ayədə, möminlərə Allahdan qorxmaları, Ona itaət etmələri, Onun hökmlərini dinləmələri və infaq etmələri, yəni mallarını Allahın rizasına uyğun olaraq xərcləmələri əmr edilir. Çünki bunlar, insanın "nəfsinin eqoist-istəklərindən" qorunmasına və nəticədə, nicat (böyük qurtuluş və xoşbəxtlik) tapmasına səbəb olur. Eyni həqiqət başqa ayələrdə belə xəbər verilir:

**Ancaq kim Rəbbinin məqamından qorxar və nəfsini (pis) arzulardan uzaq tutarsa, əlbəttə, onun məskəni cənnətdir. (Naziat surəsi, 40-41)**

Nəfsinin eqoist istəklərindən qorunaraq nəfsini təmizləmiş, buna görə də Allahın razılığına və cənnətinə qovuşmuş insanın nəfsi isə Quranda mütmain olmuş, yəni razı qalınan nəfs olaraq qeyd olunar. Ayədə belə buyurulur:

**(O gün Allah möminlərə belə səslənəcəkdir:) "Ey rahatlıq tapan nəfs (insan)! Sən Rəbbindən, Rəbbin də səndən razı qalmış halda Ona dön! Beləcə, (yaxşı) bəndələrimin arasına daxil ol, cənnətimə gir!" (Fəcr surəsi, 27-30)**

Nəfsinin pis istəklərinə tabe olub, onu təmizləməmiş və bu şəkildə axirətə getmiş birinin də peşmanlıqdan başqa payı yoxdur. Gəlib-keçmiş milyardlarla inkarçının qiyamət günündə yaşadıqları peşmanlıq və nəfsini qınamaları həqiqətən çox dəhşətli mənzərə yaradır. Bu, kafirləri gözləyən elə böyük və qaçılmaz həqiqətdir ki, Allah ayələrdə qiyamət günündə özünü qınayan nəfsin vəziyyətinə and içir:

**And içirəm qiyamət gününə! And içirəm özünü qınayan nəfsə! (Qiyamət surəsi, 1-2)**

## "NƏFSİN TƏRBİYƏ EDİLMƏSİNDƏKİ ÖLÇÜ SƏMİMİYYƏTDİR"

ADNAN OKTAR: **Nəfsin tərbiyə edilməsində Allahın göstərdiyi tək ölçü səmimiyyətdir.** Səmimiyyəti göstərdikdə, nəfs çox məqbul hala gəlir. **Çünki mənfəətlər məntiqli olmağı kəsb edir. Amma vicdanımız da bizə ağıllı**

**olmağımıza imkan yaradır. Səmimi davranmağa imkan yaradır. Biz ağlımızla və vicdanımızla hərəkət etməliyik.**

Ağlı və vicdanı ilə hərəkət edən insan həmişə doğru hərəkət edər. Məsələn, Allah qorusun, rüşvət aldıqda məntiqin "al" deyər. Amma ağlı və vicdanı da "alma" deyər. Ağlına və vicdanına tabe olduğunda da, maddi cəhətdən bəlkə çətinliyə düşür, sıxıntıya düşür, amma doğru olanı etmiş olur. **Gözəl əxlaq ucuz bir şey deyil, çətindir. Baha başa gəlir, ona görə də gözəl əxlaqlı insan dünyada nadir olur...** İnsan düşünməyə qərar verdiyində yenə Allahın verdiyi böyük nemətdən, yəni səmimiyyət və vicdanından istifadə etməlidir.

Məsələn, hüceyrənin quruluşu və yaxud ağcaqanadın həyatı ağıl ilə düşündükdə nəfəs kəsən gözəlliyə malikdir, həyəcan yaradan quruluş ortaya çıxır. Hüceyrəni araşdırdıqda yenə eləcə, nəfəsimiz kəsilir. İnsan hüceyrəsi sanki şəhər kimidir. İstanbul şəhərini xatırladır. Elə bir quruluşu vardır. Biz bundan heyrətlənirik. Heyrətləndiyimizdə **Allaha sevgimiz, qorxumuz daha da artar. Allaha hiss etdiyimiz qorxu artdıqda Allahın göstərdiyi yola, yəni islama diqqətimiz daha da artar. Və mükəmməl əxlaqlı olarıq.** *(Ekin TV reportajından, 19 yanvar 2009)*

# NƏFSİN İSTƏKLƏRİNİ İLAH EDƏNLƏR

Nəfs, əvvəlki səhifələrdə də vurğuladığımız kimi iki cəhətlidir və Allah nəfsə fücuru, yəni pisliyi və ondan çəkinməyi ilham etmişdir. Quranda, nəfsin fücurunu ifadə etmək üçün çox vaxt "istək" ifadəsi də istifadə edilir. "İstək" sözü lüğətdə; "ehtiras, nəfsin arzu və həvəsi, şəhvət, şəhvətə qarşı şiddətli meyl, insanın pozulmasına yol açan bütün daxili mənfi faktorlar" şəklində təyin edilir.

İnkarçılar böyük bir cəhalətlə nəfsin bu mənfi yönünü, yəni nəfsinin istəyini tək yol göstərici və məqsəd kimi qəbul edirlər. Onlar bütün həyatını istəklərini təmin etmək üzərinə qurublar. Buna görə də, ağıllarını istəklərinin razılığına yönəldir və beləliklə də Quran əxlaqının insanlara bildirdiyi həqiqətləri qavraya bilmirlər. Allah, nəfsinə hakim olan insanların Quranı və Peyğəmbərin təbliğini qavramadıqlarını bu şəkildə bildirir:

**Onlardan bəziləri gəlib səni dinləyər. Sonra yanından çıxıb getdikləri zaman, elm verilmiş kimsələrə: "O (Məhəmməd) bir az əvvəl nə deyirdi?" – deyə soruşarlar. Onlar Allahın qəlbinə möhür vurduğu və öz nəfsinin arzularına uyan kimsələrdir. (Məhəmməd surəsi, 16)**

Nəfsinin fücuruna (pisliklərinə) təslim olan insan hər bir hadisə və hökmdə nəfsinə uyar. Nəfsin istək və arzuları yeganə meyarı olur. Bu səhv meyara tabe olan insan artıq cahilcə öz nəfsinə sitayiş edir. Quranda bu vəziyyətə "öz nəfsini ilah etmək" deyilir:

**Nəfsinin istəklərini özünə ilah qəbul edəni gördünmü?! Allah onu Öz əzəli elmi ilə bildiyi üçün haqq yoldan azdırıb qulağını və qəlbini möhürləmiş, gözünə də pərdə çəkmişdir. Elə isə Allahdan başqa kim onu doğru yola yönəldə bilər?! Hələ də düşünüb öyüd almırsınızmı? (Casiyə surəsi, 23)**

Nəfsi və istəklərinə görə hərəkət etdiyi üçün düşünə bilməyən bir insan Quranda kor və kar kimi təsvir edilmişdir. Ağıllı möminlər isə xeyirlə-şəri bir-

birindən ayıra bilən qavrama (dərrakəyə), hadisələrə hakim olan dünyagörüşünə və qavrayışa (bəsirətə) sahibidirlər. Nəfsinin istəklərinə uyduğu üçün ağlını itirən, doğru yoldan azmış insanlar və cəmiyyətlər haqqında Quranda çoxlu ayələr vardır. Bu ayələrdən bəziləri bunlardır:

**De: "Ey kitab əhli, dininizdə haqsız yerə həddi aşmayın! Daha əvvəl öz yolundan azmış, bir çoxlarını da azdırmış və doğru yoldan çıxmış olan bir qövmün arzularına uymayın!" (Maidə surəsi, 77)**

**Sizə nə olub ki, üstündə Allahın adı çəkilərək kəsilənlərdən yemirsiniz? Halbuki məcbur qaldığınız vaxt (yeyə biləcəyiniz şeylər) istisna olmaqla, sizə haram etdiklərini O sizin üçün bəyan etmişdir. Həqiqətən, bir çoxları arzularına uyaraq bilmədən (insanları) haqq yoldan azdırarlar. Şübhəsiz ki, Rəbbin həddi aşanları ən yaxşı biləndir. (Ənam surəsi, 119)**

**Haqq yol aydın olduqdan sonra kim elçiyə qarşı gələr və möminlərin yolundan başqa bir yol izləyərsə, onu yönəlmiş olduğu yola döndərər və cəhənnəmə atarıq. Ora necə də pis bir qayıdış yeridir! (Nisa surəsi, 115)**

**Xeyr, zülm edənlər cahilliklə öz nəfslərinin arzularına uydular. Allahın haqq yoldan azdırdığı kimsəni kim doğru yola yönəldə bilər?! Onların heç bir köməkçisi də yoxdur. (Rum surəsi, 29)**

**Əgər haqq onların arzu və istəklərinə uysaydı, göylər, yer və onların içindəkilər mütləq fəsada məruz qalardı. Xeyr, Biz onlara Zikrlərini (Quranı) gətirdik. Ancaq onlar Zikrlərindən üz çevirirlər. (Muminun surəsi, 71)**

**Sənə də, özündən əvvəlki kitabı təsdiqləmək və onu qorumaq üzrə haqq olaraq Kitabı (Quranı) nazil etdik. Onların arasında Allahın**

**nazil etdiyi (Quran) ilə hökm ver və sənə gələn haqqı qoyub onların arzularına uyma! Sizin hər biriniz üçün bir şəriət və bir yol təyin etdik. Əgər Allah istəsəydi, sizi tək bir ümmət edərdi. Lakin O, verdikləri ilə sizi imtahan etmək üçün (belə etdi). Elə isə yaxşı işlər görməkdə bir-birinizlə yarışın! Hamınızın dönüşü Allahadır. O, ixtilafa düşdüyünüz şeylər barəsində sizə xəbər verəcəkdir. Onların arasında Allahın nazil etdiyi ilə hökm ver və onların arzularına uyma! Allahın sənə nazil etdiyinin bir qismindən səni yayındıra biləcəklərinə qarşı diqqətli ol! Əgər onlar üz döndərsələr, bil ki, Allah onları ancaq bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Həqiqətən, insanların çoxu fasiqdir. (Maidə surəsi, 48-49)**

Nəfsin istəkləri insanı bəzi arzulara düçar edir, onun gözlərini kor edir. Bu vəziyyətdə olan insan öz əbədi fəlakətinə doğru sürətlə irəliləyir.

## "MƏNFƏƏTLƏRİ ÜÇÜN YAŞAYANLAR HEÇ VAXT XOŞBƏXT OLA BİLMƏZLƏR"

**ADNAN OKTAR**: Baxın indi qarşımızda pərdə var. Biz də sanki pərdənin arxasındayıq və onu seyr edirik. Bu cür gözəl quruluş varkən, adam çeki ödəmədi deyə mübahisə edir, təhqir edir. Və ya yoldaşı ilə rəqabət aparır. Ya da dostu ilə rəqabət aparmağa çalışır.

Televiziya ekranında bu görüntüdən ibarət dünya aləmində yaşayan bir insanı, yəni televiziya ekranından ibarət bir varlığı təsəvvür edin və bütün dünyasının oradakı görüntülərlə boğuşduğunu təsəvvür edin; bu, çox anormal bir hərəkət olardı.

**Ona görə bütün diqqətimizlə, vicdanlı şəkildə Allah ilə əlaqədə olmaq məcburiyyətindəyik. Yəni Allahı çox sevmək, çox hörmət göstərmək, Allahı hər şeydən əhəmiyyətli görmək, hər şeyi Onun təcəllisi olaraq görmək və Onunla əlaqədə yaşamaq məcburiyyətindəyik. Məqbul olan, doğru olan budur, yəni vicdana uyğun olan budur.**

Əks halda anormal və dəli hərəkət olar, yəni nataraz hərəkət olar. Biz əslində normal olanı edirik. Mükəmməl yaradılmış, amma Allah ilə əlaqəsi olmayan bir varlıq düşünün. Yaxşı bəs, bu normal bir şeydir? Ona görə Allah ayədə "**istək və həvəsini ilah edəni gördünmü?" (Furqan surəsi, 43)**, deyir. Yəni yalnız kiçik mənfəətlərini ilah etmiş. Dünya mənfəətlərindən bir şey çıxmaz.

İki qab yemək yeyirlər, ya xolesterolu qalxır, ya təzyiqi qalxır, narahat olur, ya şəkəri qalxır. Əziyyəti daha da çox olur. Və yaxud iş yerini daha da böyütmək istəyir. Daha böyük iş yeri, sinirlərini daha da çox pozur, daha da stress içində yaşamasına səbəb olur. Say-say bitməz. Məsələn, siyasətə girir dəhşətli dərəcədə gərginliyə düşür. Başqa hadisələrə girişir yenə gərginliyə düşür. Allah bu mövzunu belə açıqlayır; "**İnsan zəif yaradıldı"** (Nisa surəsi, 28).

Yəni sırf insana məxsus olaraq zəif yaradılmışdır. Tarakanlar belə daha çox qüvvətlidir, quruluş olaraq çox güclüdürlər. Əqrəblər də eləcə, atom bombasından belə təsirlənmirlər. Amma insan çox zəifdir. Məsələn, qrip epidemiyası yayılır, hamı təlaşa düşür, insanların böyük hissəsi təlaşdadırlar, çünki virus rahat şəkildə insanı öldürə bilər və heç bir şəkildə də qurtuluş yoxdur. Virusun haradan gəldiyi də məlum olmaz və ən güclü dediyimiz bədən belə bəzən dözə bilmir, Allah qorusun.

Bəli, ona görə **bu qısa həyatda 10 illər bir il kimi keçir,** hər on il. İllər ay kimi keçir, görürsünüz. Bir yay olur, bir qış olur; bir yay olur, bir qış olur. İndi baxın qış ayındayıq. Çox qısa bir müddət sonra bir baxıram ağaclarda tumurcuqlar cücərməyə başlayır. Bir baxırıq istilər artdı nə etsək görəsən; ventilyator qoşsaq, kondisioner işləsin deyirik. Çox qısa müddət sonra da soba və ya qızdırıcıları yandırın ev isinsin deyirik və bu vəziyyət dəhşətli şəkildə sürətlə davam edir.

**Ağıllı insan, Allahın varlığının dərinliyini görür və dünyada ehtirasa qapılacaq bir şey olmadığını bilir.** Bir də necə gözəl, Allahımız deyir ki: "**Mənim rizamı axtarın, Məni sevin, Məni anlayın, sənətimi görün"** - görünməyəcək kimi deyil, yəni ağlı az olan belə görər - "**Mən də sizə sonsuz həyatınızda"** - sonsuz həyat verəcəyəm sizə, - **"və çox xoşunuza gələcək həyat yaşadacağam",** deyir.

Allah bir də deyir ki: **"Daha əvvəl etdiklərimə baxın."** Televizorlar yaradır, soyuducular yaradır, avtomobillər, evlər yaradır, yeməklər yaradır, göz, qulaq, burun hamısını yaradır. **"Mən bunları etdimmi"** deyir. **"Mən bunu**

**bir daha etməyə qadir deyiləmmi?”** deyir. Yəni bir dəfə edən, bir daha edə bilməzmi deyir Allah.

**“Bir düşünün”** deyir, amma çox da dəlil vermir. O zaman imtahan olmaz. **“Baxın əlamətlərimə”** deyir, “**Məni anlayın və Mənə bəndə olun”** deyir. İnsan bəndə olmazsa, halbuki bu da onun taleyində olur, **“sonsuza qədər əzab çəkərsiniz”**, amma **“bəndə olsanız da sonsuza qədər xoşbəxt olarsınız”** deyir. *(Adıyaman Asu TV reportajı, 30 noyabr 2009)*

# VİCDAN VƏ RUH

Nəfsin iki ayrı yönü olduğu Quranda bildirilir və nəfsin bir hissəsi "istək"dən, yəni insanı Allahın yolundan uzaqlaşdıran eqoist arzu və istəklərdən meydana gəldiyi xəbər verilir. Nəfsin digər hissəsi olan vicdan isə, insanı Allaha və dinin ehtiva etdiyi doğrulara yönəldər, nəfsdəki "fücur"dan çəkinməsini təmin edər. Vicdan, insana Allahın üflədiyi "ruh"dan qaynaqlanır.

Səcdə surəsində Allahın insana Öz ruhundan "üflədiyi" belə xəbər verilir:

**"O, yaratdığı hər şeyi gözəl yaratmış və insanı yaratmağa palçıqdan başlamışdır. Sonra onun nəslini həqir bir su olan nütfədən meydana gətirdi. Sonra onu müəyyən bir surətə saldı və ona Öz ruhundan üfürdü…" (Səcdə surəsi, 7-9)**

Məhz insanın sahib olduğu bütün gözəl vəsflər, Allahın ona "üflədiyi" ruhdan qaynaqlanır. İnsan əgər nəfsin fücuruna (günaha) bataraq bu ruhu örtməsə, Allahın üstün sifətlərindən bəziləri o insanda təcəlli edər.

Onsuz da Quranın bütün hökmləri, insanın vicdanına uyğun və vicdanın tələblərinə görə müəyyən edilmişdir. Rum surəsindəki iki ayə, bu mövzunu açıqlayır:

**Xeyr, zülm edənlər cahilliklə öz nəfslərinin arzularına uydular. Allahın haqq yoldan azdırdığı kimsəni kim doğru yola yönəldə bilər?! Onların heç bir köməkçisi də yoxdur. Allahın insanları yaratdığı fitrət üzrə hənif olaraq üzünü dinə (İslama) çevir! Allahın (insanları fitrət üzrə) yaratmasında heç bir dəyişiklik yoxdur. Doğru din budur! Lakin insanların çoxu bunu bilmir. (Rum surəsi, 29-30)**

Ayələrə görə, inkar edənlər nəfsinin fücuruna, yəni istəklərinə uyaraq azanlardır. Buna qarşı möminlərin edəcəyi şey, Allahın insanlara vəhy yolu ilə çatdırdığı dinə tabe olmaqdır. Və bu din, Allahın insanları yaratdığı fitrətə

(yaradılışa), yəni Allahdan onlara üflənmiş ruha, vicdana ən uyğun həyat şəklidir.

# QƏLB, AĞIL VƏ ZƏKA

İnsanda nəfs və vicdan şəklində iki ayrı cəhət olduğunu daha əvvəlki hissələrdə açıqlamışdıq. Bu barədə ağıl və ağılsızlıq anlayışları da böyük əhəmiyyət daşıyır. Çünki Quranda buyurulur ki, nəfsə tabe olmaq axmaqlıq, vicdana tabe olmaq isə ağıl gətirir.

Az əvvəl də ifadə etdiyimiz kimi, nəfsinə tabe olan, bu səbəbdən Allahdan uzaqlaşan insan, qısa müddət sonra düşünmə xüsusiyyətini itirər. Allah Quranda, inkarçılardan bəhs edərkən, onların **"ağılsız qövm"** (Həşr surəsi, 14) olduqlarını bildirir. Bunun necə baş verdiyi əvvəlcə aydın olmaya bilər. Çünki insanların çoxu düşünür ki, hər bir insanın müəyyən qədər ağlı var və bu, dəyişmir. Bu səhv düşüncədir və ağlı zəka ilə səhv salmaqdan irəli gəlir. Ancaq zəka və ağıl çox fərqli şeylərdir. Hər kəs zəkalı ola bilər, amma ağıl yalnız iman edənlərdə olur.

Nəfsin fücuruna, yəni istəyinə tabe olmaq insanın ağlını örtdüyünə görə, görəsən ağlı nə aça bilər? Bunun cavabı açıqdır: İnsan nəfsinin fücuruna (günaha) deyil, ona bu fücurdan çəkinməyi təlqin edən gücə (vicdana) itaət edərsə, ağıl sahibi olar.

Necə ki, Quranda nəzərdə tutulan ağıl, ruhda yaşanan mənəvi xüsusiyyətdir. Quranın bir çox ayəsində "dərk edən qəlbdən" xəbər verilir. Buna görə də, həqiqi ağıl, beynin funksiyası olan zəkadan çox fərqlidir. Ağıl, "vicdan"ın da yerləşdiyi qəlbdə yerləşir. Quran ayələrində ağlın qəlbdə olduğu və "ağılsız"ların qəlbinin bağlı olduğu üçün ağılla düşünə bilmədikləri açıq şəkildə ifadə edilir. Ayələrdə belə buyurulur:

**Onlar yer üzündə dolaşmadılarmı ki, bunun sayəsində onların düşünən qəlbi, yaxud eşidən qulaqları olsun?! Şübhəsiz, gözlər yox, sinələrdəki qəlb kor olur. (Həcc surəsi, 46)**

**And olsun ki, cinlərdən və insanlardan bir çoxunu cəhənnəm üçün yaratdıq. Onların (haqqı) qavramayan qəlbi, (haqqı) görməyən gözləri, (haqqı) eşitməyən qulaqları var. Onlar heyvanlar kimidirlər, hətta daha çox zəlalətdədirlər. Əsil qafillər onlardır. (Əraf surəsi, 179)**

**Onlar arxada qalanlarla birlikdə olmağa razı oldular. Onların qəlbinə möhür vuruldu. Buna görə də onlar anlamazlar. (Tövbə surəsi, 87)**

**Onu (Quranı) anlamamaları üçün də onların qəlbinə örtük çəkdik, qulaqlarına da ağırlıq (karlıq) verdik. Sən Quranda Rəbbinin birliyini andığın zaman onlar uzaqlaşaraq arxalarını dönüb gedərlər. (İsra surəsi, 46)**

Quranda, ancaq "qəlbi olanlar"ın öyüd aldıqları və Buna görə də, iman etdikləri belə bildirilir:

**Həqiqətən, bunda, ağıl sahibi və gəlib diqqətlə qulaq asan kimsə üçün öyüd vardır. (Qaf surəsi, 37)**

Deməli, Quranda bəhs edilən əsl ağıl birbaşa qəlb və vicdanla bağlıdır.

Diqqət çəkən şey, bu ağlın artıb-azala bilməsidir. Beyinin funksiyası olan zəka, ciddi zədə və ya xəstəlikdən başqa, artıb-azalmaz, hər kəsin "IQ" səviyyəsi sabitdir. Amma ağıl azalıb-arta bilər.

Ağlın artıb-azala bilmə xüsusiyyəti, insanın vicdanı ilə əlaqədardır. Vicdan güclənər və insan Allahdan daha çox qorxub-çəkinsə (təqvası artsa), **"doğrunu səhvdən ayıran anlayış"** qazanar. Tamamilə **"metafizik"** olan bu sirr, Quran ayəsində belə bildirilir:

**Ey iman edənlər! Əgər Allahdan qorxsanız, O sizə yaxşı və pisi bir-birindən ayırd etmə anlayışı verər, günahlarınızın üstünü örtər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Allahdan qorxub-çəkinməyən biri isə, "doğrunu səhvdən ayıran nur və anlayış"dan məhrumdur. Çox zəkalı ola bilər, yaxşı fizik, sosioloq, ya da hər hansı "hörmətli insan" ola bilər, zəka məhsulu əsərlər ortaya qoya bilər. Amma, əsl vicdandan və buna görə əsl ağıldan məhrumdur. Yaxşı elm adamı

olub, hər hansı insan bədəninin bilinməyən sirlərini ortaya çıxara bilər, amma o bədənin kim tərəfindən yaradıldığını düşünəcək vicdana və qavrayacaq ağıla sahib deyil.

Kəşf etdiyi şeyin mükəmməlliyi ilə heyrətə düşüb, o şeyi yaradan Allaha yönəlib və Rəbbimizi tərifləmək (təsbih etmək) yerinə, tapdığı şeydən ötrü qürurlanıb ağılsız şəkildə özünü tərifləməyə başlayar, bu "elm insanı", nəfsini ilah etmiş və bu elm üzrə azmışdır. Allah Quranda bu cür insanların vəziyyətini belə xəbər vermişdir:

**Nəfsinin istəklərini özünə ilah qəbul edəni gördünmü?! Allah onu Öz əzəli elmi ilə bildiyi üçün haqq yoldan azdırıb qulağını və qəlbini möhürləmiş, gözünə də pərdə çəkmişdir. Elə isə Allahdan başqa kim onu doğru yola yönəldə bilər?! Hələ də düşünüb öyüd almırsınızmı? (Casiyə surəsi, 23)**

Bunun əksi olaraq Quranda möminlər, "**qəlbi Allahı zikr etməklə rahatlıq tapanlar**" olaraq təsvir edilir. (Rad surəsi, 28) Ayənin davamında, "**...qəlb yalnız Allahı zikr etməklə rahatlıq tapar**" şəklində buyurulur.

Allah inkarçılarla bağlı ayələrdə belə buyurur:

**Allah onların qəlbini və qulaqlarını möhürləmiş, gözlərini də pərdələmişdir. Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 7)**

**...Onlar o gün imandan çox küfrə yaxındılar. qəlbində olmayan bir şeyi ağızları ilə söyləyirlər. Halbuki, Allah onların (qəlbində) gizlətdikləri şeyi daha yaxşı bilir. (Ali İmran surəsi, 167)**

Zəkalı insan elmi kəşflər edə bilər, müvəffəqiyyətli iş adamı ola bilər, mühəndis, ya da başqa hər hansı iş üzrə mütəxəssis ola bilər. Ancaq burada ən əhəmiyyətli məqam çox vaxt etdiyi işlərin fayda və zərərini ayırd edəcək qavrama sahib olmadan bu işləri etməsidir. Dəfələrlə dinlədiyi doğrulara qarşı reaksiya verməz və kor gözlərlə cavab verməsi, ayələrdəki korluq və karlığı, yəni qavrayışın və anlayışın olmadığını göstərir.

Tövbə surəsinin 87-ci ayəsindəki “**Onların qəlbinə möhür vuruldu. Buna görə də onlar haqqı anlamazlar**” ifadəsi qəlbin anlayışdakı əhəmiyyətini göstərməsi baxımından əhəmiyyətli nümunədir.

Quranın bir çox ayəsində, insan davranışlarının qəlb ilə olan əlaqəsindən bəhs edilir. Bunları belə sıralaya bilərik:

## Allahın insanla onun qəlbi arasına girməsi

**Ey iman edənlər! Sizi, həyat verən şeylərə çağırdığı zaman Allahın və elçinin dəvətini qəbul edin! Bilin ki, Allah insanla onun qəlbi arasına girər. Həqiqətən, siz Onun hüzurunda toplanacaqsınız. (Ənfal surəsi, 24)**

## Qəlbin uzlaşması

**Allah onların qəlbini (bir-birlərinə qarşı sevgi və dostluqda) birləşdirdi. Sən yer üzündə olan hər şeyi versəydin belə, yenə onların qəlbini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi. Şübhəsiz ki, O qüdrətlidir, hikmət sahibidir. (Ənfal surəsi, 63)**

**Hamılıqla Allahın ipinə (İslama) yapışın və parçalanmayın! Allahın, sizə olan nemətini xatırlayın. Belə ki, siz bir-birinizə düşmən ikən, O sizin qəlbinizi birləşdirdi və Onun neməti sayəsində qardaş oldunuz. Siz bir atəş quyusunun kənarında ikən O sizi oradan xilas etdi. Allah ayələrini sizə belə açıqlayır ki, bəlkə, haqq yola yönələrsiniz. (Ali İmran surəsi, 103)**

## Qəlbinə sinmək

Vaxtilə sizdən əhd alıb dağı üstünüzə qaldıraraq: “Sizə verdiyimizdən möhkəm yapışın, (oradakı hökmləri) dinləyin!” - demişdik. Onlar isə: “Eşitdik və qarşı çıxdıq!” - demişdilər. Küfrləri səbəbilə qəlbini buzov sevgisi bürümüşdü. De ki: “Əgər iman etmisinizsə, imanınızın sizə onu əmr etməsi necə də pisdir!” (Bəqərə surəsi, 93)

## Qəlbin təqvası

Budur! Kim Allahın nişanələrinə hörmət göstərərsə, şübhəsiz, bu, qəlbin təqvasındandır. (Həcc surəsi, 32)

## Qəlbi isindiriləcək kəslər

Sədəqələr (zəkatlar) Allah tərəfindən bir fərz olaraq ancaq yoxsullara, miskinlərə, (zəkat yığan) işçilərə, qəlbi İslama isindiriləcək kimsələrə, (azad olmağa çalışan) kölələrə, borclulara, Allah yolunda olanlara və yolda qalan yolçulara aiddir. Allah hər şeyi biləndir, hikmət sahibidir. (Tövbə surəsi, 60)

## Qəlbin rahatlıq tapması

Onlar iman edən və Allahı zikr etməklə qəlbi rahatlıq tapan kimsələrdir. Bilin ki, qəlb (ancaq) Allahı zikr etməklə rahatlıq tapar. (Rad surəsi, 28)

(Həvarilər) demişdilər: "İstəyirik ki, ondan yeyək, qəlbimiz aram tapsın, bizə doğru dediyini biləк və ona (o möcüzəyə) şahidlik edənlərdən olaq." (Maidə surəsi, 113)

Həqiqətən, iman edib yaxşı işlər görən və Rəbbinə ürəkdən boyun əyənlər cənnət əhlidirlər. Onlar orada əbədi qalacaqlar. (Hud surəsi, 23)

Bir də ona görə ki, özlərinə elm verilmiş kimsələr onun Rəbbindən gələn haqq olduğunu bilib ona inansınlar və bununla da qəlbi rahatlıq tapsın. Şübhəsiz ki, Allah iman edənləri mütləq doğru yola yönəldər. (Həcc surəsi, 54)

Allah bunu sizin üçün yalnız müjdə olsun və qəlbiniz rahatlasın deyə etdi. Zəfər ancaq yenilməz qüdrət və hikmət sahibi olan Allahdandır. (Ali İmran surəsi, 126)

## Qəlbin güclənməsi

Biz elçilərin xəbərlərindən sənin qəlbini təskin edən nə varsa, sənə danışırıq. Bunda (bu ayələrdə) sənə həqiqət, möminlərə də nəsihət və xəbərdarlıq gəlmişdir. (Hud surəsi, 120)

## Qəlbin boş olması

Onlar (o gün) gözlərini belə qırpmadan başlarını göyə qaldırıb, qəlbi bomboş halda qaçacaqlar. (İbrahim surəsi, 43)

## Qəlbə qorxu salınması

**Haqqında heç bir dəlil nazil etmədiyi şeyləri Allaha şərik qoşduqları üçün inkar edənlərin qəlbinə qorxu salacağıq. Onların sığınacağı yer cəhənnəmdir. Zalımların gedəcəyi yer nə pisdir! (Ali İmran surəsi, 151)**

## Qəlbin qəzəblə qabarması

**Allah tək olduğu (vəhdaniyyəti) anıldığı zaman axirətə inanmayanların qəlbi nifrətlə dolar. Lakin Ondan başqaları anıldığı zaman onlar dərhal sevinərlər. (Zumər surəsi, 45)**

## Qəlbin meyl etməsi

**Axirətə inanmayanların qəlbi onlara meyl etsin, onlardan xoşlansın və gördükləri pis işlərə davam etsinlər deyə (bu sözləri təlqin edərlər). (Ənam surəsi, 113)**

## Qəlbdə sağalmaz həsrətin olması

**Ey iman edənlər! Siz, yer üzündə cihada çıxan və ya müharibədə olan qardaşları haqqında: "Əgər bizim yanımızda olsaydılar nə ölər, nə də öldürülərdilər!" - deyən inkar edənlər kimi olmayın! Allah bunu, onların qəlbində bir həsrət (yarası) olsun deyə etdi. Həyat**

verən də, öldürən də Allahdır. Allah sizin etdiklərinizi görəndir. (Ali İmran surəsi, 156)

## Qəlbdə olmayanı dilə gətirmək

Və münafiqləri bəlli etsin. Onlara: “Gəlin, Allah yolunda vuruşun, yaxud müdafiədə olun!” – deyildiyi zaman onlar belə dedilər: “Əgər vuruşmağı bilsəydik, əlbəttə, sizin arxanızca gələrdik”. Onlar o gün imandan çox küfrə yaxındılar. qəlbində olmayan bir şeyi ağızları ilə söyləyirlər. Halbuki, Allah onların (qəlbində) gizlətdikləri şeyi daha yaxşı bilir. (Ali İmran surəsi, 167)

## Qəlbdə gizli saxlamaq

Ey iman edənlər, sizdən olmayanları sirdaş tutmayın! Onlar sizə pislik etməkdən əl çəkməz və sizin çətinliyə düşməyinizi istəyərlər. Düşmənçilikləri də ağızlarından (çıxan sözlərdən) aşkar olur. Qəlbində gizlətdikləri (düşmənçilik) isə daha böyükdür. Əgər düşünüb anlayırsınızsa, ayələri artıq sizə izah etmişik. (Ali İmran surəsi, 118)

## Qəlbin parçalanması

Onların tikdiyi bina (öldükləri zaman) qəlbi parçalanana qədər qəlbində bir şübhə olaraq qalacaqdır. Allah hər şeyi biləndir, hikmət sahibidir. (Tövbə surəsi, 110)

# Qəlbin azması

(Onlar belə dua edərlər:) Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra qəlbimizə əyrilik salma və bizə, Öz tərəfindən bir mərhəmət bəxş et! Sən, həqiqətən, (mərhəmət) bəxş edənsən. (Ali İmran surəsi, 8)

Müsəlmanlardan bir qrupun qəlbi əyriliyə meyl etmək üzrə ikən elçinin və çətin vaxtda ona tabe olan mühacirlərlə ənsarın tövbəsini şübhəsiz ki, Allah qəbul etdi. Sonra da onları bağışladı. Həqiqətən, Allah onlara qarşı çox şəfqətli və mərhəmətlidir. (Tövbə surəsi, 117)

# Qəlbin bənzəməsi

Cahillər isə: "Allah bizimlə danışmalı, yaxud bizə bir ayə gəlməli deyildimi?" - dedilər. Onlardan əvvəlkilər də onların sözlərinə bənzər şeylər demişdilər. Onların qəlbi bir-birinə bənzəyir. Yəqinliklə iman edən kimsələrə ayələri (dəlilləri) açıq-aydın bəyan etmişik. (Bəqərə surəsi, 118)

# Qəlbin qarşı çıxması

(Onlarla müqavilə) necə ola bilər ki?! Əgər sizə qalib gəlsəydilər, nə sizinlə olan müqaviləyə, nə də əhdə riayət edərdilər. Onların qəlbi rədd etdiyi halda, ağızları ilə sizi razı salırlar. Onların çoxu fasiqlərdir. (Tövbə surəsi, 8)

# İmansız qəlb

**Müsəlman oldular deyə sənə minnət edirlər. De: "Müsəlman olduğunuza görə mənə minnət etməyin! Əksinə, əgər sadiqlərdənsinizsə, bilin ki, əslində sizi imana yönəltdiyinə görə Allah sizə minnət qoymalıdır." (Hucurat surəsi, 17)**

# Qəlbdə xəstəlik olması

**Onların qəlbində xəstəlik (küfr, nifaq) vardır. Allah onların xəstəliyini daha da artırmışdır. Yalan söylədiklərinə görə onlar üçün şiddətli bir əzab vardır. (Bəqərə surəsi, 10)**

**Qəlbində xəstəlik olan kimsələrin: "Başımıza bir fəlakət gəlməsindən qorxuruq!" - deyərək onlara tərəf qaçışdıqlarını görərsən. Ola bilsin ki, Allah (möminlərə) bir zəfər, yaxud Öz tərəfindən elə bir iş gətirər ki, onlar (münafiqlər) qəlbində gizlətdikləri şeyə görə peşman olarlar. (Maidə surəsi, 52)**

**(Allah şeytanın bunu etməsinə icazə verir ki,) qəlbində xəstəlik olanlar və qəlbi qatılaşanlar üçün şeytanın təlqinini bir sınaq vasitəsi etsin. Həqiqətən, zalımlar (haqdan) uzaq bir ayrılıq içindədirlər. (Həcc surəsi, 53)**

# Qəlbin sərtləşməsi

**Bundan sonra qəlbiniz daş kimi qatılaşdı, hətta daha da sərt oldu. Həqiqətən, bəzi daşların içərisindən çaylar axar, bəzisi yarılıb içindən su fışqırar, bəzisi də Allah qorxusundan yuvarlanıb düşər. Allah etdiklərinizdən qafil deyildir. (Bəqərə surəsi, 74)**

**Barı, əzabımız onlara gəldiyi zaman boyun əyəydilər. Lakin onların qəlbi sərtləşdi və şeytan da onlara etdikləri əməlləri cazibəli göstərdi. (Ənam surəsi, 43)**

**Allah kimin qəlbini İslama açmışsa, o, Rəbbindən bir nur üzrə deyilmi?! Allahı zikr etməyə qarşı qəlbi sərtləşmiş olanların vay halına! Onlar açıq-aydın bir azğınlıq içindədirlər. (Zumər surəsi, 22)**

## Qəlbin möhürlənməsi

**Verdikləri əhdi pozmaları, Allahın ayələrini inkar etmələri, elçiləri haqsız yerə öldürmələri və: “Qəlbimiz pərdəlidir!” - demələrinə görədir. Xeyr, küfrlərinə görə Allah onların qəlbini möhürləmişdir. Artıq, onların az bir qismi iman edər. (Nisa surəsi, 155)**

**Bəs onlar Quranı düşünmürlərmi?! Yoxsa qəlbində qıfıllarmı var?! (Məhəmməd surəsi, 24)**

**(Əvvəllər məhv olmuş) xalqlardan sonra yer üzünə varis olanlara aydın olmadımı ki, əgər Biz diləsəydik, onları da günahlarına görə müsibətlərə düçar edər, onların qəlbini möhürləyərdik və beləliklə onlar (haqqı) eşitməzdilər. (Əraf surəsi, 100)**

**Allah onların qəlbini və qulaqlarını möhürləmiş, gözlərini də pərdələmişdir. Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 7)**

**Özlərinə heç bir dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edənlər həm Allahın, həm də iman edənlərin nəzdində böyük bir nifrətlə qarşılanarlar. Allah təkəbbürlü hər bir zalımın qəlbini belə möhürləyər. (Mömin surəsi, 35)**

**Ey elçi! qəlbi inanmadığı halda ağızları ilə: "İnandıq", - deyənlərdən küfrdə bir-birləri ilə yarışanlar səni kədərləndirməsin! Yəhudilərdən də elələri var ki, yalan sözlərə və sənin yanına gəlməyən başqa kimsələrə qulaq asırlar. Onlar (Tövratdakı) sözlərin yerini sonradan dəyişdirirlər. Onlar: "Əgər bu sizə verilsə, onu alın. Əgər o sizə verilməsə, (ondan) uzaq durun!" - deyirlər. Allah bir kimsənin fitnəyə (zəlalətə) düşməsini istəyərsə, sən Allaha qarşı onun üçün heç bir şey edə bilməzsən. Onlar elə kimsələrdir ki, Allah onların qəlbini təmizləmək istəməmişdir. Onlar üçün dünyada rüsvayçılıq, axirətdə isə böyük bir əzab vardır. (Maidə surəsi, 41)**

**Sonra onun ardınca bir çox elçisi öz qövmünə göndərdik. Onlara açıq-aşkar möcüzələr gətirdilər. Ancaq onlar əvvəl yalan saydıqlarına iman edəsi deyildilər. Həddi aşanların qəlbini belə möhürləyirik. (Yunis surəsi, 74)**

**O məmləkətlərin xəbərlərinin bir qismini sənə söyləyirik. Həqiqətən, elçiləri onlara açıq-aşkar dəlillər gətirmişdilər. Ancaq onlar daha əvvəl yalanladıqlarına iman edəsi deyildilər. Allah inkar edənlərin qəlbini belə möhürləyər. (Əraf surəsi, 101)**

**Ancaq imkanı olduqları halda (döyüşə getməmək üçün) səndən izin istəyənlər qınanmalıdırlar. Onlar arxadakılarla birlikdə qalmağa razı oldular. Allah onların qəlbinə möhür vurmuşdur. Onlar artıq anlamazlar. (Tövbə surəsi, 93)**

**De: "Deyin görüm, əgər Allah eşitmə və görmə qabiliyyətinizi (əlinizdən) alsa və qəlbinizə də möhür vursa, Allahdan başqa hansı ilah onları sizə geri gətirə bilər?" Bax gör, ayələri necə açıqlayırıq! Sonra onlar yenə (haqdan) üz çevirirlər. (Ənam surəsi, 46)**

Bütün bu ayələr çox açıq həqiqəti ortaya çıxarır: İman, insan qəlbinin həssas olmasıyla əlaqədardır. Qəlbi qatılaşmamış, mühürlənməmiş insan Allahı tanımağa və Ona itaət etməyə meyillidir. Ona din izah edildikdə, Allahın qəlbinə verdiyi bəsirətlə həqiqəti görər və dərhal iman edər. Halbuki inkarçılar fərqli ruh halına malikdirlər. Onların qəlbi ölüdür, möhürlüdür. Qəlbində həssaslıq olmadığı üçün, ağıl sahibi də ola bilməzlər. Quranın başqa ayələrində, mömin əxlaqına sahib kəslərin onlara verilən öyüdləri dərhal dinlədikləri, inkarçı əxlaqa sahib kəslərin isə nə olursa olsun iman etməyəcəkləri xəbər verilir. Ayələrdə belə buyurulur:

**Həqiqətən, onların əksəriyyəti barəsində söz (əzab hökmü) vacib olmuşdur. Çünki onlar iman etməzlər. Biz onların boyunlarına çənələrinə dirənən zəncirlər vurduq. Buna görə də başları yuxarı qalxmışdır. Önlərinə bir sədd, arxalarına da bir sədd çəkib onları bağlamışıq. Buna görə də onlar (haqqı) görə bilməzlər. Sən onları xəbərdar etsən də, etməsən də onlar üçün birdir. Onlar iman etməzlər. Yasin surəsi, 7-10)**

**Sən yalnız Qurana tabe olan və görmədiyi halda Rəhman olan Allahdan qorxan kimsəni xəbərdar edə bilərsən. Buna görə də onu bağışlanma və gözəl bir mükafatla müjdələ! (Yasin surəsi, 11)**

**Həqiqətən, inkar edənləri xəbərdar etsən də, etməsən də, onlar üçün birdir. Onlar iman etməzlər. Allah onların qəlbini və qulaqlarını möhürləmiş, gözlərini də pərdələmişdir. Onlar üçün böyük bir əzab vardır. (Bəqərə surəsi, 6-7)**

**Sən ölülərə (haqqı) eşitdirə bilməzsən. Arxasını dönüb gedən karlara da (haqq yola) dəvəti eşitdirə bilməzsən. Sən korları zəlalətdən uzaqlaşdırıb haqq yola yönəldə bilməzsən. Sən (bu dəvəti) yalnız ayələrimizə inanıb təslim olanlara eşitdirə bilərsən. (Nəml surəsi, 80-81)**

Qəlbi qatılaşmış və buna görə də, ağılla düşünmə qabiliyyətini itirən inkarçılara qarşı, bir də vicdan sahibi olan, ancaq hələ dini öyrənməmiş insanlar vardır. Bunlar, onlara din təbliğ edildiyində, dinin haqq olduğunu qəlbi ilə qavrayar və dərhal iman edərlər. Bu iki tərəf, yəni qəlbi sərt olan inkarçılar ilə imana yaxın olan, ancaq onlara hələ təbliğ çatmamış kəslər arasındakı ən böyük fərq isə, bir tərəfin təkəbbürlü, o biri tərəfin isə təvazökar olmasıdır (Sonrakı səhifələrdə təkəbbür və təvazökarlığa daha ətraflı şəkildə toxunacağıq).

Mömin fitrətinə (yaradılışına) sahib kəslər dinə dəvət edildiklərində, **"Ey Rəbbimiz! Həqiqətən, "Rəbbinizə iman edin!" – deyə imana çağıran kimsəni (elçini) eşitdik və dərhal iman etdik..."** (Ali İmran surəsi, 193) ayəsində təsvir edilən əxlaqı göstərərək dərhal qəbul edirlər. İnkarçılar isə həmişə əks reaksiya göstərir, hətta bir qismi düşmənçilik hissi ilə yaşayırlar.

## "VAR GÜCÜ İLƏ VİCDANINA UYAN İNSAN, ƏN AĞILLI İNSANDIR"

**ADNAN OKTAR**: Ağıl insanın öz idarəsindəymiş kimi görünən, amma taleyində olan, Allahın ona verdiyi məlumatdır. Yəni Allahın ona verdiyi düşünmə şəklidir. Allah bunun hamısını taledə hər insana yazmışdır və eyni hadisələr olmuşdur. Məsələn, Quranda hz. Musanın (ə.s) söhbətləri var. Hz. Musa (ə.s) hələ doğulmadan, hələ dünyada yox ikən Quran vardı. Amma Quranda hz. Musanın (ə.s) danışıqları var orada.

Körpə ikən səbətə qoyulacağı, onu Fironun arvadının necə tapacağı, necə böyüyəcəyi hamısı taleyində idi və bütün danışıqları taleyində idi. Eynilə taleyindəki kimi yaşadı. **Buna görə də, insanlarda müstəqil ağıl yoxdur. Allahın yaratdığı ağıl vardır. İnsan ona verilən ağıl qədər davrana bilər...**

Əgər bir insan ağlını, vicdanını istifadə etmirsə, Quranın ifadəsi ilə **"Onlar heyvanlar kimidirlər, hətta daha çox aşağıdırlar..."** (Əraf surəsi, 179) deyilir. Heyvanlar kimidir, hətta heyvanlardan da daha çox aşağıdırlar, çünki heyvanlardan aşağı olmasının səbəbi budur: Sizin də bayaq dediyiniz kimi heyvanlar məzlum varlıqlardır. İnsanlar o cəhətdən aşağı mövqeyə düşmüş sayılır. Yəni ən çirkin heyvan mövqeyində olur. Əgər gözəl əxlaq göstərməsə ən pis varlıq olmuş sayılır.

Sevgini, şəfqəti, mərhəməti, fədakarlığı bilməsə, başqa bir ayənin ifadəsi ilə ən səfil hala qədər getmiş olur. Ən aşağılara, "**Həqiqətən, Biz insanı ən gözəl surətdə yaratdıq. Sonra onu aşağıların ən aşağısı etdik.**" (Tin surəsi, 4-5) deyir Allah. **İnsan istəsə hz. Əbubəkir kimi də ola bilər. İstəsə Əbu Cəhil kimi də ola bilər. Möminlər hz. Əbubəkir kimi olmağa cəhd etməlidirlər inşaAllah.** *(Kral Karadeniz reportajından, 22 yanvar 2009)*

# AĞIL SAHİBLƏRİ VƏ AĞLI ÖRTƏN AMİLLƏR

Ağlı insana Allah verir; istədiyi vaxtda da geri alır. İnsanın ağlının inkişafı isə qəlbinin inkişafına, yəni qəlbinin "Allahın zikri" ilə dolmasına bağlıdır.

Yaxşı bəs, **"ağıl sahibi"** nə deməkdir?

Quranın ümumi məntiqinə nəzər saldıqda bu sualın cavabını asanlıqla tapa bilərik: İnsanın qəlbini və ağlını örtən şeylər nəfsin istəkləri və eqoist ehtiraslardır. Məsələn, qısqanc olan insan ağlının əhəmiyyətli hissəsini itirir. Çünki qısqanclıq hissi onu daim məşğul edir və fikrini yayındırır. Bütün günü paxıllıq etdiyi adamı düşünür, ona hirslənir, kin saxlayır. Belə bir vəziyyətə düşən insan qısqanclıq hissi ilə ağlını itirmiş, sərbəst düşünmək qabiliyyətini itirmişdir. Ətrafındakı həqiqətləri sakit və məntiqli şəkildə qiymətləndirə bilmir.

Digər nəfsani istəklər də, imanı zəif olan insanın ağlını örtür. Pul və ya oxşar maddi dəyərlərə olan arzu belə insanların ağlını işğal edir. Bu vəziyyətdə olan insan yalnız daha çox mal və pula necə sahib olmaq barədə düşünür.

İnkarçıların başqa bir xüsusiyyəti də həmişə gələcəklə bağlı qorxu içində olmalarıdır. Onlar həmişə kasıb olmaqdan, sahib olduqlarını itirməkdən və ya xəstələnməkdən qorxurlar. Gələcəkdə necə həyat sürəcəklərini saatlarla düşünürlər. Bu, ağlın böyük ölçüdə örtülməsi ilə nəticələnir. Çünki hiss etdikləri qorxu və narahatlıq onları paranoyya xəstəsi edir və sərbəst düşünmələrinə mane olur. Ölüm qorxusu da eynidir. Demək olar ki, bütün inkarçıların ağlına ölüm gəldiyi zaman böyük qorxu, ağrı və kədər yaşayır. Ölüm anlıq bir hadisədir; Ancaq inkarçılar bunun acısını 40-50 il əvvəl yaşamağa başlayırlar. Digər tərəfdən, ölüm möminlərə heç bir əzab verməz.

Bu və buna bənzər qorxular, hərislik, iman etməyən və ya imanı zəif olanların ağlını örtür. Bu insanlar həmin duyğuların əsiri olur və ağlını yönləndirməli olan məsələləri görməzlikdən gəlirlər. Məsələn, insanın ən çox düşünəcəyi şey, Allahın əzəməti və yaradılışının mükəmməlliyidir. İnsan Allahın nemətlərini xatırlamağa, Ona həmd etməyə və Ona ibadət etməyə borcludur. Ancaq qapalı bir ağılla bunlara nail ola bilməz. Halbuki, müdrik

insanlar Allahı tanıyan, Ona itaət edən, yəni nəfsin istəklərindən, qorxudan, hərislikdən uzaq olanlardır.

Ağıllı insanlar həm də başqalarından məsləhət ala bilən və həqiqəti asanlıqla qəbul edə bilən insanlardır. Çünki onların qəlbində təkəbbür və özünü bəyənmişlik yoxdur. Özlərində gördükləri səhvləri asanlıqla düzəldirlər və başqalarının məsləhətini asanlıqla qəbul edirlər. Söhbət zamanı onların məqsədi həqiqəti üzə çıxarmaqdır; fikirlərinin mütləq qəbul edilsin deyə israrlı davranmazlar. Buna görə də, Allah onları **"O kəslər ki, sözü eşidib onun ən gözəlinə tabe olurlar..."** (Zumər surəsi, 18) ayəsi ilə təsvir edir.

İnkar edənlərin ağılları olmadığı üçün ətrafında olan böyük həqiqətləri görə bilmirlər. Bütün varlıq aləmi Allahın dəlilləri ilə doludur; lakin inkarçılar bunların heç birini görməz. Çünki onun ağlı açıq deyil. Onun öz eqoist və hərisliklə kor olmuş zehni var. Başını quma basdırmış dəvəquşu kimi ağlını yalnız sadə mənfəətlərinə, eqoizminə, komplekslərinə həsr edir və Allahın böyüklüyünü dərk edə bilmir. Buna görə də, Allah Quranda "ağıl sahiblərini" Ona iman etməyə çağırır. Bu mövzu ilə bağlı ayələrdən birində belə buyurulur:

**Musa: "Əgər ağlınızı işlətsəniz, (bilərsiniz ki,) O, şərqin, qərbin və ikisi arasında olan hər şeyin Rəbbidir!" - dedi. (Şuəra surəsi, 28)**

Allah Quranda inkarçılara xitab edərkən, ilk növbədə onları ağıla dəvət edir. Elçilər göndərildikləri tayfaları da düşünməyə çağırırdılar. Mövzu ilə bağlı ayələrdən bəziləri belədir:

**Səndən əvvəl də yalnız şəhər əhlindən vəhy etdiyimiz kişiləri elçi göndərdik. Onlar yer üzündə gəzib dolaşmadılarmı ki, özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görsünlər?! Şübhəsiz, təqva sahibləri üçün axirət yurdu daha yaxşıdır. Hələ də dərk etmirsinizmi? (Yusif surəsi, 109)**

**Ey kitab əhli, nə üçün İbrahim barəsində mübahisə edirsiniz? Halbuki Tövrat və İncil ondan sonra nazil edilmişdir. Siz heç düşünmürsünüzmü? (Ali İmran surəsi, 65)**

**Həqiqətən, Biz içində sizin üçün öyüd-nəsihət olan bir Kitabı sizə nazil etdik. Hələ də dərk etmirsinizmi? (Ənbiya surəsi, 10)**

**De: "Gəlin, Rəbbinizin sizə nələri haram etdiyini oxuyum: Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya yaxşılıq edin! Yoxsulluq qorxusu ilə övladlarınızı öldürməyin! Sizin də, onların da ruzisini Biz veririk. Pis işlərin açıq olanına da, gizli qalanına da yaxın durmayın! Allahın haram buyurduğu cana haqsız yerə qıymayın! Bunlar, (Allahın) sizə əmrləridir. Ola bilsin ki, siz düşünüb anlayasınız. (Ənam surəsi, 151)**

**Onlardan sonra (ayələri təhrif etmək müqabilində) bu dəyərsiz dünya malını alaraq Kitaba varis olan və: "Onsuz da biz bağışlanacağıq". - deyən kimsələr onların yerinə keçdilər. Onlara, ona bənzər başqa bir dünya malı gəlsəydi, onu da alardılar. Bəs onlardan, Allaha dair haqdan başqasını söyləməyəcəklərinə dair Kitabda yazılanlara uyğun əhd alınmamışdımı?! Halbuki, onlar onun içindəkiləri öyrənmişdilər. Axirət yurdu (Allahdan) qorxanlar üçün daha xeyirlidir. Hələ də düşünmürsünüzmü? (Əraf surəsi, 169)**

**De: "Əgər Allah diləsəydi, onu sizə oxumazdım və (Allah) onu sizə bildirməzdi. Mən (Quran nazil edilməzdən) əvvəl də sizin aranızda ömür sürmüşəm. Yenə də dərk etmirsinizmi?" (Yunis surəsi, 16)**

**Dünya həyatı yalnız oyun və əyləncədən ibarətdir. Şübhəsiz, axirət yurdu təqva sahibləri üçün daha xeyirlidir. Yenə də düşünüb dərk etmirsinizmi? (Ənam surəsi, 32)**

Allahın bütün kainatdakı ayələrini (varlığının və gücünü dəlillərini) görə bilənlər yalnız ağıl sahibi insanlardır:

Yer üzündə eyni su ilə sulanan bir-birinə qonşu ərazilər, üzüm bağları, əkinlər, şaxəli və şaxəsiz xurma ağacları vardır. Ancaq yeyilməsi baxımından onların bir qismini digərlərindən üstün tuturuq. Şübhəsiz ki, bunda dərk edən bir qövm üçün dəlillər vardır. (Rad surəsi, 4)

De: "O (Allah), üstünüzdən (göydən) və ya ayaqlarınızın altından (yerdən) sizə əzab göndərməyə, yaxud sizin aranızı qarışdırıb bir-birinizə zərər verdirməyə qadirdir". Bax, başa düşsünlər deyə, ayələri onlara necə açıqlayırıq! (Ənam surəsi, 65)

Sizi tək bir nəfsdən (Adəmdən) yaradan da Odur. (Sizin üçün) bir qalma yeri (dünya həyatı), bir də əmanət olaraq qoyulacağınız yer var. Biz dərk edən bir qövm üçün ayələri ətraflı izah etdik. (Ənam surəsi, 98)

... Allah ayələrini sizə belə izah edir ki, başa düşəsiniz. (Nur surəsi, 61)

Xurma və üzümün meyvələrindən də içki və gözəl qidalar əldə edirsiniz. Şübhəsiz ki, bunda düşünənlər üçün bir dəlil vardır. (Nəhl surəsi, 67)

O, gecəni, gündüzü, günəşi və ayı sizin xidmətinizə verdi. Ulduzlar da Onun əmri ilə ram edilmişdir. Həqiqətən, bunda düşünən insanlar üçün dəlillər vardır. (Nəhl surəsi, 12)

Sizə öz nəfsinizdən bir misal çəkdi: "Sizə ruzi olaraq verdiyimiz şeylərdə, əqd bağladıqlarınızdan və sizinlə bərabər olub özünüzdən qorxduğunuz kimi onlardan qorxduğunuz (yaxud hörmət etdiyiniz) şəriklər varmı?" Ağlını işlədə bilən bir qövm üçün ayələri biz bu cür izah edirik. (Rum surəsi, 28)

**Musa: “Əgər ağlınızı işlətsəniz, (bilərsiniz ki,) O, şərqin, qərbin və ikisi arasında olan hər şeyin Rəbbidir!” - dedi. (Şuəra surəsi, 28)**

**Sizə qorxu və ümidi hiss etdirmək üçün ildırımı göstərməsi də Onun (varlığının) dəlillərindəndir. O, göydən su endirir və ölümündən sonra onunla torpağa can verir. Həqiqətən, düşünənlər üçün bunda ibrətlər vardır. (Rum surəsi, 24)**

Ağlın da mərtəbələri vardır. Bir insan qəlbini nə qədər nəfsinin istəklərindən, eqoizmdən təmizləyərsə, nə qədər çox vicdanına uyarsa, o qədər də Allaha yaxınlaşar və ağıl sahibi olar. İnsanın dünya həyatına bağlılığı, arzu və istəyini ön plana alması ağılla düşünmə xüsusiyyətini itirməsinə səbəb olan ən əhəmiyyətli amillərdir.

İnsan Allaha itaət etdikcə nəfsinin hökmranlığından xilas olar və ağlı açılar. Buna qarşı, böyük cahilliklə nəfsini ilah etməsi ağlı məhv edir. Nəfsin ilahlaşdırılması, insanın bütün düşüncə və davranış sistemini nəfsinin sərhədsiz istək və arzuları istiqamətində yenidən proqramlaşdırmasıyla, yəni özünü böyük bədbəxtlik və çətinliyə sürükləməsiylə özünü göstərir.

Nəfsin istəklərinin insanın mənliyini bürüdüyü halda qəlb də möhürlənir. Yəni haqq olanın qapıları tamamilə bağlanır, kilidlənir və artıq qəlb düşünmək və dərk etmək qabiliyyətini itirir, sönük və hissiyyatsız olur. Bu halda, insan öz mənəvi funksiyalarını yerinə yetirə bilmir, yəni düşünə bilmir.

Ancaq bu müddət ərzində insan ağlı ilə bərabər rasional və şüurlu qiymətləndirmə qabiliyyətini itirdiyi üçün ağlının azalıb yox olduğunu dərk etməz. Buna görə də, hər nə qədər ağıllanan bir insan bunu dərk etsə də, bu hadisənin əksi keçərli deyil. Bu, komada olan adamın komada olduğunu bilməməsi və ya huşunu itirən insanın huşunu itirdiyini bilməməsi kimidir. Əgər sağalsa və ya ayılsa, düşdüyü vəziyyəti dərk edə bilər.

Quranda düşünə bilməyən insanların bu vəziyyəti belə təsvir edilir:

**İnkar edənlərin halı çığırtı və bağırtıdan başqa heç nə eşitməyənləri qışqıraraq səsləyən kimsənin halına bənzəyir. Onlar kar, lal və kordurlar. Buna görə də onlar dərk etməzlər. (Bəqərə surəsi, 171)**

## "AĞIL, QURAN ƏXLAQINA UYMAQLA YARANAR"

**ADNAN OKTAR:** Təbii ki. Əlhəmdülillah deyilir, Allaha həmd edilməlidir. Allah elə təcəlli edir. Allah ona bir görüntü yaradır. Allah ona o cür görünmüş olar. Yəni o, şəxsi görmür Allahın ondakı təcəllisini görmüş olur. Buna görə də, qürurlanacaq vəziyyət varmı? Onsuz da şəffaf varlıqdır, ölümlü varlıqdır, şəffaf və qapqara. Allah onu beynimizdə işıqlı və aydın halda göstərir, elə deyilmi? Yəni bilməyən bacı-qardaşlarımız ola bilər; işıq normalda bu qədər parlaq deyil, fotonlardan ibarət sistemdir, onu beynimiz işıq olaraq qəbul edir.

İşıq və rəng beynimizdə yaranır, xarici aləmdə işıq və rəng yoxdur. Buna görə də, insana tərif deyəndə əslində Allah təriflənmiş olur, insanlar bunu bilməlidirlər. İkinci olaraq da, dini mövzularda söhbət edən insanlar görürəm, danışırlar. Sanki din izah edilərkən tamam ayrı üslub; çox süni, ruhaniyyətli mühit yaratmağa çalışırlar. Sanki uçur, buludlarda uçurmuş kimi göyə baxır, arxada da musiqi, qaval səsi, yaxud ney səsi çox süni mimikalar, süni səs tonu, qəribə izahlar; mən belə tipləri çox gördüm.

Çox şişirdilmiş mimikaları var, improvizasiya teatrı kimi. Diqqətlə baxın, çox qəribə tiplər var. Və yaxud özünə ruhani övliya havası verən tiplər; məsələn, göyə baxaraq danışır, aşağıda arxadan bir ney səsi gəlir, Peyğəmbərimizi (s.ə.v) bu cür izah edir. Qardaşım, sən ağıllı şəkildə, düzgün formada izah et. Yəni belə şeyə ehtiyac varmı? O cür xüsusi davranışa ehtiyac varmı?

**Quran bizə ağıl öyrədir, ağıl Qurandan qaynaqlanır. Quran dünyanın ağlıdır. İnsanın ağlı da Qurandır.** Ağıllı insan dediyimiz də, ağıllı insanın Qurana tabe olmasına deyilir ağıllı deyə. Ağıllı insan Qurana tabe olduğunda ağıllı olmuş olur. Amma təbii ki, zəka anbaan yaradılır, yəni insan anadangəlmə zəkalı olmaz, hər an zəka yaradılır. Ağıl da hər an yaradılır.

Yəni insanda sabit ağıl yoxdur. *(Mavi Karadeniz TV reportajından, 26 yanvar 2010)*

# AĞIL VƏ DUYĞUSALLIQ

Ağlı örtən ən mühüm amillərdən biri də emosionallıq, yaxud digər adı ilə romantizmdir. Bu, son dərəcə təhlükəli və zərərli ruh halıdır, bir çox insanın düşünməsinə mane olur.

Emosionallıq, insan duyğularının ağlın nəzarətini aşması və ağlını itirərək insanı idarə etməsidir. Emosional insan sırf duyğularının köləsi olduğu üçün ağılsız şeylər edə bilər. Halbuki, mömin duyğularını ağıla görə istiqamətləndirər və tənzimləyər.

Məsələn, sevgi anlayışı emosional və ağıllı formada olar. Emosional sevgi bəsləyən insan heç vaxt sevilməyə layiq olmayan insanlara və ya əşyalara sevgi bəsləyir. İnsanlar arasında "arabesk" mədəniyyətində yer alan sevgi anlayışı bunun ən bariz nümunəsidir; bu mədəniyyətdə onlara əziyyət verən, dəyər verməyən insanları sevmək məntiqi var.

Bunun əksinə isə möminin sevgisi tamamilə onun ağlına əsaslanır. Sevdiyi insanı, ondakı gözəl xüsusiyyətləri Quranda bildirilən "iman əlamətləri" və ya "mömin xüsusiyyətləri" araşdırıb görərək sevər. Sevilməyə layiq olmayan birinə heç vaxt sevgi bəsləməz.

Duyğusal sevginin təhlükəsi Quranda tez-tez vurğulanır. "Mumtəhinə" surəsində Allah belə buyurur:

**Ey iman edənlər! Mənim düşmənimi də, öz düşməninizi də dost tutmayın! Siz onlara sevgi ilə yanaşırsınız. Halbuki onlar sizə gələn haqqı inkar edib Rəbbiniz olan Allaha iman etdiyinizə görə elçini və sizi yurdunuzdan çıxartdılar. Mənim yolumda və rizamı istəyərək cihada çıxdığınız halda qəlbinizdə onlara qarşı sevgi bəsləyirsiniz?! Mən sizin gizli saxladıqlarınızı da, aşkar etdiklərinizi də yaxşı bilirəm. Sizdən kim bunu edərsə, o, doğru yoldan azmış olar. Əgər onlar sizi ələ keçirsələr, sizə düşmən kəsiləcək, əlləri və dilləri ilə sizə pislik edəcəklər. Onlar sizin haqqı inkar etməyinizi istəyirlər. Nə qohumlarınız, nə də övladlarınız sizə bir fayda verəcəkdir. Allah qiyamət günü sizi bir-birinizdən ayıracaqdır. Allah etdiklərinizi görür. İbrahim və onunla birlikdə olanlarda sizin üçün gözəl nümunə vardır. Bir zaman onlar öz qövmlərinə: "Biz sizdən və Allahdan**

**başqa ibadət etdiklərinizdən uzağıq. Sizi (ibadət etdiklərinizi) inkar edirik. Görünür ki, siz Allahın bir olduğuna iman edənə qədər sizinlə bizim aramızda daimi bir düşmənçilik və nifrət olacaqdır"... (Mumtəhənə surəsi, 1-4)**

Ayələrdə bildirilən, **"Siz onlara sevgi ilə yanaşırsınız. Halbuki onlar sizə gələn haqqı inkar edib Rəbbiniz olan Allaha iman etdiyinizə görə elçini və sizi yurdunuzdan çıxartdılar"** ifadəsi ilə elçiyə düşmən olan birinə sevgi göstərmənin ağılsızlıq olduğu bildirilir.

Bu vəziyyətdə belə insanlara sevgi göstərmənin tək izahı vardır: **Duyğusallıq.**

Bu təhlükə başqa ayələrdə də bildirilir. Məsələn, hz. Nuh (ə.s), tufandan xilas olmaq üçün Allaha sığınmayan oğlu üçün Allahdan bağışlanmasını diləmiş, halbuki Allah, hz. Nuha (ə.s) oğlunun inkarçılardan olduğunu və ona sevgi bəsləməməsini vəhy etmişdir:

**Gəmi onları dağlar kimi iri dalğaların arasında aparırdı. Nuh (gəmidən) uzaqda olan oğluna: "Oğlum, bizimlə birlikdə (gəmiyə) min və inkar edənlərlə birlikdə olma!" - deyə səsləndi. Dedi: "Məni sudan qoruyacaq bir dağa sığınacağam!" Nuh: "Bu gün Allahın əmrindən (əzabından) qoruyacaq heç kim yoxdur. Ancaq Onun rəhm etdiyi kimsələr istisnadır!" – dedi. Dalğa o ikisinin arasına girdi və o da boğulanlardan oldu. (Yerə və göyə) deyildi: "Ey yer, suyunu ud! Ey göy, yağışını saxla!" Su çəkildi və iş bitdi. Gəmi Cudi dağına oturdu və: "Zalımlar məhv olsun!" - deyildi. Nuh Rəbbinə səslənib dedi: "Ey Rəbbim! Oğlum mənim ailəmdəndir. Şübhəsiz, Sənin vədin də haqdır. Sən hakimlərin hakimisən (ən ədalətli hakimsən)!" Allah buyurdu: "Ey Nuh! O sənin ailəndən deyildir. Çünki bu (onun etdiyi əməl), pis bir işdir. Ona görə də bilmədiyin bir şeyi Məndən istəmə! Sənə cahillərdən olmamağı tövsiyə edirəm". Nuh dedi: "Ey Rəbbim! Şübhəsiz, bilmədiyim bir şeyi Səndən istəməkdən Sənə sığınıram. Əgər məni bağışlamaz və mənə rəhm etməzsən, ziyana uğrayanlardan olaram!" (Hud surəsi, 42-47)**

Ağıl, ancaq gözəl əxlaqlı, yəni sevilməyə layiq insanları sevməyi tələb edir. Buna görə də, mömin üçün Allahı ya da hökmlərini tanımayan birinin sevilməsi mümkün deyil. Belə sevgi, ancaq cahillik mədəniyyətindən qaynaqlanan duyğusal sevgi ola bilər.

Ancaq burada bu məqamı da ifadə etməkdə fayda vardır: Möminlərin inkar edənlərə qarşı sevgi duymamaları, bu insanlara qarşı sərt davranmaları mənasına gəlməz. Allah, möminlərə bütün insanlara qarşı şəfqətli və mərhəmətli yaxınlaşmağı əmr etmişdir. Hansı düşüncədən, hansı inancdan olursa olsun, mömin qarşısındakı insana nəzakətlə davranmalı, bu kəslərin haqq-hüququnu ən ədalətli şəkildə qorumalıdır.

Hz. Nuh (ə.s) və hz. Lutun (ə.s) həyat yoldaşı da inkar etmişlər və Allahın əzabı ilə cəzalandırılmışlar. Hz. Lutun (ə.s) yaşadığı azğın qövm həlak edilmişdir. Həlakdan əvvəl hz. Luta (ə.s) gələn mələklər ona gecə şəhəri tərk etməsini, ancaq arvadını geridə buraxmasını bildirmişlər, hz. Lut (ə.s) da tərəddüdsüz buna əməl etmişdir. Bu hadisə ayədə belə xəbər verilir:

**(Mələklər) dedilər: "Ey Lut! Biz Rəbbinin elçiləriyik. Onlar əsla sənə dəyə bilməzlər. Arvadın istisna olmaqla, ailənlə birlikdə gecənin bir vaxtı yola çıx və sizdən heç kim arxaya baxmasın! Onların düçar olacağı əzaba o (arvadın) da düçar olacaqdır. Həqiqətən, onlara vəd olunan əzabın vaxtı səhərdir. Səhər yaxın deyilmi?!" (Hud surəsi, 81)**

Hz. Lut (ə.s), Allahın verdiyi hökmə tam itaət etmişdir. Nümunəvi mömin rəftarı budur. Allah ayəsində belə buyurur:

**Allaha və axirət gününə inananların - valideynləri, övladları, bacı-qardaşları, yaxud yaxın qohumları olsa belə - Allaha və elçisinə düşmən olanlarla dostluq etdiklərini görə bilməzsən. Allah onların qəlbinə iman yazmış və Öz dərgahındakı bir ruh (nur, yaxud Quran) ilə onları dəstəkləmişdir. Allah onları (ağacları) altından çaylar axan və içində əbədi qalacaqları cənnətlərə daxil edəcəkdir. Allah onlardan razı olmuş, onlar da Allahdan razı qalmışlar. Onlar Allahın tərəfdarlarıdır. Bilin ki, əsil nicat tapanlar Allahın tərəfdarlarıdır. (Mücadilə surəsi, 22)**

Möminlərin duyğusallıqdan uzaq davranmalarının sirri, sahib olduqları həqiqi sevgi anlayışıdır. Bir ayədə möminlərin sevgi anlayışı ilə inkarçıların sevgi anlayışı arasındakı fərq belə izah edilir:

**İnsanlardan elələri var ki, Allahdan qeyrilərini Ona şərik qoşur və onları Allahı sevdikləri kimi sevirlər. İman edənlərin Allaha olan sevgisi isə daha qüvvətlidir. Kaş zalımlar əzabı görəcəkləri zaman anlayacaqları kimi, bütün gücün Allaha məxsus olduğunu və Allahın əzabının şiddətli olduğunu dərk edəydilər. (Bəqərə surəsi, 165)**

Ayədə bildirildiyi kimi, möminlər Allahı çox sevərlər. İnsanlara olan sevgiləri bunun yansımasıdır. Möminlər iman edənləri sevər, çünki onlar Allahın əmr etdiyi əxlaqı yaşayan kəslərdir. İnkar edənlər isə, öz arzu və istəklərinə uymuş, Allahdan uzaqlaşmışlar. İnkarçılar hər varlığı, hər əşyanı Allahdan müstəqil varlıq zənn edər və bu yanılmaları səbəbi ilə hər birinə müstəqil bağlılıq duyarlar. Bu vəziyyət ayədə bildirildiyi kimi "Allaha şərik qoşmaq", yəni bütpərəstlik sayılır.

Möminlərin duyğusal olmamalarını bildirən başqa nümunələr də vardır. Hz. Musanın (ə.s) anasının gələn vəhy üzərinə körpəni tərəddüdsüz suya buraxması (Qəsas surəsi, 7), möminlərin qəzəblərini boğmaları (Ali İmran surəsi, 134), sevdikləri şeylərdən infaq etmələri (Ali İmran surəsi, 92), başlarına gələn heç bir şeyə kədərlənməmələri (Hədid surəsi, 23) kimi bir çox nümunələr vardır. Bunlar, möminlərin öz duyğusal vəsvəslərinə görə deyil, Allahın əmr və rizasına görə davranmalarına dair nümunələrdir.

Ancaq emosional olmamaq duyğusuz olmaq demək deyil. Əksinə, möminlər səmimi insanlardır. Quranda hz. İbrahimin (ə.s) **"çox duyğulu və mülayim xarakterli"** olduğu bildirilir (Tövbə surəsi, 114). Səhv olan cahillik mədəniyyətindən qaynaqlanan neqativ emosionallıqdır. Bu, duyğuların ağıldan üstün olduğu və insanları dinin tələb etdiyi quruluşdan çıxardığı zaman baş verir. Buradakı emosiya ruhdan deyil, nəfsdən gələn mənfi emosiyadır.

Cəmiyyətdə bunun müxtəlif nümunələrini görmək olar. Gənc qızın emosionallığı da bunlardan biridir. Bu mədəniyyətdə səhv sevgi anlayışı var. Sevdiyi insanın ruhunu, xarakterini deyil, obrazını sevir. Məsələn, "romantik

oğlan" və ya "ağ atlı şahzadə" kimi müəyyən obrazlar var. Burada sevilən o insanın əxlaqı və xarakteri deyil, cahil cəmiyyətdə qəbul edilən bu cür saxta görüntülərdir. Bu, cahil cəmiyyətin verdiyi təlqindən irəli gəlir.

Bununla yanaşı, başqa duyğusallıq nümunələri də vardır. Melanxolik, arabesk mədəniyyəti kimi. Bu mədəniyyətdə əzabdan zövq alınar. Dərd, iztirab, qəm çəkmək zövqlü şeymiş kimi qəbul edilir. Çox adam siqaretə bu mədəniyyətin təsiri ilə başlayır. Bu son dərəcə zərərli vərdiş təlqindən qaynaqlanır. Bu mövzuda çəkilən filmlərə, kliplərə etina edilir.

Buraya qədər verdiyimiz bir neçə nümunədə də görüldüyü kimi, duyğusal ruh halının əslində heç bir məntiqi yoxdur. Bu, düşünən hər insanın asanlıqla anlaya biləcəyi həqiqətdir.

## "MÖMİNLƏRİN SEVGİSİ VƏ EVLİLİYİ ALLAH RİZASI ÜÇÜNDÜR"

**ADNAN OKTAR:** Bu cür insanlar, ağlı, fikri evlilikdə olan tiplər çoxdur. "Adın nədir?" soruşanda "evlilik, ər" deyər. Çünki ərinin olması onun üçün bütün həyatını zəmanət altına alması deməkdir. Sığortanın ən yüksək dərəcədən bir insana təqdim etdiyi sığorta xidməti nədirsə, onu təqdim etdiyini düşünür. Çünki onu yedirəcək, içirdəcək, gəzdirəcək, ona pul verəcək, xəstəliyində müalicəsini etdirəcək. O da ona cinsəlliyini təqdim edəcək. Yəni bu cür razılaşma.

**Bu səmimi müsəlmana, Allahdan qorxan insana xas xarakter, şəxsiyyət deyil. Müsəlman Allahın təcəllisini görmək üçün axirətdə yoldaşı olması üçün bir insanla evlənər.** Həyat yoldaşını seçir. Axirətlikdir. Dünyada neçə günlük həyat var ki, evlənirsən? Dünyada nə qədər qalırsan? **Axirətliyini seçmək üçün insan evlənər, inşaAllah. Və dünyada da Allaha yaxınlığına vəsilə olması üçün, Allahın təcəllisini görmək üçün evlənər insan. Və nəcib məqsədlə olar.**

Pul qarşılığı, mənfəət, özünə baxdırmaq, bəslətmək, sığortalı olmaq kimi olması məqsədi ilə bunu etməz. Bu çox alçaldıcı hərəkətdir. Buna görə də, müsəlman qızın axşama qədər ər axtarışında olması, gəlinlik mağazalarında, orada-burada vaxtını itirməsi deyil də, Quranın, islam əxlaqının dünyaya hakim olması, islam əxlaqının bütün dünyaya nurunu,

işığını yayması üçün səy göstərməsi lazımdır. Lakin belə hadisələr də var təbii... Təbii ki, çox alçaldıcıdır.

Bir də bunu edərkən, məsələn, gənc biriylə tanış olur, görüşür. Onu aldatmaq üçün çox səmimiyyətsiz yalanlar deyirlər. İlk gördüyündə vurulduğunu, belə bir şeylə heç qarşılaşmadığını, ilk dəfə başına gəldiyini, hadisənin onun təxmin etmədiyi şəkildə inkişaf etdiyini... Halbuki adama baxır, iki ayağı var, iki qolu var, şikəstliyi yoxdur, maaşı da yerində, maşını var, yəni ona baxa biləcəyi vəziyyətdədir, rahat edə biləcəyi vəziyyətdədir. Ağlına batır. Texniki gözlə baxır. Onsuz da onlar məntiq evliliyi etdiyini deyirlər.

Sevib evlənmələrinin xüsusiyyəti, çox yaxşı avtomobili olmasından qaynaqlanır, ümumiyyətlə, sevginin artmasına səbəb olur. Çox yaxşı evi olması, pulunun çox olması, bir də bəy namizədi də tam onun tayıdırsa, yəni öz ağlına görə, əli, üzü düzgündürsə tamamdır. Amma imani tərəfi, Quran əxlaqı tərəfi, təqva, ixlas və səmimiyyəti tamamilə kənarda qalır. Yəni onu ciddiyə almırlar.

Bu Allaha qarşı oynanmış oyun sayılır. O zaman Allah, onun avtomobilini başına bəla edir. Evini başına bəla edir. Ev onun üçün həbsxanaya çevrilir. Avtomobil həbsxana vasitəsi kimi olur, darıxdırıcı hala gəlir. Adam onun başında gözətçi kimi olur. Yəni gözətçiləri tənzih edirəm, həbsxanada olan insanın dövlət məmuru, nəzarətçi ilə qarşı-qarşıya olması ayrıdır, o gözəldir, gözətçilər kömək edən insanlardır.

Amma bir də zülm gözətçisi vardır, əzab gözətçisi vardır. Bu zülm və əzab gözətçisinə çevrilir. Yəni hər gördüyündə ondan sıxılar, narahat olar. Əlinin, üzünün düzgün olması artıq onu maraqlandırmaz. Yəni qəzəb, nifrət yarandığında istədiyi qədər gözəl olsun, artıq o nifrətdən və qəzəbdən xilas ola bilməz.

Necə ki, məsələn, Avropada sənətçilər evlənirlər, oğlana baxırsan həqiqətən yaraşıqlı, boylu-buxunlu, mal-pul, şöhrət hamısı var. Qadın da eyni şəkildə. Mal-pul, şöhrət, gözəllik, estetika hər şey mükəmməl. Evlənirlər, iki ay keçmədən boşanmaq istəyirlər. Nifrət yaranır, demək ki, Allahın rizasını axtarmadıqda onun tipindən hüzur və zövq almır, məmnun ola bilmir.

Çünki ona çox diksindirici gəlir, əli, üzü, əti, sümüyü hər şeyi ona pis gəlməyə başlayır. Səsi də pis gəlir. Danışığı pis gəlir, istədiyi qədər gözəl olsun. İstədiyi qədər boylu-buxunlu olsun heç fərq etməz, çox narahat edir. Evi istədiyi qədər gözəl olsun, ona cəhənnəm kimi gəlir, o evə girmək

istəməz. Maşını da çox narahat edir. Ona görə, bir-birlərinə dözə bilmədikləri üçün boşanmaq istəyirlər. Mənşəyində bu olur.

**Amma Allah rizası üçün insan sevdiyində, sevdiyinin hər şeyi ona gözəl gəlir. Yeməsi, içməsi, oturması, qalxması, danışığı, mimikaları. Hər şeyində Allahın təcəllisini gördüyü üçün ondan çox dərin zövq alır, məmnun olur, bezməz heç vaxt. Əksinə sevgisi hər an daha da artar, hər il, hər həftə daha da sevgisi artar.**

Mənfəətə əsaslanan sevgi anlayışında isə ilk həyəcanı, yəni mənfəətdən qaynaqlanan həyəcanı, həvəsi, ilk gün, məsələn, yüz idisə, ikinci günün axşamı birə düşmüş olar. Ondan sonra 0,01 ... 0,000. Və dözülməz nöqtəyə gələndə nifrət, ardınca isə boşanmağa gedirlər. Bir çoxunda belədir. Amma onsuz da əvvəlcədən başına gələcəyini bilir, deyir ki, "əgər boşansam bu qədər pul verəcəksən, bu qədər ev verəcəksən, bu qədər bunu edəcəksən." İki tərəf də başlanğıcda bir-birini bağlayacaq sistem qururlar. Bir qismi bir-birinə oyun oynayacağından əmin olur. Yəni pislik edəcəyindən əmin olur.

Hamısı belədir deyə bilmərəm, yəni belə tədbir görən insanlar üçün deyirəm. Hamısı belədir demirəm, amma mənim dediklərim özlərini bilirlər. Yaxşı, bunu bilə-bilə insan qarşısındakına necə sevgi bəsləsin? Necə dəyər versin? Çünki sevmək üçün dəyər vermək lazımdır, ciddi şəkildə dəyər vermək lazımdır, çox dəyər vermək, çox hörmət etmək lazımdır, şəfqət göstərmək lazımdır. Nə dəyər verir, nə hörmət edir, nə şəfqət duyur.

O zaman Allah nifrəti artırar, içində dözülməz nifrətə çevrilər. Ona görə müsəlman gənc üçün də çox qəzəbləndiricidir, məsələn, qapalı gənc qızın bir an əvvəl qarşısındakını dərhal aldatmağa çalışması, bir də saxta vədlərlə onu ömür boyu özünə xidmətçi etmək üçün məhkum etməyə çalışması çox çirkindir.

**İnsan, ömür boyu fikrən mübarizə aparmaq, ömür boyu Allahın dininə kömək etmək üçün, axirətliyini seçmək üçün, Allahın təcəllisini görmək üçün, Allahın rizasının ən çoxunu axtararaq evlənər. Baxın, Allahın rizasını axtararaq deyil yalnız, Allahın rizasının ən çoxunu axtararaq.** Çünki hər cür özünü aldada bilər. Məsələn, "qapalı qız aldım" deyir. Tamam nə üçün? "Bu doğru, hər cəhətdən doğru hiss edilir, hicaba görə" deyir.

Əvvəla sağlamlıq imanla əlaqədardır, ağılla əlaqədardır, təqvayla və səmimiyyətlə əlaqədardır və Allaha xidmətə bağlıdır. Yəni fəaliyyəti aydın olar... Ona görə birbaşa davranışına, səmimi həyatına diqqət etmək lazımdır. Səmimiyyətinə və hədəflərinə diqqət etmək lazımdır. Başı gəlinliyə, evə,

avtomobilə, ona-buna qarışıbsa, burada anormallıq var. İslam aləmi alovla qaynayır, müsəlmanlar pərişan vəziyyətdədir, islamı müdafiə edənlərin mövqeyini də görür.

Mehdinin (ə.s) gəlişini gizlətmək üçün nələr danışırlar. Hz. İsanın (ə.s) gəlişini gizlətmək üçün və bu böyük müjdəni, bu gözəlliyi, Allahdan nemət olan mövzunu, neməti gizlətmək üçün nələr etdiklərini də görürlər. Belə bir mövqedə İraqın, Əfqanıstanın nə halda olduğunu görərək, dünyadakı müsəlmanların nə halda olduğunu görərək, hələdə susqun qalmaları və gəlinliyinin, avtomobilinin, evinin, paltarının, lüksünün, bağ evinin arxasınca düşməsi təbii ki, insanda narahatlıq yaradar. **Evliliyin tək məqsədi Allah rizasının ən çoxu olmalıdır, inşaAllah.** *(Kaçkar TV reportajından, 22 aprel 2010)*

# AĞLIN QAYNAĞI

Ağlın, kimlərə verildiyi Quran ayələrində xəbər verilir. Buna görə, ağlın ən böyük qaynağı Allah qorxusudur. Bir ayədə belə buyurulur:

**Ey iman edənlər! Əgər Allahdan qorxsanız, O sizə yaxşı və pisi bir-birindən ayırd etmə anlayışı verər, günahlarınızın üstünü örtər və sizi bağışlayar. Allah böyük lütf sahibidir. (Ənfal surəsi, 29)**

Allahdan qorxmaq Allahın sifətlərini və axirət gününü qavramaqla başlayır və Allah qorxusu ilə yaxşı ilə pisi ayıracaq anlayış yaranır. Yaxşı ilə pisi ayıra biləcək bu anlayış, **"fərasət"** olaraq adlandırılır. Bu xüsusiyyət Allah qorxusunun qəlbi Allahı zikr etməyə yumşaltmasının nəticəsi olaraq yaranır:

**Allah sözün ən gözəlini, bir-birinə bənzər və təkrarlanan bir kitab olaraq nazil etdi. Rəbbindən qorxanların onun təsirindən dəriləri ürpəşər. Sonra Allahı zikr etməklə dəriləri və qəlbi yumşalar (rahatlıq tapar). Bu, Allahın hidayətidir. O, istədiyini onunla doğru yola yönəldər. Lakin Allahın haqq yoldan azdırdığı kimsəni heç kim doğru yola yönəldə bilməz. (Zumər surəsi, 23)**

İnsan Allah qorxusunun artması üçün çalışmalıdır. Bunun üçün dua etməli, Allahın gücü, böyüklüyü, əzabı haqqında düşünməli, qavramağa çalışmalıdır. Allah ayədə belə buyurur:

**Bacardığınız qədər Allahdan qorxun, (sizə verilən öyüdlərə) qulaq asın, Ona itaət edin və öz xeyriniz üçün infaq edin! Nəfsinin xəsisliyindən qorunanlar əsil nicat tapanlardır. (Təğabun surəsi, 16)**

Yaxşı ilə pisi ayırd etmək anlayışına sahib olmaq, ağıldan istifadə edə bilən insan olmağın nişanəsidir. Ağıldan istifadə edə bilən insanda dərin qavrayış xüsusiyyəti görərik. Bu qavramaq və dərk etmək qabiliyyətinə

**“bəsirət”** deyilir. Bəsirət sözü ərəbcədə görmək felindən yaranıb, lakin mənası normal görməkdən fərqlidir. Bəsirətsiz bir insanın vəziyyəti ayədə **“Biz onların qəlbinə onu anlamalarına mane olan örtük çəkdik”** şəklində xəbər verilir:

> **Onu (Quranı) anlamamaları üçün də onların qəlbinə örtük çəkdik, qulaqlarına da ağırlıq (karlıq) verdik. Sən Quranda Rəbbinin birliyini andığın zaman onlar uzaqlaşaraq arxalarını dönüb gedərlər. (İsra surəsi, 46)**

Ayədə bəhs edilən “anlamamaları” ifadəsi olduqca əhəmiyyətlidir. İnkarçıların həqiqətləri qavramadıqları bir çox ayədə bildirilir. Bu onu göstərir: İnkarçılar möminlər tərəfindən onlara izah edilən həqiqətləri qavramırlar (yəni səs olaraq eşdir), izahın mənasını və məzmununu qavraya bilmirlər. Bu, bir növ sərxoşluq, şüursuzluq və metafizik həqiqətdir. Allah, inkarçıların qəlbində, qavramalarını əngəlləyən **“pərdə”** olduğunu bu şəkildə bildirir:

> **Rəbbinin ayələri özünə xatırladıldığı halda onlardan üz döndərən və öz əlləri ilə etdiklərini unudan kimsədən daha zalım kim ola bilər?! Onu (Quranı) anlamasınlar deyə, Biz onların qəlbinə pərdə çəkdik, qulaqlarına isə ağırlıq (karlıq) verdik. Sən onları hidayət yoluna dəvət etsən də, artıq onlar əsla haqq yola yönəlməyəcəklər. (Kəhf surəsi, 57)**

İnkarçılar da bəzən möminlər tərəfindən onlara təbliğ edilən dini anlamadıqlarını etiraf edərlər. Ayədə xəbər verildiyi kimi, onları Allahın hökmlərinə dəvət edən hz. Şüeybə (ə.s) qarşı, **“Onlar dedilər: “Ey Şüeyb! Dediklərinin çoxunu başa düşmürük və həqiqətən, biz səni içimizdə aciz görürük. Əgər qəbilən olmasaydı, mütləq səni daşa basardıq. Sənin bizə qarşı heç bir üstünlüyün yoxdur!” (Hud surəsi, 91)** deyən inkarçı Mədyən xalqı bu nümunələrdən biridir.

Əgər bir insanın qəlbi üzərində pərdə varsa və Allah onun qavrama qabiliyyətini əlindən alıbsa, artıq onu doğru yola gətirmək Allahın diləməsi xaricində mümkün deyil. Quranda bu mövzu belə xəbər verilir:

**Onlardan elələri var ki, sənə qulaq asırlar. Ancaq karlara – üstəlik təfəkkür etmirlərsə – sənmi eşitdirəcəksən?! Onlardan elələri də var ki, sənə baxırlar. Ancaq korları – üstəlik (həqiqəti) görmürlərsə – sənmi doğru yola yönəldəcəksən?! (Yunis surəsi, 42-43)**

Buna görə də, imana yönələcək olanlar, ancaq ağıl və bəsirət sahibi olan kəslərdir. Necə ki, möminlər də "bəsirət üzrə" təbliğ etməklə məsuldurlar:

**De: "Bu, mənim yolumdur. Mən Allaha çağırıram. Mən və mənə tabe olanlar açıq-aydın bir dəlilə əsaslanırıq. Allah pak və müqəddəsdir. Mən Allaha şərik qoşanlardan deyiləm!" (Yusif surəsi, 108)**

Bir başqa ayədə isə belə deyilir:

**Rəbbinizdən sizə bəsirət (görüb dərk etmə qabiliyyəti) gəlmişdir. Kim görərsə, bu öz lehinə, kim də görməzsə, bu onun əleyhinədir. Mən sizin üstünüzdə gözətçi deyiləm. (Ənam surəsi, 104)**

İnkarçılar həqiqi ağıla və dərin qavrayışa sahib olmadıqlarına görə Allah yolundan azmalarının onlar üçün nə qədər böyük itki olduğunu anlamırlar. Halbuki, bu davranışlarıyla cəhənnəmi seçirlər. Ancaq bu vəziyyətdə belə şüursuzca lağ etməyə davam edirlər. Bu kəslər dünyadakı çirkin əxlaqına görə axirətdə sonsuz peşmanlıq çəkəcəklər. Allah bu kəslərin vəziyyətini ayədə belə xəbər verir:

**Allahın elçisinə qarşı çıxaraq arxada qalanlar (cihada çıxmayıb evdə) oturmalarına sevindilər. Onlar Allah yolunda malları və canları ilə cihad etməkdən xoşlanmadılar və: "İstidə döyüşə çıxmayın!" -**

**dedilər. De: "Cəhənnəm odu daha istidir". Kaş biləydilər! (Tövbə surəsi, 81)**

**"Allaha iman edin və Onun elçisi ilə bərabər cihad edin!" - deyə bir surə nazil edildiyi zaman onlardan sərvət sahibi olanlar səndən izin istəyər və: "Qoy biz (evdə) oturanlarla birlikdə qalaq!" - deyərlər. Onlar arxada qalanlarla birlikdə olmağa razı oldular. Onların qəlbinə möhür vuruldu. Buna görə də onlar anlamazlar. (Tövbə surəsi, 86-87)**

# QƏFLƏT HALI VƏ DİQQƏT

Quranda inkarçıların dərk etmə qabiliyyətinin olmadığı açıqlanarkən, bu insanların olduğu vəziyyətin “qəflət” halı olduğu bildirilir. Ayələrdə belə buyurulur:

**And olsun ki, cinlərdən və insanlardan bir çoxunu cəhənnəm üçün yaratdıq. Onların (haqqı) qavramayan qəlbi, (haqqı) görməyən gözləri, (haqqı) eşitməyən qulaqları var. Onlar heyvanlar kimidirlər, hətta daha çox zəlalətdədirlər. Əsil qafillər onlardır. (Əraf surəsi, 179)**

**Onlar, Allahın qəlbini, qulaqlarını və gözlərini möhürlədiyi kəslərdir. Onlar əsil qafillərdir. (Nəhl surəsi, 108)**

Qəflətdə olan insan etdiyi səhvi dərk etməkdənsə, bu səhvi görməməzliyə vurmağa və ya bacardığı qədər onu minimuma endirməyə çalışır. Bu çirkin münasibət və təkid, ağlın önündə pərdə yaradaraq nəfsini təmizə çıxarmaq səyidir. **“İnsan öz nəfsinə qarşı bəsirətdir. Bəhanələr gətirsə belə (bu ondan qəbul olunmayacaqdır)!” (Qiyamət surəsi, 14-15)** ayələrində də bildirildiyi kimi, insanın bəhanə gətirərək həqiqətlərdən qaçması mümkün deyil. Bəhanələr yalnız arzu və istəklər əsasında ortaya atılan bu boş quruluşu ört-basdır etmək cəhdidir. Quranda bu bəhanələrin nümunələri verilmişdir:

**Onlar bir alış-veriş, yaxud əyləncə gördükləri zaman ona tərəf qaçar və səni ayaq üstə qoyub gedərlər. De: “Allah dərgahındakılar əyləncədən və alış-verişdən daha yaxşıdır. Allah ruzi verənlərin ən yaxşısıdır!” (Cümə surəsi, 11)**

Bəhanə gətirməkdənsə, səhvi anlamağa çalışsaq, mövcud qəflət vəziyyətindən qurtulmaq olar. Ancaq bəhanələrdəki bu israrlı münasibət insanı doğru yoldan çıxara bilər. Allah insanların qəflət ruh halını və axirətdə yaşayacaqları peşmanlığı Quranda belə bildirir:

**İnsanların hesaba çəkiləcəkləri gün yaxınlaşdı! Onlar isə qəflət içində (haqdan) üz çevirirlər. (Ənbiya surəsi, 1)**

**Haqq olan vəd (qiyamət günü) yaxınlaşdığı zaman birdən inkar edən olanların gözləri bərələr (və belə deyərlər): "Vay halımıza! Həqiqətən, biz bundan xəbərsiz idik. Əksinə, biz zalım kimsələrmişik. (Ənbiya surəsi, 97)**

**Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona dua edənlərlə birlikdə (çətinliklərə qarşı) səbir et! Dünya həyatının zinətini istəyərək gözlərini onlardan çevirmə! Qəlbini Bizi anmaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində həddi aşan kimsəyə boyun əymə! (Kəhf surəsi, 28)**

İnkarçıların düşdükləri qəflət halına qarşı möminlər, canlı, ayıq və diqqətli olurlar.

Diqqət ilk növbədə Allahın hər şeyi əhatə etdiyinə, insanlar haqqında hər şeyi bildiyinə və axirətdə insanları hesaba çəkəcəyinə yönəldilməlidir. Bu diqqətə nail olan mömin xarici aləmdəki bütün əşya və hadisələrə qarşı son dərəcə diqqətli olur. Allah hər şeyi əhatə etdiyi üçün hər şey Allahın əmri və elmi ilə baş verir. Hər hadisənin, hər prosesin bir mənası və hikməti var. Mömin diqqətli olmaqla bu məna və hikməti anlayar. Hadisələrin incə məqamlarını və qarışıq tərəflərini başa düşər.

Digər tərəfdən, inkarçılar belə bir diqqətə sahib deyillər. Hadisələrin bir məqsəd və hikmətlə baş etdiyini bilmədiklərindən, çox vaxt xarici dünyaya qarşı diqqətsiz və laqeyd münasibət bəsləyirlər. Lakin onlar öz mənfəətlərinə aid olan məsələlərə maraq göstərirlər, bu da onların yalnız bəzi hadisələrlə maraqlanması ilə nəticələnir. Bu halda onlar həqiqətləri tam dərk etmir və çox vaxt səhv nəticələrə gəlirlər.

Diqqətin müxtəlif tərəfləri vardır; Hadisələrdən dərs almaq, məsləhət ala bilmək və düşünmək, ətrafımızdakı dəlilləri qavramaq, bir və ya bir neçə növbəti addımı hesablayaraq hərəkət etmək diqqət göstəriciləridir.

Mömin son dərəcə ayıq, diqqətli və canlı olmalıdır. Yorğun, diqqətsiz, cansız və laqeyd əhval-ruhiyyə möminlərin deyil, yalnız inkarçıların yaşayacağı xüsusiyyətdir. Mömin həm özü son dərəcə aktiv, həvəsli və şövqlü olur, həm də digər möminləri də bu yöndə həvəsləndirir və canlandırır.

## "ALLAH RİZASINA UYĞUN HƏRƏKƏT EDƏN İNSAN, QƏFLƏTDƏN DƏ, DÜNYƏVİ NARAHATLIQLARDAN DA XİLAS OLAR"

**ADNAN OKTAR**: İnsanın vicdanı mənfəət və məntiqi ilə zidd düşdükdə əgər mənfəətini və məntiqini seçərsə bu nəfs deməkdir. Nəfsinə üstünlük verir deməkdir. Biz həmişə haqq tərəfdarı, doğruların tərəfdarı olmalıyıq. Məsələn, bir insan var əzab çəkir və narahatdır, bizim bunu qurtarma imkanımız var, amma bu bizə baha başa gələcək. İnsanlar bundan çəkinirlər. Məntiq olaraq düşünür, "onsuz da az pulum var, indi gedib bunu ona mı verim?" deyir. Əlbəttə ver. Allah sənə daha çox verər.

O adama o pulu vermir. Allah bu səfər o pulu ona xəstəxanaya xərclətdirir. Qat-qat çoxunu xərcləyir. Heç ağlına gəlməyən yerlərə xərcləyir. Və axirətdə də payı olmaz. Yəni hər **şeydə Allah rizasının ən çoxunu seçmək lazımdır. Dost seçərkən, yoldaş seçərkən, evlənərkən, peşə seçərkən, bir yerə gedərkən, bir şey edərkən həmişə Allahın rizasının ən çoxunu axtararaq hərəkət etmək lazımdır. O zaman həmişə bərəkət və gözəllik gələr. Əksinə uğursuzluq, bərəkətsizlik olar.**

Və diqqət etsəniz insanlar həmişə boğuşma içindədir, "heyfsilənmə", "batdım", "ölürəm", "Görəsən məndən daha çox dərdi olan var?", "Bütün ömrüm dərdlərlə, bəlalarla keçir" və s. deyər. Həqiqətən də Allah süründürər. Amma dürüst, səmimi olan insanların, Allah rizası üçün hərəkət edənlərin yolu həmişə açıqdır, həmişə xoşbəxt olurlar, həmişə gözəl yolda olurlar.

Əgər insan həqiqətən Allahın ruhunu daşıyırsa, onsuz da ağlı, şüuru açıq olur. Lakin insanların çoxu ölüdür... Ölü olan insanlara görə çox təəccüblənirlər. Məsələn, insanlar onlara ən asan bir şeyi belə başa sala bilmir. Məsələn, açıq-aşkar, göz görə-görə əxlaqsızlıq edir, vicdansızlıq edir.

İnsanlar da təəccüblənirlər, “Bu necə adamdır?” deyir. Halbuki ölü olduğu üçün o onu edir.

Allah ayədə onlara, **“Gözləri görməz, qulaqları eşitməz, qəlb gözü kordur”,** deyir. Allah tam olaraq cəsəddən bəhs edir. Möhkəm ayədir bunlar, mənası açıqdır. Amma ölü kimi olduğu üçün anlamır. Allah qəlb gözünü də kor edib. İnsanlar da onlardan insanlıq adına, Allah adına, Quran adına gözəllik gözləyirlər. Heç bir şəkildə elə bir şey çıxmaz. Təkrar izah edir, onlara dərdini izah etməyə çalışır, heç cür bacara bilmir. Daşa-divara izah edər kimi. Elə insanlar təsirlənməzlər.

**APARICI:** Bəli. Niyə bəs özümüzü tanımaqdan, daha doğrusu Allahı tanımaqdan, ya da Allahı bilməkdən qorxuruq?

**ADNAN OKTAR:** Əleyhinə bir şey olacağını düşünür. Əyləncəsi, xoşbəxtliyi, sevinci əlindən çıxacaq zənn edir. Halbuki əksinə, ən böyük zövqü əldə edər. Dərin sevməyi əldə edər. Dünyadakı ən böyük zövqdür. Nəfsin zövqüdür. Nəfsin ən böyük zövqünü qazanmış olar. Bu nə bir restoranda yemək yeməyə bənzəyər, nə bir turistik gəzintiyə bənzəyər, nə bir musiqi dinləməyə bənzəyər; bütün zövqlərdən çox üstündür, müqayisə edilməyəcək dərəcədədir. Zövq dərəcəsidir.

Altıncı hissdir. Mömin bunu qazanar. **Ki, bu zövqü qazanan insan üçün 24 saat çox zövqlüdür, hər şeydən çox zövq alar. Kiçik bir şey belə dərin zövq yaradar. O biri insanların isə hər şeyi var, pulu da var, yeməyi, içkisi var, zəngindirlər, amma heç cür xoşbəxt olmurlar. Yedikləri onu narahat edər, yəni onu ölümə aparan xolesterol yükü olaraq görər, onları başına bəla kimi görər. Evinin hər an yanmasından, əlindən çıxmasından, iqtisadi yöndən çıxılmaz vəziyyətdə düşüb batmaqdan...**

**Bu cür qorxulardan heç cür yaxasını qurtara bilmir. Uşağını məktəbə göndərir onun dərdinə düşür. Görəsən maşın vurdu?** Bir şey oldu? Çoxlu dərdləri olur. Gözünə bir şey olur; görəsən gözümdə xərçəng başladı? Dodağında bir şey yaranır; görəsən xərçəng oldum? Bir yerinə baxdıqda şişibmi görəsən? Yoxsa apendisitim şışıb? Hər gün narahatlıq və acı içərisindədir. Təkcə öz adına deyil, ailəsi adına da narahatlıq və qorxu içərisindədir. Və Buna görə də, sinirləri çox pozular. Həmişə ya siqaret çəkər,

ya tündxasiyyət, aqressiv olurlar və yaxud narkotikə başlayırlar, bu hal bütün dünyada çox yayılıb. *(Kanal 35 reportajından, 14 fevral 2009)*

# ZƏNNƏ VƏ TƏXMİNLƏRƏ UYMAQ

İnsan qəflətə düşəndə onun məntiqi və düşünmə qabiliyyəti itir. Bu, bir növ yarıyuxu halıdır. Bu vəziyyətdə olan insan çox asanlıqla ağıl və məntiqdən kənar hərəkətlər edir. Bir müddət sonra o, elə bir nöqtəyə gəlir ki, bütün həyatı ağıl və məntiqdən kənar təməl üzərində qurulur, lakin bunu dərk edə bilmir.

Ağlın əsas qaydalarından biri də doğruluğu dəqiq olaraq sübuta yetirilməmiş iddiaya etibar etməməkdir. Heç bir ağıllı və məntiqli insan dəqiqliyi şübhə doğuran məlumatlara tam etibar etməz və həyatını onun üzərinə qurmaz. Məsələn, insan ağır xəstəlikdən əziyyət çəkəndə əlinə keçən ilk dərmanı nə olduğunu bilmədən "bəlkə faydası olar" deyə düşünərək qəbul etməz. Bütün hərəkətlər mütləq həqiqətə əsaslanmalıdır.

Halbuki inkar edənlərin və ya Allahın əmrlərinə məhəl qoymayanların vəziyyəti yuxarıda təsvir etdiyimiz ağılsızlıqdır. Çünki bu insanların bütün həyatı bəzi səhv fərziyyələrə əsaslanır. Məsələn, demək olar ki, hamısı öldükdən sonra Allah qarşısında hesab verməyəcəklərini düşünür. Yaxud zənn edirlər ki, hesab versələr belə, günahkar bilinməyəcək. Onların qəbul etdikləri bütün sistemlər və ideologiyalar bəzi səhv fərziyyələrə əsaslanır. Onların dünyagörüşünün heç bir qəti əsası yoxdur.

Qurani-Kərimin Kəhf surəsində, biri kafir, digəri mömin olan iki bağ sahibindən bəhs edilir. Onlardan biri bayaq qeyd etdiyimiz şəkildə öz həyatını bəzi əsassız fərziyyələr və təxminlər üzərində qurmuşdur:

**Onlara iki adamı misal ver. Onlardan birinə iki üzüm bağı vermişdik və hər ikisini xurmalıqlarla əhatə edib aralarında da əkin bitirmişdik. Hər iki bağ öz məhsulunu vermiş və heç bir əskiklik olmamışdı. O ikisinin arasından bir çay axıtmışdıq. Onun başqa gəliri də var idi. Ona görə də yoldaşı ilə söhbət edərkən ona: "Mən, mal-mülk cəhətdən səndən daha zənginəm, (əşirətdəki) say etibarilə də səndən daha güclüyəm!" - dedi. O, özünə zülm edərək (küfrə düşmüş halda təkəbbürlənərək) bağına girib dedi: "Bunun yox olacağını əsla zənn etmirəm. Qiyamətin qopacağını da zənn**

**etmirəm. Əgər Rəbbimə qaytarılsam, şübhəsiz, (orada) bundan da yaxşı bir məskən taparam". (Kəhf surəsi, 32-36)**

Ayələrdə görüldüyü kimi inkarçı, heç bir məlumata əsaslanmadığı halda, böyük cahilliklə sahib olduğu bağının başına bir iş gələcəyini, qiyamətin qopma və Allaha hesab vermə saatının gələcəyini də "zənn etmədiyini" deyir. Göründüyü kimi bu yalnız zəndir; bu adamın əlində bu mövzuda qəti dəlil, zəmanət yoxdur. Amma yenə də haqqında bəhs etdiyimiz bağ sahibi, bu əsassız zənnini əsas qəbul edərək davranmışdır. Nəticədə isə tamamilə məhv olmuşdur. Hekayənin davamında belə buyurulur:

**Onunla söhbət edən yoldaşı ona dedi: "Səni torpaqdan, sonra nütfədən yaradan, sonra da səni insan surətinə salan Allahı inkarmı edirsən? O Allah mənim Rəbbimdir və mən heç kimi Rəbbimə şərik qoşmaram! Bağına girdiyin zaman: "MaşaAllah! Qüvvət yalnız Allaha məxsusdur!" - deməli deyildinmi?! Əgər mal-mülk və övlad cəhətdən məni özündən aşağı görürsənsə, Ola bilsin ki, Rəbbim mənə sənin bağından daha yaxşısını verər, sənin bağına da göydən ildırımlar göndərər və beləcə, o, qupquru bir torpaq halına düşər. Yaxud oranın suyu çəkilər və onu əsla axtarıb tapa bilməzsən". Beləcə, onun məhsulu tələf edildi. O, qoyduğu xərcə görə əllərini ovuşdurmağa başladı. (Bağın) talvarları da çökmüşdü. O isə: "Kaş heç kimi Rəbbimə şərik qoşmayaydım!" - deyirdi. Allahdan başqa ona yardım edə biləcək kimsələr olmadığı kimi, o (öz-özünə) kömək edə biləcək gücdə də deyildi. Burada himayədarlıq haqq olan Allaha məxsusdur. Ən yaxşı mükafatı da, ən yaxşı aqibəti də verən Odur. (Kəhf surəsi, 37-44)**

Məhz bütün inkarçılar da bu adam kimi qəti məlumata deyil, zənn edirlər. Doğruluğu qəti olan məlumat, Allahdan gələn məlumat, yəni vəhydir. İnsan həyatını doğruluğu qəti olan məlumata əsaslanmaq istəyirsə, Allahdan gələn məlumatı, yəni Quranı və Peyğəmbərimizi (s.ə.v) yol göstərici olaraq qəbul etməlidir.

Buna qarşılıq, insanların yaratdığı hər hansı meyar (ideologiya, fəlsəfə, sistem, düşüncə üsulu və s.) insanları qəti biliyə çatdırmaz. Çünki insanların İlahi qaynaqlara əsaslanmadan yaratdıqları bu cür düşüncələr nəticədə zəndir. Ayədəki, "**Halbuki onların bu haqda heç bir məlumatı yoxdur. Onlar yalnız zənnə qapılırlar. Halbuki zənn qətiyyən həqiqət deyildir. (Nəcm surəsi, 28)** hökmə görə, zənn insanı doğru yola çatdırmaz.

Quranda, zənnə uyaraq Allahın yolundan dönənlərdən bu cür bəhs edilir:

**Qəhr olsun yalançılar! O kəslər ki, cəhalət içində qalmış qafillərdir. Onlar haqq-hesab gününün nə vaxt olacağını soruşurlar. O gün onlara cəhənnəmdə əzab veriləcəkdir." (Onlara belə deyiləcək:) "Dadın əzabınızı! Bu, tezliklə gəlməsini istədiyiniz şeydir". (Zəriyət surəsi, 10-14)**

Böyük ağılsızlıqla Allahdan başqa saxta ilahlar (yol göstəricilər, köməkçilər) seçənlərin hamısı zənnə uyanlardır. Allah Quranda bu kəslər haqqında belə buyurur:

**Onlar yalnız sizin və atalarınızın ad qoyduqları şeylərdir. Allah onlar haqqında heç bir dəlil nazil etməmişdir. Rəbbi tərəfindən onlara doğru yolu göstərən rəhbər gəldiyi halda onlar yalnız zənnə və nəfslərinin arzularına uyurlar. (Nəcm surəsi, 23)**

**Bilin ki, göylərdə və yerdə nə varsa, hamısı Allaha məxsusdur. Elə isə Allahı qoyub Ona qoşduqları şəriklərə ibadət edənlər nəyin ardınca gedirlər?! Onlar ancaq zənnin ardınca gedir və yalan söyləyirlər. (Yunis surəsi, 66)**

**Əgər yer üzündəkilərin çoxuna tabe olsan, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və yalan danışarlar. (Ənam surəsi, 116)**

**Onların çoxu ancaq zənnin ardınca gedir. Şübhəsiz ki, zənn əsla həqiqətin yerini tuta bilməz. Həqiqətən, Allah etdiyiniz əməlləri bilir. (Yunis surəsi, 36)**

Zənn və təxminə uyanlar, uydurduqları bəhanələrin bir hissəsini səhv məntiqləri daxilində Allaha qarşı işlədə biləcəklərini zənn edirlər. Lakin bu da bir zəndir və həqiqətdən uzaqdır. Onların üzrxahlığı Allah qatında qəbul edilməyəcək. Bir ayədə bu insanlar haqqında belə deyilir:

**O gün üzrxahlıq etmələri zalımlara heç bir fayda verməyəcəkdir. Onlar üçün lənət və pis bir məskən vardır. (Mömin surəsi, 52)**

# SƏDAQƏT VƏ İTAƏT

Quranda insan xarakterləri müxtəlif üsullarla və bir çox təfərrüatlarla təsvir edilmişdir. İnkarçıların pis əxlaqı və xarakterindəki qüsurları izah edilir. Digər tərəfdən, möminin əxlaqının çox əhatəli təsviri verilir. Allahın ruhunu daşıyan, Ona yönələn, yalnız Allaha itaət edən möminlərin Quranda sadalanan bütün xüsusiyyətləri yüksək əxlaq və xarakterə əsaslanır.

İnkarçıların və möminlərin təsvirinə nəzər saldıqda hər iki tərəfin tamamilə əks xarakterdə olduğunu görürük. Məsələn, möminlər səmimi və etibarlı, kafirlər isə qeyri-səmimi və son dərəcə hiyləgərdirlər. Möminlər təvazökar, cəsur və fədakar olduqları halda, kafirlər təkəbbürlü, qorxaq və eqoistdirlər.

Möminlərlə kafirlər arasındakı ən böyük fərqlərdən biri də sədaqətlə bağlıdır. İnkar edənlər heç vaxt əsl sədaqətə sahib ola bilməzlər: Yalnız öz maraqlarını meyar olaraq seçdikləri üçün sevdiklərini dedikləri insanları (dostları, qohumlarını) bu maraqları üçün asanlıqla aldada bilərlər. Doğru bildikləri yoldan asanlıqla geri dönə bilərlər.

Halbuki möminlər tamamilə fərqlidirlər. Onların meyarı öz kiçik mənfəətləri deyil, Allah rizasıdır. Bütün rəftarlarını Allahın istədiyi şəkildə nizamlayarlar. Buna görə də, sevdiklərini (yəni digər möminləri) sadə hesablar uğuruna yarı yolda buraxmaları, ya da çətinlik səbəbi ilə doğru bildikləri yoldan dönmələri mümkün deyil. İman edənlərə və xüsusilə də peyğəmbərə böyük sədaqətlə bağlıdırlar. Allah möminlərin sədaqətini belə bildirir:

**Möminlərin arasında elələri vardır ki, Allaha verdikləri sözə sadiq qalarlar. Onlardan kimisi şəhid olmuş, kimisi də (şəhidliyi) gözləyir. Onlar verdikləri sözü qətiyyən dəyişdirmədilər. (Əhzab surəsi, 23)**

Sədaqət möminləri bir yerdə saxlayır. Əhəmiyyətli bir qətiyyət göstəricisi olan bu xüsusiyyət möminin laqeyd quruluşun yaranmasına mane olan xüsusiyyətlərindəndir. Sədaqətdə göstərilən bir az laqeydlik insanın özünə hörmətini itirməsinə səbəb olar. Özünə hörmətini itirən insan getdikcə daha pis vəziyyətə doğru irəliləyir.

Sədaqətsizlik böyük nəticələrə səbəb ola bilər. Sədaqətsizlik edən şəxs əvvəlcə bu əməlini möminlərdən gizli saxlamağa çalışaraq saxtakarlıq mərhələsinə qədəm qoyur. Ardıcıl yalanlarla möminləri aldatmağa başlayar. Bu vəziyyəti yeni yalanlar izləyir və möminləri aldada biləcəyinə inanaraq fərqli həyat tərzi keçirməyə başlayır. Bu həyat tərzi möminlərdən mümkün qədər uzaq, onlara sevgi hiss bəsləməyən, yalnız möminlərdən faydalanmağa əsaslanan pis bir həyat tərzidir.

Bu, adamın Allah rizasını deyil, insanların razılığını güddüyü və onlar qarşısındakı etibarını öz ağlına görə qurtarmaq məqsədi ilə yalanlara sığındığı bədbəxt vəziyyətdir. Bu bədbəxt vəziyyətinin möminlər tərəfindən fərq edilib yalanları tək-tək ortaya çıxan adam, münafiqlik əlamətləri göstərməyə başlayar. Sədaqətsizliyinə bəhanələrlə çıxış nöqtələri tapmağa çalışaraq özünü təmizə çıxarmağa başlayar. Özünü təmizə çıxarma düşüncəsi möminlərdən ayrılıb müşrik, münafiq və dinsizlərlə ittifaqa girə bilmə mərhələsinə qədər onu aparar.

Sadiq möminlər isə sədaqətlərini ölənə qədər davam etdirərək qətiyyətini və peyğəmbərə olan itaətini göstərirlər. Çünki möminlərin bu sədaqəti əslində Allaha qarşı olan sədaqətidir. Sədaqətsizlik edən adam bu hərəkətini möminlərə qarşı deyil, Allaha qarşı edər. Sədaqət və itaət də yalnız Allahadır. Quranda peyğəmbərə itaət edənlərin Allaha itaət etmiş olduğunu belə xəbər verilir:

**Kim Rəsula itaət edərsə, şübhəsiz ki, Allaha itaət etmiş olar. Üz döndərənə gəldikdə, Biz səni onların başına gözətçi göndərmədik. (Nisa surəsi, 80)**

Möminin ən həssas olmalı məsələlərdən biri də sədaqətdir. Quranda Peyğəmbərlə birlikdə cihaddan qaçmağa çalışan münafiqlərdən bəhs edilərkən onların daha əvvəl sədaqət göstərəcəklərinə dair and içdikləri bildirilir və bu andın ağır bir məsuliyyət olduğu belə bildirilir:

**Halbuki onlar daha əvvəl (düşmənə) arxalarını çevirib qaçmayacaqlarına dair Allaha söz vermişdilər. Allaha verilən sözün məsuliyyəti vardır. (Əhzab surəsi, 15)**

Allaha verilən sədaqət sözü, ağır məsuliyyətdir. Buna görə də, Allah möminlərə belə əmr edir:

**Allahın əhdini az bir mənfəət müqabilində satmayın! Əgər bilirsinizsə, şübhəsiz ki, Allah yanında olan sizin üçün daha xeyirlidir. (Nəhl surəsi, 95)**

Şübhəsiz ki, sədaqətin ən açıq göstəricisi peyğəmbərə itaətdir. İtaət Quranın bir çox ayəsində əmr edilən son dərəcə əhəmiyyətli bir ibadətdir. Ayələrdə də bildirildiyi kimi, elçiyə itaət etmək həm Allahdan gələcək rəhmət və mərhəmətin, həm cənnətin, həm də inkarçılara qarşı qazanılacaq uğurun açarıdır. Ayələrdə belə buyurulur:

**Allaha və elçiyə itaət edin ki, bəlkə sizə rəhm olunsun! (Ali İmran surəsi, 132)**

**Yer üzündə sizin üçün yaratdığı növbənöv şeyləri də (istifadənizə verdi). Şübhəsiz, bunda da düşünüb öyüd alanlar üçün ibrətlər vardır. (Nəhl surəsi, 13)**

**Ey iman edənlər, Allaha itaət edin! Elçiyə və özünüzdən olan ixtiyar sahiblərinə (idarəçilərə) də itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və axirət gününə inanırsınızsa, onu Allaha və elçiyə ərz edin (onların əmrlərinə uyğun olaraq həll edin)! Bu həm daha xeyirli, həm də nəticə etibarilə daha gözəldir. (Nisa surəsi, 59)**

**Biz hər bir elçini, - Allahın izni ilə - yalnız özünə itaət olunması üçün göndərdik. Əgər onlar, özlərinə zülm etdikləri zaman sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və elçi də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın, tövbələri qəbul edən və mərhəmətli olduğunu görərdilər. (Nisa surəsi, 64)**

**Kim Allaha və elçiyə itaət edərsə, onlar Allahın nemət bəxş etdiyi elçilər, siddiqlər, şəhidlər və əməlisalehlərlə birlikdə olacaqlar. Onlar nə gözəl yoldaşlardır! (Nisa surəsi, 69)**

Ayələrdə buyurulduğu kimi, peyğəmbərə itaət hər şəraitdə və hər çətinlikdə qeyd-şərtsiz yerinə yetirilməlidir. Bəzi kiçik çətinliklərə dözərək itaət etmək münafiqlər tərəfindən də göstərilə bilər; halbuki, həqiqi mənada çətinlik və sıxıntılara baxmayaraq itaət etmək möminlərin xüsusiyyətidir. Necə ki, Quranda Peyğəmbərimizin (s.ə.v) dövründəki münafiqlərin Allah yolunda mübarizəni çətin gördükləri və geridə qaldıqları bildirilir. Ancaq “bir fayda və orta bir səfər” olarsa gələcəkləri ayələrdə bu şəkildə bildirilir:

**Yüngül və ağır olaraq cəhd edin! Mallarınızla və canlarınızla Allah yolunda cihad edin! Əgər bilsəniz, bu sizin üçün daha xeyirlidir. Əgər o, asan əldə olunan dünya malı və orta mənzilli bir səfər olsaydı, mütləq sənin ardınca gedərdilər. Ancaq məşəqqətli yol onlara uzaq gəldi. Onlar: “Əgər gücümüz çatsaydı, mütləq biz də sizinlə bərabər (səfərə) çıxardıq”, - deyə özlərini həlak edərcəsinə Allaha and içəcəklər. Halbuki Allah bilir ki, onlar yalancıdırlar.” (Tövbə surəsi, 41-42)**

Möminin ən mühüm xüsusiyyətlərindən biri də hər vəziyyətdə itaətini qoruyub saxlamasıdır. Quranda həqiqi möminlərlə münafiqlər arasındakı fərq belə bildirilir:

**(Münafiqlər:) “Allaha və elçiyə iman etdik və itaət etdik!” - deyirlər. Bunun ardınca onlardan bir qrup (haqdan) üz döndərir. Onlar mömin deyillər. Aralarında hökm verməsi üçün Allaha və elçisinə çağırıldıqları zaman onlardan bir qrup dərhal üz çevirər.” Əgər haqq (Allah və Rəsulunun verdiyi hökm) onların lehinə olarsa, itaət edərək onun yanına gələrlər. Onların qəlbində xəstəlik var, yoxsa şübhə edirlər? Yaxud Allah və elçisinin onlara haqsızlıq**

**etməsindənmi qorxurlar? Xeyr, onlar əsil zalımlardır. Aralarında hökm verməsi üçün Allaha və Rəsuluna çağırıldıqları zaman möminlərin sözü ancaq: "Eşitdik və itaət etdik!" - deməleridir. Nicat tapanlar məhz onlardır! Kim Allaha və Onun elçisinə itaət edər və Allahdan qorxub çəkinərsə, onlar əsil uğur qazananlardır. Onlara (münafiqlərə) əmr etdiyin zaman (cihada) çıxacaqlarına dair Allaha möhkəm and içdilər. De ki: "And içməyin! Gözəl bir şəkildə itaət etmək (kifayətdir). Şübhəsiz ki, Allah sizin etdiklərinizdən xəbərdardır". De: "Allaha da, elçiyə də itaət edin! Əgər üz döndərsəniz, (bilin ki,) onun vəzifəsi ancaq ona yüklənəndir (təbliğ vəzifəsidir). Sizin vəzifəniz də sizə yüklənəndir (əmr ediləni yerinə yetirməkdir). Əgər ona itaət etsəniz, doğru yolu taparsınız. Elçinin vəzifəsi isə ancaq açıq bir şəkildə təbliğ etməkdir. (Nur surəsi, 47-54)**

Elçiyə itaət səmimi qəlbdən edilməlidir. Mömin, elçinin verdiyi qərarın doğru olduğuna qəti şəkildə əmin olmalı və itaətində heç bir şübhə olmamalıdır. Bu son dərəcə vacib məsələdir. Çünki əks rəftar, yəni könülsüz itaət Quranda küfr əlaməti olaraq təsvir edilmişdir. Allah ayədə buyurur:

**Xeyr! Rəbbinə and olsun ki, onlar öz aralarındakı ixtilaflar barəsində səni hakim təyin edib, sonra da verdiyin hökmə görə içlərində bir sıxıntı hiss etməyib tam bir təslimiyyətlə təslim olmayınca, iman etmiş olmazlar! (Nisa surəsi, 65)**

İtaət insanın Allaha iman etdiyinin və Ona bəndə olmağı qəbul etdiyinin ən açıq nişanəsidir. İnsanı əbədi nicata çatdıran ancaq itaətdir. Çünki, **"Ey iman edənlər! Sizi, həyat verən şeylərə çağırdığı zaman Allahın və elçinin dəvətini qəbul edin!..." (Ənfal surəsi, 24)** ayədəki hökmə əsasən, rəsul möminləri "həyat verən", onları qurtaracaq şeylərə çağırır.

Başqa bir ayədə isə rəsulun möminləri nicata, azadlığa və rahatlığa dəvət etdiyi və onları pisliklərdən çəkindirdiyi bildirilir:

**Əllərindəki Tövratda və İncildə (əlamətlərinin) yazıldığını gördükləri ümmi (təhsili olmayan) elçi olan rəsula tabe olanlara o elçi yaxşılığı əmr edər, pis işləri qadağan edər, təmiz nemətləri halal edər, murdar şeyləri isə haram edər. Onların ağır yükünü və üstlərindəki qandalları götürər. O kəslər ki, elçiyə iman edər, ona hörmət göstərər, yardım edər və onunla birlikdə endirilən nura (Qurana) tabe olarlar, onlar əsil nicat tapanlardır! (Əraf surəsi, 157)**

Ayələrdə də bildirildiyi kimi, möminlərin inkarçılara qarşı fikri qələbəsi, elçiyə və aralarından olan rəhbərlərə itaət etmələrinə bağlıdır. Əgər onlar itaət etsələr, Allah möminlərə kömək edər və onlara uğur verər. Lakin bunun əksinə möminlər əmrə tabe olmasalar kafirlərə qarşı güclərini itirərlər. Aşağıdakı ayədə Peyğəmbərimiz (s.ə.v) dövründə möminlərin yaşadığı hadisə belə xəbər verilir:

**Siz Onun (Allahın) izni ilə onları (düşmənlərinizi) əzib-qırdığınız zaman, Allah sizə verdiyi vədinə sadiq çıxmışdı. Nəhayət, (Allah) istədiyinizi (qələbəni) sizə göstərəndən sonra zəiflik göstərdiniz və (elçinin sizə verdiyi) əmr barəsində bir-birinizlə mübahisə edərək qarşı çıxdınız. Sizdən bəziləri dünyanı, bəziləri də axirəti istəyirdi. Sonra sizi imtahan etmək üçün onlardan (onları məğlub etməkdən) uzaqlaşdırdı. Əlbəttə, O sizi əfv etdi. Allah möminlərə qarşı lütfkardır. (Ali İmran surəsi, 152)**

Qurtuluş ancaq itaətlə olur. Quranın hökmünə əsasən, elçiyə və ya möminlərə itaətsizlik edib, ondan uzaqlaşan kimsənin (əgər bundan imtina edib doğru yola uymazsa) gedəcəyi yer cəhənnəmdir. Allah Nisa surəsində bir ayədə belə hökm edir:

**Haqq yol aydın olduqdan sonra kim elçiyə qarşı gələr və möminlərin yolundan başqa bir yol izləyərsə, onu yönəlmiş olduğu yola döndərər və cəhənnəmə atarıq. Ora necə də pis bir qayıdış yeridir! (Nisa surəsi, 115)**

# “VƏFA VƏ SƏDAQƏT, İNSANI İNSAN EDƏN MÜKƏMMƏL XÜSUSİYYƏTDİR”

**ADNAN OKTAR:** Bir insan imtahan olursa və öyrədilirsə, bundan başqa nə ola bilər? Yəni insan rahatlıqla necə imtahan olsun və xarakteri necə inkişaf etsin? Harada səbir göstərəcək? Harada şəfqət göstərəcək? Qorumağı, mühafizə etməyi harada edəcək? Necə əliaçıq olacaq? Harada düşünəcək, iradəsindən istifadə edəcək? Mətanət harada, cəsarət harada?

**Baxın bu saydıqlarım həmişə insanı insan edən ən mükəmməl xüsusiyyətlərdir.** Bunların olması üçün mütləq çətinliyə ehtiyac var. Əks halda divar kimi dümdüz olarıq. Yəni geriyə çox az xüsusiyyətimiz qalar. Allah ona görə insanı çox dəyərli bilir. İnsan mələklərdən daha üstündür, daha əhəmiyyətlidir, çünki imtahan olur və bu bacarıqlarını inkişaf etdirə bilir. Məsələn, mələklər Allahın dilədiyi şəkildə yalnız müəyyən xüsusiyyətləri göstərə bilirlər. Yəni çətinliklə qarşılaşan insandır, çünki Allahın izniylə həmişə ağlından istifadə edir.

**Məsələn, iradəsindən istifadə edir, səbrindən istifadə edir, cəsarətindən istifadə edir, vəfasından istifadə edir, vəfalı olur, elə deyil? Şəfqət göstərir, dərin düşünmək məcburiyyətində qalır. Xüsusilə cəsarət çətin şeydir, qorxunu məğlub etmək çətin şeydir. Mübarizə çətin şeydir. Məsələn, tənbəlliyə qarşı iradəsindən istifadə edir. Bunların hamısının cəmində mükəmməl şəxsiyyət ortaya çıxmış olur və biz insanı bu cəhətlərinə görə çox sevərik.** Yoxsa insan sanki ölü kimi olar.

Cəsəd bizim üçün heç bir şey ifadə etmir. İnsan cəsəd kimidir. Bizim insanları sevmə səbəbimiz onlardakı cəsarət, səbir, mətanət, şəfqət, əliaçıqlıqdır. Məsələn, əliaçıq insan sevilir. Bağışlayan insan sevilir. Bağışlamağımız üçün çətin bir şey olmalıdır ki, bağışlayaq. Çətinlik yoxdursa nəyə səbir göstərəcəyik? Səbrinə görə bir insanı sevirik.

Məsələn, insanın sevdiyi ilə əlaqəsini davam etdirməsi üçün səbrə ehtiyacı var. Cəsarətə ehtiyacı var ki, onu qoruya bilsin. Məsələn, insan ağrıya görə də səbir edər. Zamana görə səbir edər. Fərz edək ki, sevdiyi insan var, onu 1 il, 2 il, 3 il gözləyir. Əks halda vəfasızlıq olar.

İnsanlar 1 gün, 2 gün belə gözləyə bilmir, yəni nəinki illərlə gözləmək. **Halbuki Allah səbirli olan insanları sevir. Biz də səbirli olan insanları sevirik. Məsələn, əliaçıq insanı sevirik. Allahın da bizə qarşı əliaçıq olmasını istəyirik. Ya Rəbbi bizə bol-bol mal ver, imkan ver deyirik. Yaxşı, sən Allahın əliaçıq olmasını istəyirsən, sən niyə əliaçıqlıq etmirsən? Allahın bağışlamasını istəyirsən bəs sən niyə bağışlamırsan. Allahın vəfalı olmasını istəyir, sən niyə vəfalı olmursan? Allah vəfalıdır. İnsan da vəfalı olmalıdır.**

Məsələn, Allah heç bir şeydən qorxmaz. İnsanlar da qorxmamalıdır, cəsur olmalıdır. Allah rizası üçün, Allaha təvəkkül edərək. Məsələn, peyğəmbərlər qorxsaydılar heç bir xidmət edə bilməzdilər. Çünki qarşılarındakı insanlar həmişə onları təhdid edirdilər və şəhid etməyə çalışırdılar, yaralamağa cəhd edirdilər, tələ qurub, böhtan atıb, təhqir edirdilər.

Məsələn, hz. Mehdi (ə.s). Hz. Mehdi (ə.s) çıxanda onu həbs edəcəklər, təzyiq göstərəcəklər, təhqir görəcək, böhtan görəcək. Əgər cəsur olmazsa, səbirli olmazsa, iradəli olmazsa mehdilik vəzifəsini necə yerinə yetirər. Onun mehdilik vəzifəsinin nəticəsində də bütün insanlar xoşbəxt olurlar, hər kəs xoşbəxtliyə, hüzura və sevincə qovuşur.

**Baxın, bir insanın cəsarəti, vəfası, səbri bütün insanların qurtuluşuna vəsilə olur.** Tək bir insanın. Əgər o vəfalı olmasa, səbirli olmasa, cəsur olmasa bütün insanlıq batar, Allah əsirgəsin. Allah onu vəsilə edir. Hz. Məsih (ə.s) də eləcə. Bir sözlə səbirlidir.

Məsələn, o dövrdə yalnız 12 nəfər hz. İsa Məsihə (ə.s) iman etmişdi. Heç vaxt iradəsini itirmədi. Onlarca möcüzə göstərməsinə baxmayaraq, o qədər gözəl əxlaqına baxmayaraq yalnız 12 nəfər. Amma indi təkrar gəldiyində bütün dünyanı iman etdirir. Bu, bütün gücün Allahın əlində olduğunu göstərən açıq dəlildir, inşaAllah. *(Adıyaman Asu TV, 30 noyabr 2009)*

# QƏTİYYƏT

Mömininin ən diqqətə çarpan xüsusiyyətlərindən biri, qərarlı olmasıdır. Heç vaxt şövq və həyəcanını itirməz. O, yalnız Allahın razılığını qazanmaq məqsədi güdər. Buna görə də, heç bir çətinlik onu yolundan döndərə bilməz. İnsanların onun haqqında nə düşünəcəyi də əhəmiyyətli deyil. Tək hədəfi Allahın razılığıdır; bütün həyatı bu hədəfə görə formalaşar.

Allah mömininin qətiyyətini müxtəlif şəkillərdə sınayar. Məsələn, Allah, möminlərə müvəqqəti olaraq çətinlik verə bilər, onları maarifləndirmək üçün çətinlik verə bilər. Quranda bu vəziyyət belə açıqlanır:

**Şübhəsiz, Biz sizi bir az qorxu, bir az aclıq, bir az mal-dövlət, can və məhsuldan əskiltməklə sınayarıq. Səbir edənlərə müjdə ver! (Bəqərə surəsi, 155)**

Qətiyyətli mömin, ayədə xəbər verildiyi kimi ona isabət edən bütün bu çətinliklərə səbir edər. Quranda möminlərin bu rəftarı aşağıdakı ayələrdə bu cür tərifələnir:

**Neçə-neçə elçi vardır ki, onunla bərabər çoxlu sayda dindar vuruşmuşdur. Onlar Allah yolunda başlarına gələn müsibətlərə görə ruhdan düşmədilər, acizlik göstərmədilər və (inkar edənlərə) boyun əymədilər. Allah səbir edənləri sevər. Onlar yalnız: "Ey Rəbbimiz, günahlarımızı və işlərimizdəki həddi aşmaları bağışla! Ayaqlarımızı (Sənin yolunda) möhkəmləndir və inkar edənlər qövmünə qarşı bizə yardım et!" – deyirdilər. (Ali İmran surəsi, 146-147)**

Buna qarşı qətiyyət göstərməmək, ancaq qəlbi imani cəhətdən xəstə olanların edəcəyi davranışdır. Bir ayədə belə buyurulur:

**Yalnız Allaha və axirət gününə iman etməyən və qəlbi şübhəyə düşüb öz şübhələri içində tərəddüd edənlər səndən izin istəyərlər. (Tövbə surəsi, 45)**

Çətinliklərlə yanaşı, ələ keçən yaxşı fürsətlər də imanı zəif olan bəzi insanlara laqeydlik təsiri göstərərək onların qətiyyətini zəiflədə bilər. Rahatlıq əksər insanların həyəcanını və həvəsini azaldır. İnsana Allah tərəfindən bir nemət gəldiyi zaman harınlaması ayələrdə inkarçıların xarakteri olduğu bildirilir. Bu vəziyyət Quranda belə bildirilir:

**İnsana bir ziyan dəydiyi zaman uzanaraq və ya oturaraq, yaxud ayaq üstə Bizə dua edər. Ancaq onu ziyandan xilas etdiyimiz zaman özünə dəymiş ziyan üçün Bizə dua etməmiş kimi keçib gedər. Həddi aşanlara, etdikləri əməllər bu şəkildə gözəl göstərildi. (Yunis surəsi, 12)**

Halbuki belə bir şey möminlərə aid ola bilməz. Onların nə qədər yaxşı imkanları olsa da (dəbdəbə, əzəmət, pul, güc kimi) bu, onların qətiyyətini itirməsinə səbəb olmaz. Çünki mömin bunların hamısının Allahdan gələn nemətlər olduğunu və Allah diləsə onları geri ala biləcəyini bilir. Ona görə də, heç vaxt harınlamazlar. Ciddi səy göstərmək, laqeyd olmamaq, həddi aşmaqdan və azğınlıqdan çəkinmək möminlərin qərarlılıq və istiqrarın göstəricisidir. Ayədə bu cür buyurulur:

**Kim axirəti istəyər və mömin olaraq onun üçün səy göstərərsə, onların səyləri qəbul olunar. (İsra surəsi, 19)**

Allah bir ayəsində "**Yoxsa onlar bir işə (elçinin qətlinə) qərar veriblər?! Şübhəsiz, Biz də Öz qərarımızı vermişik.** (Zuxruf surəsi, 79) buyurur. Şübhəsiz bu xüsusiyyət, Allahın yer üzündəki xəlifəsi olan möminlərin də xüsusiyyətidir.

Ruhdan düşməmək, həmişə şövqlü və həyəcanlı olmaq Allahın əmridir. Allah ayəsində, "**Ruhdan düşməyin və kədərlənməyin! Əgər inanırsınızsa, üstün olan sizsiniz!** (Ali İmran surəsi, 139) buyurur.

Qətiyyət və istiqrar möminin iki əhəmiyyətli xüsusiyyətidir. Möminlər, **"Möminlərin arasında elələri vardır ki, Allaha verdikləri sözə sadiq qalarlar. Onlardan kimisi şəhid olmuş, kimisi də (şəhidliyi) gözləyir. Onlar verdikləri sözü qətiyyən dəyişdirmədilər.** (Əhzab surəsi, 23) ayəsində olduğu kimi Allahın rizası üçün ölənə qədər eyni qətiyyət və istiqrarı göstərən kəslərdir. Nə edəcəyi bilinməyən, möminlərin yanında fərqli, inkar edənlərin yanında fərqli hərəkət edən münafiq xarakterli kəslər isə, qeyri-sabit əhvali-ruhiyyə ilə davranarlar. Möminlər müvəffəqiyyət əldə etdiyində "Biz də sizdəndik" demələri, ya da çətinliyə düşəndə möminlərdən uzaq durmağa çalışmaları bunun ən yaxşı göstəricisidir.

Allah bir ayəsində **"Onların qəlbinə qüvvət (cəsarət və səbir) verdik."** (Kəhf surəsi, 14), deyə Kəhf əhlindən bəhs edir. İnkarçı cəmiyyətin arasında Allaha qarşı sədaqət göstərən bu gənclər, möminlər üçün qətiyyət baxımından ən gözəl nümunələrdən biridir.

İbadətdə və gözəl əxlaqda davamlılıq göstərmək də istiqrarin mühüm nümunəsidir. Mömin ölənə qədər səbirli olmalı və Allaha verdiyi sözə əməl etməlidir:

**Sənə beyət edənlər, şübhəsiz ki, Allaha beyət etmiş sayılırlar. Allahın əli onların əllərinin üstündədir. Kim əhdini pozarsa, yalnız öz əleyhinə pozmuş olar. Kim Allahla etdiyi əhdə sadiq qalarsa, Allah ona böyük bir mükafat verəcəkdir. (Fəth surəsi, 10)**

## "ÇƏTİNLİKDƏ BƏRƏKƏT VƏ NEMƏT VARDIR"

**ADNAN OKTAR:** Çətinlik olarsa, müsəlmanlıq olar. Asanlıq olduğunda necə olsun müsəlmanlıq? İmtahan olmaz ki. Yəni hər yer müsəlmanlarla doludursa, islam da hakim oldusa, münafiq yoxdursa, kafir yoxdursa, islama hücum yoxdursa, iqtisadi rahatlıq varsa; oradakı imtahanın dərəcəsi birdir, çətinlik olduğunda imtahanın dərəcəsi milyon olar. Müsəlman axirəti məqsəd

etdiyinə görə, sonsuz axirət həyatını istədiyinə görə, "birə" heç kim razı olmaq istəməz. Hamı milyonu istəyər.

**Buna görə də, çətinlikdə böyük bərəkət və nemət vardır.** Almaniyada, qürbət deyilən o gözəl yurdlarda Allahın dinini yaymaq, Allahın şüarını yaymaq, gücləndirmək çox böyük nemətdir. Bunu Allahdan rəhmət olaraq görməlidirlər. Bərəkət olaraq görməlidirlər. Və hər yerdə bu belədir.

Mehdinin (ə.s), Mehdi olmasının səbəbi, çətinliklər deyilmi? Hz. Musanın (ə.s), Musa olmasını çətinliklər səbəb oldu. Yusifi (ə.s), Yusif edən, çətinliklər idi. Rəsulullahın (s.ə.v) peyğəmbər olmasındakı, ən gözəl əxlaqı göstərməsindəki vəsilələrdən biri də çətinliklər idi. Çətinliklər, möminin nemət olaraq görməsi Allahdan gələn lütfdür, inşaAllah. *(Kral Karadəniz TV reportajından, 18 yanvar 2010)*

## "ÇİLƏ ALLAHDAN NEMƏTDİR"

**ADNAN OKTAR:** Allah yolunda mübarizə aparan, peyğəmbərlərin keçdiyi yollardan keçər. Hər mömin peyğəmbərlərin keçdiyi mərhələlərdən keçər. Hz. Yusif (ə.s) həbsə girdisə mömin də girər, hz. Musa (ə.s) izlənilib, təqib olunubsa, gizlənibsə, mömin də gizlənər, təqib edilər. Hz. Əyyuba (ə.s) dərdlər, bəlalar gəldi və ona səbir etdisə, möminə də dərdlər və bəlalar gələr. Hz. İbrahimi (ə.s) bütlərə qarşı çıxdığına görə yandırmağa çalışanlar Allah yolunda mübarizə aparanı da yandırmağa çalışa bilər.

**Bu, möminin Allaha olan sevgisinin ifadəsində çox əhəmiyyətli imkandır. Bu, aşiqin ifadəsidir, yəni Allaha qarşı sevgi ifadəsidir. Çilə olmalıdır ki, çətinlik olmalıdır ki, Allah sevgisi vurğulansın. Yoxsa oturduğu yerdə, kef içində Allah sevgisi vurğulanmaz. Ona görə möminlər belə şeyləri Allahdan rəhmət olaraq görər. Möminlərə təqvasına görə, dərinliyinə görə, Allaha yaxınlığına görə yağış kimi bəla yağar.**

Onlar bəlanı rəhmət olaraq, nemət olaraq görərlər. Bəlalar onların nurunu artırar, şövqünü artırar, həyəcanını artırar, onlara sağlamlıq verər, əziyyət mömini gözəlləşdirər. Hz. Yusif (ə.s) çəkdiyi çilə ilə dünya gözəli olmuşdu, Allah ona əziyyəti vəsilə etmişdi, dünya gözəli olmuşdu. Qadınların, baxanların nəfəsi kəsilirdi.

Çilənin insanları məhv etdiyi zənn edilir, halbuki Allah yolunda çəkilən əziyyətlər insana səhhət verər, bəlanı dəf edər. Daha şən, daha sağlam, daha gözəl, daha uzun ömürlü olmasını təmin edər. Rifah və fərahlıq insana xəstəliklər verər, bəlalar verər, çirkinləşdirər, pis edər. Allah yolunda mübarizə aparmamaq, Allahın göstərdiyi yolda getməmək, çilədən qaçmaq isə daima bəlanı cəlb etmişdir. Elə insanlar da həmişə çökər, pərişan olar, xəstəliklərlə, bəlalarla boğuşar. Allah elə insana rahatlıq, hüzur verməz, yəni qəlbində həmişə əzab və sıxıntı olar.

Möminin çətinliyə düşməsi onun cənnətidir. Məsələn, mömin həbsxanaya girdiyində cənnətə girmiş kimi olar. Çünki Allah yolunda onu etdiyi üçün hər günü qat-qat savaba vəsilə olur. Məsələn, çöldə bir savab alırsa, həbsxanada bir günə milyon savab alar. *(Ekin TV reportajından, 16 fevral 2009)*

# SƏBİR ETMƏK

Həyatı islama uyğun şəkildə yaşamaq və bu həyat tərzinə uyğun olmayan davranışlardan uzaq durmaq möminin yaşadığı müddətcə həyata keçirdiyi ibadətdir. Bu mövzuda qərarlı olmaq, geri addım atmamaq və zamanın mənfi təsirindən qorunmaq, səbir göstərməkdir. Buna görə səbir və dözüm fərqli anlayışlardır.

Dözüm, çətinlik və acıya qarşı bu vəziyyətdən razı olmadan dirənməkdir. Halbuki möminin sahib olduğu səbir fərqlidir: Səbir edən mömin, başına gələn çətinliklərə görə əzab çəkməz, əksinə, Allaha olan yaxınlığı daha da artar və buna görə də, sevinci, həyəcanı və şövqü daha da yüksələr. Quranın bir çox ayəsində səbir etmək əmr edilir:

**Ona görə də səbirli ol! Həqiqətən, Allahın vədi haqdır. Yəqinliklə iman etməyənlər səni biganəliyə sövq etməsinlər! (Rum surəsi, 60)**

**Ey iman edənlər! Səbir edin, (düşmənə qarşı) möhkəm olun, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicat tapasınız! (Ali İmran surəsi, 200)**

**Sən səbir et! Sənin səbrin yalnız Allahın köməyi ilədir. Onlar üçün kədərlənmə və qurduqları hiylələrə görə narahat olma! (Nəhl surəsi, 127)**

Allah möminlərin səbir yolu ilə imtahan olunacağını belə bildirir:

**Həqiqətən, içinizdən cihad edənləri və səbir edənləri ortaya çıxarana qədər sizi sınayacaq və haqqınızdakı xəbərləri yoxlayacağıq. (Məhəmməd surəsi, 31)**

**Şübhəsiz, siz mal-mülkünüzlə və canlarınızla imtahan ediləcəksiniz. Həqiqətən, sizdən əvvəl kitab verilənlərdən və müşriklərdən bir çox**

**əziyyətli (sözlər) eşidəcəksiniz. Əgər səbir edib (Allahdan) qorxsanız, əlbəttə, bu, əzmkarlıq tələb edən (dəyərli) işlərdəndir. (Ali İmran surəsi, 186)**

Səbir, inkarçılara qarşı qazanılacaq qələbənin əhəmiyyətli vəsiləsidir. Mömin səbir etdiyində Allah onun gücünü artırar:

**...Əgər sizdən yüz nəfər səbirli şəxs olsa, onlar iki yüz nəfəri, əgər sizdən min nəfər olsa, (onlardan) iki min nəfəri Allahın izni ilə məğlub edərlər. Allah səbir edənlərlə bərabərdir! (Ənfal surəsi, 66)**

**Allah və Onun elçisinə itaət edin və bir-birinizlə çəkişməyin! Yoxsa qorxub zəifləyər və taqətdən düşərsiniz. Səbir edin! Şübhəsiz ki, Allah səbir edənlərlə bərabərdir. (Ənfal surəsi, 46)**

Səbir, Allahın rizasını və cənnətini qazana bilmək üçün göstəriləcək ən əhəmiyyətli xüsusiyyətlərdən biridir. Quranda möminlərin xüsusiyyətləri bildirilərkən, **"Onlar səbir edənlər və Rəbbinə təvəkkül edənlərdir"** (Nəhl surəsi, 42) deyilir. Mövzunun əhəmiyyəti başqa ayələrdə belə xəbər verilir:

**...Şübhəsiz, səbir edənləri etdikləri əməllərin ən gözəli ilə mükafatlandıracağıq. (Nəhl surəsi, 96)**

**Sonra da iman edən, bir-birinə səbir etməyi tövsiyə edən və mərhəmətli olmağı tövsiyə edənlərdən olmaqdır. (Bələd surəsi, 17)**

Möminlər dua etdikdə də Allahdan səbir istəyərlər:

**...Onlar Calut və əsgərləri ilə qarşılaşdıqları zaman: "Ey Rəbbimiz, bizim üzərimizə səbir yağdır, ayaqlarımıza qüvvət ver və inkar edən qövmə qarşı bizə yardım et!" - dedilər. (Bəqərə surəsi, 250)**

# “İNSANIN DÜNYAYA GƏLMƏ MƏQSƏDİ İMTAHAN OLMAQ VƏ BU İMTAHANLARI SƏBİRLƏ QARŞILAMAQDIR”

**ADNAN OKTAR:** Allah dünyanı bir məqsəd üzərinə yaradıb. Bu məqsəd, imtahandır. İnsanların özlərinə kim olduqlarını göstərməkdir, yaxşılara yaxşı olduqlarını göstərmək, pislərə pis olduqlarını göstərməkdir. Allah dünyada hər şeyi ziddi ilə yaratmışdır. Gecə-gündüz, yaxşı-pis, gözəl-çirkin, yəni mənfi-müsbət, bu şəkildə.

Və bunlar arasında mübarizə vardır. Gündüz gecəni qovar, gecə gündüzü qovar. Yaxşılarla pislərin də mübarizəsi vardır. Bu, hz Adəmdən (ə.s) bəri başlamışdır. Qiyamətə qədər də davam edəcək.

**Bu mübarizə içərisində, yaxşılar çətinliklərlə qarşılaşdıqda yaxşı olduqları aydın olar, yəni çətinliklə qarşılaşmayan insanın imtahan olması deyə mövzu mümkün deyil (Allahın diləməsi xaricində). Çünki məsələn, aclığa səbir vardır; əzaba səbir vardır; zamana qarşı səbir vardır; pis sözə səbir vardır; qorxacaq bir şeyə qarşı səbir vardır. İnsanlar bunlarla imtahan olurlar.**

Daha əvvəl bütün keçmiş peyğəmbərlər və onlara tabe olan ümmətlər də bu yollardan keçmişlər. Bizlər də Allah yolunda mübarizə aparan insan olduğumuz üçün eyni yollardan keçirik. Məsələn, hz. Yusif (ə.s) günahsız, təmiz uşaq idi. Çox gözəl gənc idi. Tək günahı qardaşlarının onu qısqanması idi. Əgər günah sayılırsa ki; aydındır ki, bu günah deyil. Və qardaşları onu quyuya atmağa qərar verdilər. Hətta şəhid etmə qərarı da almışlar. “Atamızın sevgisi bizə qalsın” deyə.

Yəni buradakı anormallığın şiddətinə diqqət edin. Bunlar müsəlman atanın uşaqlarıdır, lakin yalnız “diqqət bizim üzərimizdə qalsın, sevilən biz olaq” deyə “ya öldürək, ya da quyuya ataq” deyirlər, sonra quyuya atmağa qərar verirlər. Allah onu quyunun içərisində bir müddət mühafizə etdikdən sonra xilas edir, amma imtahanı və çiləsi bitmir. Bu səfər də bir qadın müsəllət olur. İsbat etməsinə baxmayaraq; qadına qarşı cinsi cinayət işləmədiyini isbat etməsinə baxmayaraq yenə də onu həbs edirlər.

Bilirsiniz ki, hz. Yusif (ə.s) özü də istəyir, deyir "Ya Rəbbim, mənim üçün xeyirlisini ver." Və uzun illər həbsxanada qalır. Təxminən 7 il. Bu onun imtahanı idi. Çıxdığında da Allah onu Misirə sultan etdi, lakin çıxar-çıxmaz yenə Allahı istədi, yenə axirəti istədi. Yəni necə də gözəl nemətlərə qovuşdum, dünyamı yaşayım demir. Çıxar-çıxmaz yenə Allahdan axirəti istəyir. Allahın rizasını, rəhmətini istəyir. Mənim də düşüncəm eyni olduğu üçün, onlar kimi olduğu üçün və onlara tabe olanlar, peyğəmbərlərə uyanlar kimi olduğum üçün çilələrlə, çətinliklərlə qarşılaşdım. *(Kanal 55 reportajından, avqust 2008)*

# SALEH ƏMƏL

Saleh əməl, Quranda tez-tez bəhs edilən terminlərdən biridir. Saleh sözü; gözəl, doğru, xeyirli mənalarını verir. "İslah etmək" feli də eyni kökdən törəmişdir və "saleh hala gətirmək" deməkdir. Əməl sözünün Azərbaycanca ən yaxın qarşılığı isə "iş"dir. Beləliklə, saleh əməl, yaxşı və xeyirli iş mənasını verər ki, bu da Quranda Allahın rizasına və əmr etdiyi dinə uyğun hər davranışı və hərəkəti ifadə edir.

Bir insanın axirətini qurtaran şey isə, yalnız iman etməsi deyil, eyni zamanda o imana uyğun saleh əməllər etməsidir. Çünki saleh əməl, səmimi imanın göstəricisidir. Buna qarşı, yalnız "iman etdim" deyib, bu imanın əsaslarını yerinə yetirməmək, insan üçün qurtuluş vəsiləsi olmaz. Allah ayələrdə, bu mövzu ilə bağlı belə buyurur:

**İnsanlar imtahana çəkilmədən yalnız: "İman etdik!" - deməklə onlardan əl çəkiləcəyinimi hesab edirlər? Şübhəsiz ki, Biz onlardan əvvəlkiləri də imtahana çəkmişdik. Allah doğru söyləyənləri də, yalançıları da, əlbəttə, bilir. (Ənkəbut surəsi, 2-3)**

Allahın "iman etdik" deyənləri imtahan etməsinin əhəmiyyətli hissəsi, saleh əməllərlə olur. Çünki bu əməllər, onları yerinə yetirməklə məsul olan müsəlmanların səbrini, qətiyyətini, sədaqətini, qısaca imanındakı bəsirətini ortaya çıxarar.

Quranda, saleh əməllərin fərqli şəkilləri bildirilir. Din əxlaqının digər insanlara təbliğ edilməsi, Quran əxlaqının yaşanması üçün çalışılması, dinə qarşı edilən hücumların fikirlə aradan qaldırılması, Quranın daha yaxşı başa düşülməsi üçün səy göstərilməsi, müsəlmanların hər cür fərdi və ictimai probleminin həlli kimi mövzuların hamısı son dərəcə əhəmiyyətli saleh əməllərdir. Namaz, oruc, infaq (zəkat), həcc kimi təməl islami ibadətlər də saleh əməllərdəndir.

Bir ayədə, saleh əməlin nələr olduğu bu şəkildə xəbər verilir:

**Yaxşı əməl üzünüzü şərqə və qərbə tərəf çevirməyiniz deyildir. Yaxşı əməl sahibləri o kəslərdir ki, Allaha, axirət gününə, mələklərə, kitablara və elçilərə inanar, mal-dövlətini sevməsinə baxmayaraq onu yaxınlara, yetimlər, yoxsullar, yolda qalanlar, istəyənlər və qulların azad olunması üçün sərf edər, namazı qılar, zəkatı verər, əhd etdikləri zaman əhdlərinə sadiq qalar, xəstəlikdə, darlıqda, çətinlikdə, eləcə də cihad vaxtı səbir edərlər. Onlar sadiqlərdir, əsil müttəqilərdir. (Bəqərə surəsi, 177)**

Ancaq nəzərə alınmalı çox mühüm bir məqam var; bir əməli saleh edən təkcə onun nəticəsi deyil, arxasında duran "niyyət"dir. Buna görə də, bir əməlin saleh olması onun yalnız Allah rizası üçün edilməsinə bağlıdır. Bu həqiqət Cahil cəmiyyətdə "saleh əməl" anlayışını "xeyirxahlıq" anlayışından ayırır.

Saleh əməl Allah rizası üçün edilər; cahil anlayışdakı xeyirxahlığın arxasında isə ictimai həmrəylik hissi və xüsusən də "xeyriyyəçi" kimi tanınmaq istəyi dayanır.

Aşağıdakı ayələr möminlərin yuxarıda təsvir edilən "xeyirxahlıq" anlayışından niyə uzaq olduqlarını açıqlayır:

**"Onlar verdikləri sözü yerinə yetirər və vahiməsi hər yeri bürüyəcək o gündən qorxarlar. Onlar öz nəfsləri çəkməsinə baxmayaraq yeməyi yoxsula, yetimə və əsirə yedirərlər. Sizi yalnız Allah rizası üçün yedirdirik. Sizdən nə bir əvəz, nə də bir təşəkkür istəyirik. Şübhəsiz ki, biz çətin və ağır bir günə görə Rəbbimizdən qorxuruq." (İnsan surəsi, 7-10)**

Əgər "saleh əməl" tərifinə uyğun gələn əməllər yuxarıdakı ayələrdə bildirilən məqsəddən, yəni Allah rizasından uzaqlaşarsa, o halda saleh əməl xüsusiyyətini itirər. Əksinə, bu, insanın başqa insanların rizasını istəməsi deməkdir ki, bu da Quranda "şirk" kimi izah edilir və şirk böyük günahdır.

Maun surəsindəki ayələrdə Allah üçün deyil, insanların rizası üçün namaz qılan və buna görə ibadətlərinin saleh əməl olma xüsusiyyətini itirən insanlar haqqında belə xəbər verilir:

**Vay o namaz qılanların halına ki, onlar namazlarında səhv edirlər. Onlar riyakarlıq edirlər. (Maun surəsi, 4-6)**

Bu ayənin açıqlaması ilə əlaqədar olaraq dəyərli müfəssirlərdən Taberidə iki hədis nəql etmişdir:

*Sad ibn Əbi Vaqqasdan rəvayət edilmişdir. Sad deyir ki: "Mən Rəsulullahdan, namazlarına qarşı qəflət içində olanlar haqqında soruşdum. Buyurdu ki: Onlar namazlarının vaxtlarını keçirənlərdir."*

*Əbu Berzə deyir ki: "Onlar o kəslərdir ki, namazlarına qarşı qafildirlər." ayəsi nazil olduqda Rəsulullah belə buyurdu: "Allahu Əkbər, bu namaz sizin üçün hər birinizə bütün dünya qədər şeylər verilməsindən daha xeyirlidir. Namazına qarşı qafil olan kimsə qıldığı namazdan xeyir ümid etməyən və qılmadığına görə Rəbbindən qorxmayan kimsədir." (Əbu Cəfər Muhammed ibn Cərir ətTaberi, Taberi Təfsiri, Hisar nəşriyyat, 9/238-239)*

Peyğəmbərimizin (s.ə.v) namazla bağlı digər bəzi hədisləri isə belədir:

*Cündüb İbni Süfyan radiyallahu ənhdən rəvayət edildiyinə görə, Rəsulullah sallallahu əleyhi və səlləm belə buyurdu: "Sübh namazını qılan kimsə Allahın himayəsindədir. Diqqət et ey Adəmoğlu! Allah, şəxsən himayəsində olan bir mövzuda səni sorğuya çəkməsin." (Müslim, Mesacid 261-262. Ayrıca bax Tirmizî, Salat 51, Fiten 6; İbni Mace, Fitən 6)*

*Rəsulullah sallallahu əleyhi və səlləmi: "Həqiqətən adam ilə şirk və küfr arasında namazı tərk etmək vardır" buyurarkən eşitdim. (Müslim, İman 134. Həmçinin bax Ebu Davud, Sünnə 15; Tirmizi, İman 9; İbni Mace, İkamet 17)*

*Cabir radiyallahu ənhdən rəvayət edildiyinə görə, Rəsulullah sallallahu əleyhi və səlləm belə buyurdu: "Beş vaxt namazın bənzəri, sizdən birinizin*

*qapısı önündən axıb gedən və hər gün içində beş dəfə yuyunduğu bol sulu çay kimidir." (Müslim, Mesacid 284)*

Eyni namaz kimi saleh əməl olan infaq da (malın Allah yolunda xərclənməsi), əgər Allahın deyil də insanların rizası üçün edilsə bütün dəyərini itirər. Quranda, həqiqi infaqla göstəriş üçün edilən infaq arasındakı fərq belə açıqlanır:

**Ey iman edənlər! Özünü insanlara göstərmək üçün malını sərf edib Allaha və axirət gününə inanmayan şəxs kimi, siz də sədəqələrinizi minnət qoyaraq və əziyyət verərək puça çıxartmayın! Onun (minnətlə sədəqə verənin) halı, üzərində (bir az) torpaq olan qayanın halına bənzəyir. Ora şiddətli bir yağış yağıb onu çılpaq bir hala salar. Onlar, qazandıqlarından heç bir şeyə (savaba) nail ola bilməzlər. Allah inkar edənlər qövmünü doğru yola yönəltməz. Allahın rizasını qazanmaq və içlərindəkini (comərdliklərini) möhkəmləndirmək üçün mallarını infaq edənlərin halı, bir təpənin üstündəki bir bağın halına bənzəyir ki, ora bol yağış yağar və (o yağış nəticəsində) ikiqat meyvə verər. Ora bol yağış yağmasa belə, az bir şeh də (ona kifayət edər). Allah sizin nə etdiyinizi görür. (Bəqərə surəsi, 264-265)**

Eyni mövzu başqa bir ayədə belə bildirilir:

**Allaha və axirət gününə iman etmədikləri halda mallarını insanlara göstəriş üçün infaq edənlərdir. Şeytan kimə yoldaşlıq edərsə, (bilsin ki,) o necə də pis bir yoldaşdır! Əgər onlar Allaha və axirət gününə iman edib, Allahın onlara verdiyi ruzidən infaq etsəydilər, nə olardı (nə zərər çəkərdilər)?! Allah onları yaxşı tanıyır. (Nisa surəsi, 38-39)**

Bir sözlə, bir əməli saleh edən onun arxasındakı niyyətdir. Əgər o əməllə istənilən maddi nəticə əldə edilməsə belə, niyyət saleh olarsa, əməl də saleh olar. Məsələn, bir insan Allah rizası üçün bir iş görmək üçün yola çıxar

və uzun müddət çalışa bilər. Amma nəticə arzuladığı kimi olmaya bilər. Ancaq fərq etməz; o, yenə də layiq olduğu mükafatı almış olar. Üstəlik, müsəlman bilməlidir ki, Allahın onu istədiyi nəticəyə çatmasına imkan verməməsində böyük bir sirr və hikmət vardır. Çünki ayədəki hökmə əsasən, **"...Bəlkə də xoşlanmadığınız bir şey sizin üçün xeyirli, xoşlandığınız bir şey isə sizin üçün zərərlidir. Allah bilir, ancaq siz bilməzsiniz." (Bəqərə surəsi, 216),** arzu olunan nəticənin əslində xeyirli olub-olmadığını bilən yalnız Allahdır.

Müsəlman hər şeyi Allah rizası üçün etməli, nəticəsini isə Allaha buraxmalıdır.

Saleh əməllərin yuxarıda qeyd etdiyimiz bu əsas xüsusiyyəti, yəni hər şeydən əvvəl niyyətə bağlı olması, Allahın müstağniyyətinin və insanın Rəbbimizə qarşı acizliyinin nəticəsidir. Allah müstağnidir. Yəni hər cür nöqsan və əksiklikdən uzaqdır, heç bir şeyə ehtiyacı yoxdur. Ona görə də, müsəlmanların edəcəyi saleh əməllərə də Allahın ehtiyacı yoxdur. Quranda belə buyurulur:

> **Ey insanlar! Allaha möhtac olan sizsiniz. Allah isə heç bir şeyə möhtac deyil, hər cür tərifə layiqdir. Əgər Allah istəsə, sizi yox edər və sizin yerinizə yeni bir xalq gətirər. Bu, Allah üçün çətin deyildir. (Fatir surəsi, 15-17)**

Rəbbimiz istədiyi anda istədiyi şeyi edə bilər. Allahın heç bir şeyə ehtiyacının olmadığı Quranda belə xəbər verilir:

> **...İman edənlər hələ də bilmədilərmi ki, əgər Allah diləsəydi, bütün insanları hidayətə yönəldərdi?!. (Rad surəsi, 31)**

Qısacası, insan saleh əməllər etməklə əslində yalnız özünə fayda verər və öz axirət həyatını qurtarar. Quranda ifadə edildiyi kimi: **"Kim (Allah yolunda) çalışarsa, yalnız özü üçün (axirəti üçün) çalışmış olar. Şübhəsiz ki, Allah aləmlərə (insanlara) möhtac deyildir." (Ənkəbut surəsi, 6)**

Necə ki, namaz qılan özü üçün qılmış olur, oruc tutan, Allah yolunda xərcləyən də, islamı müdafiə edən də bütün bunları özü üçün etmiş olur. Bu işləri görməyə ehtiyacı olan özüdür.

Allah Quranda xəbər verir ki, vacib olan əməllər və ya nəticəsi deyil, bu hərəkətləri edərkən insanın niyyətidir. Həcc surəsində bu həqiqət aşağıdakı nümunə ilə açıqlanır:

**Onların nə ətləri, nə də qanları Allaha çatar. Lakin Ona çatan sizin təqvanızdır. Beləcə, onları sizin xidmətinizə verdik ki, sizi doğru yola yönəltdiyi üçün Allahı uca tutasınız. Yaxşı əməl sahiblərinə müjdə ver! (Həcc surəsi, 37)**

Ona görə də, saleh işlər görərkən yaxşı niyyətli olmaq lazımdır, yəni işin yalnız Allah rizası üçün edildiyini nəzərə almaq son dərəcə vacibdir. Bu məqsədlə də, Allah ilə mənəvi əlaqədə olmaq, bir işi görərkən Ona həmd etmək, əməlin qəbul edilməsi üçün Allaha dua etmək lazımdır.

Quranda xəbər verilən hz. İbrahim (ə.s) və hz. İsmayılın (ə.s) Kəbəni tikərkən etdiyi duası bütün möminlər üçün bir nümunədir:

**Bir zaman İbrahim və İsmayıl evin (Kəbənin) bünövrəsini ucaldırdılar (və belə dua edirdilər:) "Ey Rəbbimiz, bizdən (bunu) qəbul et! Şübhəsiz ki, Sən hər şeyi eşidənsən, bilənsən! Ey Rəbbimiz! Bizi Sənə təslim olanlardan et və nəslimizdən də Sənə təslim olan bir ümmət çıxart! Bizə (həcc üçün) ibadət qaydalarını göstər və tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən. (Bəqərə surəsi, 127-128)**

Allahın hz. Davud (ə.s) və səhabələrinə əmri də, **"Ey Davud ailəsi, Allaha şükür edin! Bəndələrimdən şükür edənlər azdır." (Səba surəsi, 13),** deyə saleh əməl edilərkən Allahın dua və şükürlə həmişə təsbeh edilməsinin əhəmiyyətini bildirir.

Bu cür əməl saleh əməldir və insanın Allaha olan yaxınlığını və axirətdəki dərəcəsini artırır. İnsanın "iman etdim" deməklə dediyi söz, bu əməllə birlikdə möhkəmlənər. Allah Fatir surəsində belə buyurur:

**"... Yaxşı söz Ona doğru yüksələr və onu yüksəldən yaxşı əməldir...." (Fatir surəsi, 10)**

İman gətirib həyatı boyunca saleh əməllər edən möminin qovuşacağı qurtuluş isə Allahın rizası və cənnətidir. Quranda belə hökm edilir:

**İman edib yaxşı işlər görənlərə gəldikdə, - Biz heç kimə gücü yetdiyindən artıq (vəzifə) yükləmərik - onlar cənnət əhlidirlər. Onlar orada əbədi qalacaqlar. Biz onların qəlbindəki kin-küdurəti çəkib çıxardarıq. Onların (məskunlaşdığı cənnətin ağacları) altından çaylar axar. Onlar deyərlər: "Bunun üçün bizi doğru yola yönəldən Allaha həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz doğru yolu tapa bilməzdik. Şübhəsiz ki, Rəbbimizin elçiləri həqiqəti gətirmişdilər". Onlara: "Etdiyiniz əməllər müqabilində varisi olduğunuz cənnət budur!" - deyə səslənilər. (Əraf surəsi, 42-43)**

# ŞÜKÜR

Şükür, neməti verənə təşəkkür etmək, razılıq və minnətdarlığı bildirmək, verilən nemətin dəyərini bilmək, təqdir etmək mənasına gəlir. Allaha şükür etmək, hər cür nemətin tək sahibinin Allah olduğunun və hər şeyin yalnız Ondan gəldiyini dərk etmək, bunu qəlb və dil ilə ifadə etməkdir. Şükür etməmək isə Quranda nankorluq mənasını verən "küfr" termini ilə tanınır. Təkcə bu tərif şükür etməyin Allah qatında nə qədər əhəmiyyətli olduğunu və bu ibadətdən uzaqlaşmanın insanı necə pis vəziyyətə saldığını göstərmək üçün kifayətdir.

Şükür, Quranda ən çox vurğulanan mövzulardan biridir. Yetmişə yaxın ayədə şükür etməyin vacibliyindən bəhs edilir, möminlərə şükür etmələri xatırladılır, şükür edən və şükür etməyənlərdən nümunələr verilir, onların aqibəti izah edilir. Quranda şükürün bu qədər əhəmiyyət kəsb etməsinin səbəbi, imanın və tövhidin ən böyük göstəricilərindən biri olmasıdır. Bir ayədə şükür etmək "yalnız Allaha qulluq etməyin" şərti olaraq bildirilir:

**Ey iman edənlər, əgər yalnız Allaha ibadət edirsinizsə, sizə verdiyimiz ruzilərin təmiz olanlarından yeyin və Ona şükür edin! (Bəqərə surəsi, 172)**

Zumər surəsinin ayələrində Allaha ibadətlə yanaşı şükür etmək də şirkin əksi olaraq qeyd edilir:

**(Ey elçi!) Həqiqətən, sənə də, səndən əvvəlkilərə də: "Əgər Allaha şərik qoşsan, sənin əməlin puça çıxar və ziyana uğrayanlardan olarsan!" - deyə vəhy olunmuşdur. Xeyr! Allaha ibadət et və şükür edənlərdən ol! (Zumər surəsi, 65-66)**

Şükür etməyin nə qədər əhəmiyyətli mövzu olduğunu göstərən başqa nümunə də, İblisin əxlaqsızlığının xəbər verildiyi hekayədir. Ayələrdə İblisin bu çirkin əxlaqı belə xəbər verilir:

**(İblis) dedi: “Sən məni azdırdığın üçün, mən də hökmən onları azdırmaq məqsədilə Sənin doğru yolunun üstünə oturacağam. Sonra mütləq önlərindən, arxalarından, sağlarından və sollarından onların yanına soxulacağam. Sən onların çoxunu şükür edən görməyəcəksən. (Əraf surəsi, 16-17)**

Göründüyü kimi, təkəbbürü, həsəd və paxıllığı ilə bütün həyatını qiyamətə qədər insanları azdırmağa həsr edən şeytan, insanların şükürdən uzaqlaşmasını öz alçaq düşüncəsində böyük uğur kimi görür. Nəzərə alsaq ki, şeytanın əsas məqsədlərindən biri insanları şükür etməkdən çəkindirməkdir, şükür etməyən insanın necə böyük bir azğınlıq içində olduğu daha yaxşı başa düşülür.

Şükür, imtahanın bir hissəsidir. Allah insana Öz tərəfindən saysız-hesabsız nemətlər verir, ona necə davranacağını bildirir və bu nemətlərə münasibətini sınayır. Bundan sonra insan ya şükür edənlərdən, ya da nankorlardan olar. Bu vəziyyət aşağıdakı ayələrdə bu cür bildirilir:

**Şübhəsiz ki, Biz insanı sınamaq üçün qarışıq bir nütfədən yaratdıq, sonra da onu eşidən və görən bir varlıq halına gətirdik. Biz ona doğru yolu göstərdik. Bundan sonra istər şükür etsin, istər nankor olsun. (İnsan surəsi, 2-3)**

Ayədə bildirilir ki, imtahan edilən şəxs iki yoldan birini, yəni şükür və ya nankorluqdan birini seçəcək. Buna görə də, ayədə açıq şəkildə görünür ki, şükür imanla, şükür etməmək isə küfrlə eynidir.

Əzabın təməlində şükür etməmək vardir. Allah şükür edib iman edənlərə heç bir əzabın olmadığını müjdələyir:

**Əgər şükür edib iman etsəniz, Allah sizə niyə əzab versin? Allah şükürün əvəzini verəndir, hər şeyi biləndir. (Nisa surəsi, 147)**

Yuxarıdakı ayədə olduğu kimi, Allah Quranın bir çox ayələrində şükürün mükafatını verəcəyini, şükür edənlərə verdiyi nemətləri artıracağını və mükafatlandıracağını bildirmişdir. Bu ayələrdən bir neçəsi belədir:

**Vaxtilə Rəbiniz: "Əgər şükür etsəniz, mütləq sizə (nemətimi) artıracağam. Əgər nankorluq etsəniz, (bilin ki,) həqiqətən, əzabım çox şiddətlidir!" – deyə bildirmişdi. (İbrahim surəsi, 7)**

**Allah iman edib yaxşı işlər görən bəndələrini belə müjdələyir. De: "Mən sizdən bunun müqabilində sevgidən başqa heç bir mükafat istəmirəm". Kim bir nemət qazanarsa, Biz onun yaxşılığını artırırıq. Həqiqətən, Allah bağışlayandır, şükür edənlərə qarşılığını verəndir. (Şura surəsi, 23)**

**Lut qövmü də xəbərdarlıqları yalan saymışdı. Biz onların üstünə daş yağdıran bir fırtına göndərdik. Yalnız Lut ailəsini sübh çağı xilas etdik. Tərəfimizdən bir nemət olaraq! Biz şükür edəni belə mükafatlandırırıq. (Qamər surəsi, 33-35)**

Nahl surəsinin 18-ci ayəsində, "**Əgər Allahın nemətlərini saysanız, onları sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah çox bağışlayandır, rəhmlidir.**" hökmü ilə bildirildiyi kimi, Allahın nemətlərini nəyinki bir-bir saya bilmək, nemətləri qruplaşdırıb saymaq belə mümkün deyil. Nemətin həddi olmadığı üçün şükürün də həddi-hüdudu yoxdur. Ona görə də insan daima şükür etməli, Allahın nemətlərini xatırlamalı, onları diqqətdə saxlamalı və izah etməlidir.

Bəzi insanlar şükür etmədən əvvəl çox böyük, xüsusi bir nemətin gəlməsini və ya çox böyük bir problemin həllini gözləyirlər. Halbuki bir az diqqət yetirdikdə insanın hər anının nemətlərlə keçdiyini görər. Həyatı, sağlamlığı, ağlı, şüuru, beş duyğu üzvü, nəfəs aldığı hava və saysız-hesabsız nemətlər ona hər an fasiləsiz olaraq təqdim edilir. Bu nemətlərin hər biri ayrı-ayrılıqda şükür tələb edir. Çünki Allahı zikr və təfəkkürdən məhrum olan insanlar qəflətdə olduqları üçün bu nemətlərin qədrini onlara sahib olduqları

müddətdə bilməzlər, şükür etməzlər, lakin bu nemətlər əllərindən çıxdıqda onların dəyərini dərk edər və nankorluqlarının qarşılığını alarlar.

Quranda Allahın insanlara bəxş etdiyi müxtəlif nemətlər deyilər və onlara şükür etməyi dönə-dönə tövsiyə edilib xatırladılar. Bu nemətlərdən bəziləri bunlardır: İnsanı düzgün şəkildə yaratmaq, eşitmə, görmə və hisslər bəxş etmək, Allahın insanlara dinini öyrətməsi, ayələrini izah etməsi, möminləri təmizləməsi, günahların bağışlanması, ibadətdə asanlıq verməsi, inkarçılara qarşı qalib gəlməsi, möminləri küfrün əzabından xilas etməsi, insanları yer üzündə məskunlaşdırıb dolanışığını təmin etmək, insanlara içməli suyun yaradılması, torpağın verdiyi məhsulların, heyvanları insanların xidmətinə və faydasına vermək, dənizi insanların ixtiyarına vermək, dəniz məhsulları, bəzək əşyaları, dənizdə üzən gəmilərin, gecə və gündüzün yaradılması...

Heç kim "mən şükür etmirəm, lakin bütün ibadətləri yerinə yetirirəm, bir çox yaxşılıq, savab edirəm" kimi bəhanə irəli sürə bilməz. Çünki şükür etməyən kəs Allahı zikr etməyən, Allahdan tamamilə qafil yaşayan insan deməkdir. Allahın verdiyi saysız nemətləri görməyən, bu nemətləri şüursuz şəkildə istifadə etmək nemətin sahibini və bu nemətlərin verilmə hikmətini düşünməyən, hətta heç ağlına belə gətirməyən, qısaca Allaha qarşı nankorluq edən birinin bu davranışını dəyişdirmədiyi halda Allahdan bir şey umması, axirət mövzusunda müsbət qarşılıq gözləməsi son dərəcə mənasızdır. Buna görə də, mömin, şükür mövzusunda heç vaxt zəiflik davranmamalıdır.

Allahın Qurandakı və dünyadakı ayələrini (möcüzələrini) də, yalnız çox şükür edənlərin anlayacağına dair Quranda bir çox ayə vardır. Bu ayələrdən bəziləri belədir:

**Rəbbinin izni ilə gözəl məmləkətin (torpağın) bitkiləri də (gözəl) çıxar. Pis olan (bir torpağın bitkiləri) isə, ancaq və ancaq çətinliklə çıxar. Şükür edən bir qövm üçün ayələri belə bəyan edirik. (Əraf surəsi, 58)**

**Şübhəsiz ki, Biz Musanı da öz qövmünü qaranlıqlardan aydınlığa çıxartması və onlara Allahın günlərini (nemətlərini) xatırlatması üçün möcüzələrimizlə göndərdik. Həqiqətən, bunda çox səbir edib şükür edən hər kəs üçün ibrətlər vardır. (İbrahim surəsi, 5)**

**Allah sizə Öz (varlığının) dəlillərindən (bir qismini) göstərsin deyə Onun neməti sayəsində gəmilərin dənizdə üzdüyünü görmədinmi? Şübhəsiz ki, çox səbir edən və çox şükür edən hər kəs üçün bunda ibrətlər vardır. (Loğman surəsi, 31)**

**Onlar isə: "Ey Rəbbimiz! Səfərlərimizin arasını (aramızdakı məsafələri) uzaqlaşdır!" - dedilər və özlərinə zülm etdilər. Biz də onları pərən-pərən salıb ibrətamiz hekayələrə çevirdik. Həqiqətən, çox səbir edən və çox şükür edən hər kəs üçün bunda ibrətlər vardır. (Səba surəsi, 19)**

Allahın bu ayələrinin və dəlillərinin hikməti, yalnız çox şükür edənlərin əldə etdikləri qavrayış və duyğu sayəsində aydın olar. Nankor və laqeyd kəslər isə, Allahın ayələrinin hikmətlərini anlamaz, hətta bu ayələri dərk etməzlər. Quranda, Allahın peyğəmbərlərə həmişə şükür etmələrini əmr etdiyini görürük. Hz. Musa (ə.s) da bu peyğəmbərlərdəndir:

**Allah dedi: "Ey Musa! Mən vəhylərimlə və səninlə danışmağımla səni insanlardan seçib üstün tutdum. Ona görə də sənə verdiyimi al və şükür edənlərdən ol!" (Əraf surəsi, 144)**

Yenə ayələrdə, elçilərin üstün xüsusiyyətlərindən bəhs edilərkən, onların şükür etmələri bir çox ayədə (Nəhl surəsi, 120-121; İsra surəsi, 3; Nəml surəsi, 19; Yusif surəsi, 38; Loğman surəsi, 12) xüsusilə xəbər verilir.

Əhqaf surəsinin 15-ci ayəsində nümunə verilən möminin, yetkinlik çağı olan qırx yaşına çatdığı zaman etdiyi duada Allahdan ilk olaraq Onun nemətinə şükür etməyi istəməsi də şükür etmənin əhəmiyyətini göstərir:

**Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Anası onu (bətnində) əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun (ana bətnində) daşınması və süddən kəsilməsi otuz ay ərzindədir. Nəhayət, o, yetkinləşib qırx yaşına çatanda belə deyər: "Ey Rəbbim!**

**Mənə və ata-anama verdiyin nemətlərə görə şükür etməyim və Sənin razı qalacağın yaxşı işlər görməyim üçün mənə ilham ver! Mənim nəslimi islah et! Həqiqətən, mən tövbə edib Sənə yönəlmişəm və mən Sənə təslim olanlardanam.” (Əhqaf surəsi, 15)**

# MƏNFƏƏT GÜDMƏMƏK

İnsanın imanında səmimi olmasının (yalnız Allahın rizasını istəməsinin) ən böyük göstəricilərindən biri də sadə mənfəətlər güdməməyi, ixlaslı, yəni Allah rizası üçün səmimi şəkildə çalışmasıdır. Hər nemətin Allahdan gəldiyini dərk edən, yalnız Allahın rizasını hədəfləyən, Allahı istəyən və Ondan qorxan bir mömin, təbii ki, sadə və kiçik hesablamalar arxasınca qaçmaz.

Odur ki, insanın öz əməllərində şəxsi mənafeyi güdüb-güdməməyi birbaşa onun imanı ilə bağlıdır. Allahı layiqincə təqdir edən və axirət həyatını dərk edən bir insan, əlbəttə ki, Allahın Quranda bildirdiyi fədakarlıq əmrinin tələb etdiyi kimi, sadə mənfəət hesablarına arxalanmayacaq və öz nəfsinin istəklərini təmin etmək üçün səy göstərməyəcəkdir. Digər tərəfdən, Allahı layiqincə təqdir etməyən, axirət dünyasını dərk etməyən bir insanın bu böyük həqiqətləri görməməsi, sadə və xırda mənfəətlər güdməsi təbii haldır. Çox kiçik dünyası və çox dar düşüncə tərzinə sahib olduğu üçün həmişə öz şəxsi mənfəətini düşünən əxlaq göstərər.

Quranda möminlərin öhdələrinə götürdükləri təbliğ vəzifəsinə qarşılıq olaraq heç bir mənfəət gözləməmələri tez-tez xatırladılır. Bütün peyğəmbərlərin hekayələrində üzərinə götürdükləri təbliğ vəzifəsinə qarşılıq olaraq heç bir "gəlir" (mənfəət) istəmədikləri bildirilir. Bəzi ayələr belədir:

**Ad qövmünə də qardaşları Hudu (elçi) göndərdik. O demişdi: "Ey qövmüm, Allaha ibadət edin! Sizin Ondan başqa heç bir ilahınız yoxdur. Siz yalnız (Allaha) böhtan atırsınız. Ey qövmüm! Mən buna görə sizdən heç bir əvəz tələb etmirəm. Mənim mükafatım yalnız məni yaradana aiddir. Hələ də düşünüb dərk etmirsinizmi? (Hud surəsi, 50-51)**

**De: "Mən bunun müqabilində sizdən heç bir əvəz istəmirəm. Yalnız Rəbbinə doğru bir yol tutmaq istəyən kimsələr olmalarını istəyirəm. (Furqan surəsi, 57)**

**O zaman qardaşları Nuh onlara belə demişdi: "(Allahdan) qorxmursunuzmu? Həqiqətən, mən sizə göndərilən etibarlı bir elçiyəm. Allahdan qorxun və mənə itaət edin! Bunun əvəzində mən sizdən heç nə istəmirəm. Mənim mükafatımı yalnız aləmlərin Rəbbi verəcəkdir. (Şuəra surəsi, 106-109)**

Ayələrdə görüldüyü kimi, Allah yolunda edilən təbliğ qarşılığında heç bir dünyəvi mənfəət güdülməməlidir. Bu mənfəət yalnız pul deyil; edilən xidmət qarşılığında etibar, insanların bəyənməsi, ya da təqdiri də güdülməz. Tək ümid edilən qarşılıq Allahın rizasıdır. Əgər Allah istəsə, edilən xidmətin qarşılığının bir qismini dünyada verəcəkdir.

Buna görə də, görülən xidmətin dəyərinin ölçüsü insanların bəyənməsi deyil, Allahın rizasına uyğun olmasıdır. Bəzi peyğəmbərlərin dövründə onların etdiklərini təqdir edən heç kim olmamışdır. Heç kim onları dinləməmiş, heç kim onlara tabe olmamış, hətta bütün cəmiyyət onlara qarşı cəbhə almışdır. Ancaq yenə də bu peyğəmbərlər Allah Qatında üstün olanlardır.

Çünki müvəffəqiyyət, insanlara təsir etmək, onların rəğbətini qazanmaq deyil, Allahın rizasını qazanmaqdır. Mömin Allah yolunda xidmət etməklə, Rəbbimizə yaxınlaşmaqla, dua etmək və qulluq etməklə məsuldur. Dünyəvi müvəffəqiyyəti istədiyi anda verən də, geri alan da Allahdır. Bədiüzzaman Səid Nursinin dediyi kimi, **"insan öz vəzifəsinə baxmalı və Allahın yazdığı taleyə təslim olmalıdır."**

Allahın rizasını güdən insan, həmişə Ona ibadət edər. Bəsit mənfəət hesabları etmədiyi üçün, dünya həyatının zinəti ona təsir etmir. Necə ki, Allah Quranda, möminlərlə birlikdə olmağı və dünya həyatının bəzəyini axtararaq onlardan "gözlərini çəkməyi" əmr edir:

**Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona dua edənlərlə birlikdə (çətinliklərə qarşı) səbir et! Dünya həyatının zinətini istəyərək gözlərini onlardan çevirmə! Qəlbini Bizi anmaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində ifrata varan kimsəyə boyun əymə! (Kəhf surəsi, 28)**

Burada çox mühüm bir məqam vardır: İnsan dinə yaxınlaşarkən, “necə mənfəət əldə edərəm?” kimi azğın məntiqlə deyil, “necə Allaha ibadət edə bilərəm, Ona itaət edib rizasını necə qazana bilərəm?” məntiqi ilə düşünməlidir. Əks halda səmimiyyətsizlik olar. Quran, bu cür əxlaq göstərənləri **“münafiq”** adlandırır. Bunlar öz mənfəətləri naminə özünü dindar kimi göstərən səmimiyyətsiz, ikiüzlü insanlardır və Allahın qəzəbinə ən çox düçar olacaq və cəhənnəmin ən aşağı qatına atılacaq şəxslərdir. Quranda bu insanların vəziyyəti belə bildirilir:

**(Münafiqlər:) “Allaha və elçiyə iman etdik və itaət etdik!” - deyirlər. Bunun ardınca onlardan bir qrup (haqdan) üz döndərir. Onlar mömin deyillər. Aralarında hökm verməsi üçün Allaha və elçisinə çağırıldıqları zaman onlardan bir qrup dərhal üz çevirər. Əgər haqq (Allah və Rəsulunun verdiyi hökm) onların lehinə olarsa, itaət edərək onun yanına gələrlər. (Nur surəsi, 47-49)**

Göründüyü kimi, münafiqlər dinin yalnız öz mənafelərinə uyğun olan tərəflərini qəbul edir və digər hökmləri isə rədd edirlər. Bu insanlar bir müddət dindar görünsələr də, əsl vəziyyətləri ayədə bildirildiyi kimi “uçurumun kənarında bina tikən” insanlar kimidir:

**Binasını Allah qorxusu və rizası üzərində quranmı, yoxsa binasını uçulmaqda olan bir yerin kənarında qurub, (ora çökdüyü zaman) onunla birlikdə cəhənnəm oduna yuvarlananmı daha xeyirlidir?! Allah zalımlar qövmünü doğru yola yönəltməz. (Tövbə surəsi, 109)**

Yalnız Allah rizasını axtarmağın əhəmiyyətini bildirən digər ayələr belədir:

**Allahın rizasını qazanmaq istəyən kəs, Allahın qəzəbinə düçar olan kəs kimi ola bilərmi?! Onun (qəzəbə düçar olanın) yeri cəhənnəmdir. Ora necə də pis bir yerdir! (Ali İmran surəsi, 162)**

**Beləcə, Allahın neməti və lütfü sayəsində onlara heç bir zərər toxunmadan geri döndülər və Allahın rizasına uymuş oldular. Allah böyük lütf sahibidir. (Ali İmran surəsi, 174)**

**Onların fısıldaşmalarının çoxunda xeyir yoxdur. Ancaq sədəqə verməyi, yaxud yaxşılığı və ya insanların arasını düzəltməyi (sülhü) əmr edən kimsənin (fısıldaşması) istisnadır. Kim Allahın rizasını qazanmaq üçün bunu edərsə, Biz ona böyük mükafat verəcəyik. (Nisa surəsi, 114)**

**Allah, Öz rizasına uyanları onunla əmin-amanlıq yollarına yönəldər və Öz iznilə onları qaranlıqdan aydınlığa çıxarıb doğru yola istiqamətləndirər. (Maidə surəsi, 16)**

**Allah mömin kişilərə və mömin qadınlara altından çaylar axan, əbədi qalacaqları cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allahın rizası isə (hamısından) daha böyükdür. Böyük uğur məhz budur! (Tövbə surəsi, 72)**

**Onlar rəbbinin rizasını istəyərək səbir edər, namazı qılar, onlara verdiyimiz ruzidən gizli və aşkar (Allah yolunda) xərcləyər və pisliyi yaxşılıqla dəf edərlər. (Dünya) yurdunun (gözəl) aqibəti məhz onlarındır. (Rad surəsi, 22)**

Möminin hədəfi Allahın rizası, rəhməti və cənnətidir. Bundan başqa kiçik dünyəvi mənfəətlər axtarmaz. Buna görə də Allah möminləri **"Şübhəsiz ki, Biz onları axirət yurdunu düşünən ixlaslı kimsələr etdik.** (Sad surəsi, 46) şəklində təsvir edir. Həqiqətən də ixlas (yəni xalis, saf şəkildə Allah rizasını axtarmaq), mömini mömin edən ən mühüm xüsusiyyətlərdəndir.

Əsl nemətlər, axirətdəki nemətlərdir. Bu dünya müvəqqəti və olduqca əksiklərlə dolu yurddur. Dünyadakı nemətlər axirətdəkilərə görə çox məhduddur. Dünya, axirətdəki əsl nemətin, yəni cənnətin olduqca əksik nümunəsi olaraq yaradılmışdır. Quranda, bu mövzuda belə deyilir:

**Qadınlara, uşaqlara, qızıl-gümüş yığınlarına, yaxşı cins atlara, mal-qaraya və əkin sahələrinə qarşı nəfsani istəklər insanlara gözəl göstərilmişdir. Bunlar dünya həyatının (müvəqqəti) mənfəətləridir. Ən gözəl dönüş yeri Allah dərgahındadır. (Ali İmran surəsi, 14)**

**Bilin ki, dünya həyatı yalnız oyun-əyləncə, bərbəzək, bir-birinizə qarşı öyünmək, bir də mal-mülk və övlad çoxaltmaq yarışından ibarətdir. O (dünya həyatı) elə bir yağışa bənzəyir ki, onun (torpaqdan) bitirdikləri inkar edənlərin xoşuna gələr. Sonra o quruyar, sən də onun saraldığını görərsən. Sonra da çör-çöp olar. Axirətdə həm şiddətli bir əzab, həm də Allahdan məğfirət və razılıq vardır. Dünya həyatı aldadıcı zövqdən başqa bir şey deyildir. (Hədid surəsi, 20)**

Mömin, qanuni ölçülərdə dünya nemətlərindən də yararlanar, amma bunlara aldanaraq əsla Allahı, axirəti və əsl vəzifəsini unutmaz. Əksini edənlərin alacağı cavab bu şəkildə bildirilir:

**De: "Əgər valideyniniz, övladlarınız, bacı-qardaşlarınız, həyat yoldaşınız, yaxın qohumlarınız, qazandığınız mallar, iflasa uğramasından qorxduğunuz alış-verişiniz və bəyəndiyiniz məskənlər sizə Allahdan, Onun elçisindən və Onun yolunda cihad etməkdən daha əzizdirsə, Allah Öz əmri ilə gəlincəyə qədər gözləyin. Allah günahkarları doğru yola yönəltməz. (Tövbə surəsi, 24)**

Bu mövzuda edilən səhv hərəkət isə Cümə surəsində belə xəbər verilir:

**Onlar bir alış-veriş, yaxud əyləncə gördükləri zaman ona tərəf qaçar və səni ayaq üstə qoyub gedərlər. De: "Allah dərgahındakılar əyləncədən və alış-verişdən daha yaxşıdır. Allah ruzi verənlərin ən yaxşısıdır!" (Cümə surəsi, 11)**

# QARDAŞLIQ VƏ BİRLİK

Sədaqət və ixlas qədər əhəmiyyətli digər mömin xüsusiyyəti də, birlik olmalarıdır. Quranda bildirilən hökmə görə, bütün möminlər bir-birlərinin bacı-qardaşıdır. Onlar eyni yola uymuş, eyni kitaba tabe olmuş, eyni hədəfə sahib, eyni duyğuları daşıyan insanlardır. Buna görə də, aralarında böyük sevgi və birlik olar. Allah bu vəziyyəti belə bildirir:

**Şübhəsiz ki, Allah Öz yolunda möhkəm bir divar kimi cərgə-cərgə düzülüb cəhd edənləri sevər. (Saff surəsi, 4)**

Yuxarıdakı ayədə təsvir edildiyi kimi birlik olub Allah yolunda cəhd etmək (səy göstərmək) qəti əmrdir. Allah Ali İmran surəsində belə hökm edir:

**Hamılıqla Allahın ipinə (İslama) yapışın və parçalanmayın! Allahın, sizə olan nemətini xatırlayın. Belə ki, siz bir-birinizə düşmən ikən, O sizin qəlbinizi birləşdirdi və Onun neməti sayəsində qardaş oldunuz. Siz bir atəş quyusunun kənarında ikən O sizi oradan xilas etdi. Allah ayələrini sizə belə açıqlayır ki, bəlkə, haqq yola yönələrsiniz. (Ali İmran surəsi, 103)**

Möminlər gözəl əxlaqlı, təvazökar, sevgi və hörmətlə doludurlar. Ona görə də birlik möminlər arasında təbii şəkildə yaranır. Bununla belə, hələ də nəzərə alınacaq məqamlar var. Çünki möminlərin bilmədən edəcəyi müxtəlif səhvlər bu birliyə xələl gətirməz və möminlər arasında soyuqluq yaratmaz.

Səhv hərəkətlərin səbəbi möminlərin davranışına qəflət anlarında təsir edən nəfsdir. Mömin fədakar, mehriban və istiqanlı olur; amma hər kəsdə nəfs mövcuddur və insan diqqət yetirməsə bəzən nəfsinə uya bilər. Qısqanc, eqoist və həris olan nəfsinə uyması isə, bu pis hisslərin möminə təsir etməsi deməkdir.

Məhz buna görə Quranda, möminlərin birlik mövzusunda son dərəcə diqqətli olmaları üçün onlara xəbərdarlıq edilir. Madam şeytanın insandakı təzahürü olan nəfs insanı yanıldır, elə isə, qarşıdakı möminin nəfsini hərəkətə

keçirəcək üslubdan qətiyyən istifadə edilməməlidir. Bu mövzuda ayədə belə buyurulur:

**Bəndələrimə de ki, sözün ən gözəlini söyləsinlər. Həqiqətən, şeytan onların arasına fitnə salar. Şübhəsiz ki, şeytan insanın açıq-aşkar düşmənidir. (İsra surəsi, 53)**

Ayədə bildirilən əmr birliyin təmin edilməsi baxımından son dərəcə əhəmiyyətlidir. Birincisi, möminlərə bir-birlərinə qarşı həmişə ən gözəl (yalnız gözəl deyil, "ən gözəl") xitabdan istifadə etmələri əmr edilmişdir. İkincisi, şeytanın bir xüsusiyyəti üzə çıxır: Şeytan insanlar, xüsusilə möminlər arasında ixtilaf salmağa çalışırlar.

Şeytanın və nəfsin möminlər arasındakı birliyi pozmaq üçün ən çox üz tutduğu yollardan biri isə, rəqabət duyğusudur. Əgər mömin qəflət halında olsa, mövqe, məqam kimi mövzularda rəqabət hissinə qapılıb qardaşlarını keçməyə, özünü onlardan daha ön plana çıxarmağa çalışar. Eyni şəkildə, özündən daha ön planda olan qardaşına qarşı qısqanclıq hiss edər. Əslində qəflət halında edilən bu hərəkət, Allaha üsyan mənasını verir.

Çünki, **"Yoxsa onlar Allahın Öz lütfündən bəxş etdiyi şeylərə görə insanlara həsədmi aparırlar."** (Nisa surəsi, 54) ayəsinə görə, insanlara verilmiş nemətlər Allahdandır və bunları qısqanmaq Allahın təqdirinə qarşı çıxmaq mənasını verir. Buna görə də möminlər qısqanclıqdan qəti şəkildə uzaq olmalıdırlar. Əgər belə rəftar ortaya çıxarsa, bu həm Allahın rizasına uyğun olmayan hərəkətdir, həm də ayənin hökmünə görə möminlərin gücünün azalmasına səbəb olur:

**Allah və Onun elçisinə itaət edin və bir-birinizlə çəkişməyin! Yoxsa qorxub zəifləyər və taqətdən düşərsiniz. Səbir edin! Şübhəsiz ki, Allah səbir edənlərlə bərabərdir. (Ənfal surəsi, 46)**

Möminlər arasında yalnız yaxşı işlərdə yarışmaq vardır. Buna görə də, mömin qəti olaraq bacı-qardaşları ilə arasında çəkişmənin, rəqabət mühitinin yaranmasına mane olmalıdır. Həm özü qısqanclıq kimi bəsit duyğuya düşməməli, həm də sahib olduğu xüsusiyyətləri ön plana çıxardaraq bacı-

qardaşlarının nəfsindəki qısqanclıq damarını təhrik etməməlidir. Bacardığı qədər təvazökar, mülayim olmaq, rəqabət təhlükəsini yox edər. Quranda bu mövzuda verilən başqa bir meyar isə, bacı-qardaşlarının nəfsini öz nəfsindən üstün tutmaq, yəni hər vəziyyətdə fədakar davranmaq və bundan zövq almaqdır. Quranda bu meyar belə təsvir edilir:

**Onlardan əvvəl (Mədinədə) məskən salmış və iman qəlbinə yerləşmiş kimsələr (ənsar) hicrət edərək yanlarına gələnləri sevərlər. Onlara verilənlərə görə qəlbində bir həsəd duyğusu hiss etməz və özləri ehtiyac içində olsalar belə, (hicrət edənləri) özlərindən üstün tutarlar. Kim nəfsinin xəsisliyindən qorunarsa, onlar əsil nicat tapanlardır. (Həşr surəsi, 9)**

Qısqanclıq, rəqabət, incimə iman edənlər arasında birliyin və qardaşlığın önündəki çox əhəmiyyətli üç maneədir. Hərislik nəticəsində yaranacaq hər hansı rəqabət, insanların bir-birlərinə olan sevgisini azaldır. Bu cür Quran əxlaqına uyğun olmayan hərəkət, onların ruhuna böyük zərər verir və mənəvi cəhətdən geriləməyə yol açır.

Halbuki, inananlar üçün sonsuz savab qaynağı mövcud ikən bir-birlərinin qarşısını alıb, haqsız rəqabət və qısqanclıqla vaxt keçirmənin heç bir mənası yoxdur. Əgər hədəf Allah rizası olarsa, heç bir rəqabət olmaz. Çünki hər kəs bir-birinə mane olmadan Allah rizası üçün xidmət edib savab toplaya bilər.

Buna görə də, möminlərin bir insan bədəni kimi olduğunu, hər bir orqanın bir-birinə kömək və dəstək olduğunu unutmamalı, qardaş və bacılarının nailiyyətini öz uğurları kimi görərlər. Bu çox vacibdir. Quranda möminlər arasında birlik haqqında çoxlu ayələr vardır. Bir ayədə möminlərin digər möminlərlə birliyini artırmaq üçün etdikləri dua belə deyilir:

**Onlardan sonra gələnlər isə: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman etmiş qardaşlarımızı bağışla! İman edənlərə qarşı qəlbimizdə heç bir kin-küdurətə yer vermə! Ey Rəbbimiz, həqiqətən, Sən şəfqətlisən, mərhəmətlisən!" - deyərlər. (Həşr surəsi, 10)**

Möminlər arasında çəkişmə, ya da inciklik yaşanması hər kəsə zərər verər. Buna görə də, iman edənlər belə bir hərəkətə yol verməzlər. Necə ki, Quran ayəsində möminlərin bir-birlərinin vəliləri (dost və qoruyucuları) olmadıqları halda, fitnə çıxacağı belə xəbər verilir:

**İnkar edənlər də bir-birlərinin dostlarıdır. Siz onu (Allahın əmrlərini) yerinə yetirməsəniz, yer üzündə böyük bir fitnə-fəsad olar. (Ənfal surəsi, 73)**

Həmçinin Quranda həmrəyliklə əlaqədar açıq hökmlər vardır. Bu ayələrdən bəziləri bunlardır:

**Açıq-aydın dəlillər gəldikdən sonra ayrılıb ixtilafa düşən kəslər kimi olmayın! Onlar üçün böyük bir əzab vardır. (Ali İmran surəsi, 105)**

**"...Ona görə də əgər (həqiqi) möminsinizsə, Allahdan qorxun, aranızı düzəldin (münaqişələrə son verin), Allaha və Onun elçisinə itaət edin!" (Ənfal surəsi, 1)**

**Şübhəsiz, firqə-firqə olub dinlərini parçalayanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi ancaq Allaha qalmışdır. Sonra Allah onlara etdikləri əməlləri xəbər verəcəkdir. (Ənam surəsi, 159)**

Möminlər digər möminlərə qarşı son dərəcə mərhəmətli və təvazökar olmaqla məsuldurlar. Bunun əksini etmək qətiyyən Qurana uyğun deyil. Təkəbbür, qısqanclıq, paxıllıq, pis söz söyləmə, çəkişmə möminlərin deyil, inkarçıların xüsusiyyətləridir.

Buna görə də nəfsinə görə bu cür nalayiq hərəkət edən mömin dərhal özünü yığışdırmalı, Allaha sığınmalı və əsl mömin davranışını göstərərək səhvini düzəltməlidir. Əks halda, Allah o adamın yerinə daha xeyirlisini gətirəcəyini ayələrində xəbər vermişdir. İman edən hər insan aşağıdakı ayənin hökmünə girməkdən qəti şəkildə çəkinməlidir:

**Ey iman edənlər! Sizdən hər kim öz dinindən dönərsə, (bilsin ki,) Allah elə bir tayfa gətirər ki, Allah onları sevər, onlar da Allahı sevərlər. Onlar möminlərə qarşı mülayim, inkar edənlərə qarşı isə sərt olar, Allah yolunda cihad edər və tənə edənin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür. Onu dilədiyi kimsəyə verər. Allah (lütfü ilə) genişdir, hər şeyi biləndir. (Maidə surəsi, 54)**

## "MÜSƏLMANLARIN GÜCÜ BİRLİK OLMAQDADIR"

**ADNAN OKTAR**: Mən Əhli Sünnə məzhəbindənəm, hənəfiyəm. Lakin şiə qardaşlarımı da təqvalı, mükəmməl olduqlarını hesab edirəm. Çox yaxşı insanlardır, görürəm. Xalis müsəlmanlar olduqlarını görürəm. Eyni şəkildə vəhhabi olan qardaşlarımı da son dərəcə təqvalı, dindar, dini çox gözəl yaşayan insanlar olduqlarını görürəm.

Bizlər məktəb tələbələri kimiyik. Amma eyni məktəbin tələbəsiyik. Yəni eyni məqsədə xidmət edirik. Çünki Allahımız bir, Kitabımız bir, qibləmiz bir. Eyni Peyğəmbərlərə inanırıq. Hər şeyimiz eynidir. Yalnız bir təqvada yarışma var. Təqvada yarışırıq. Ona görə məzhəb ayrılığındn qaynaqlanan müsəlmanlara qarşı məsafəli olmaq fitnədir. Tam münafiq əlamətidir. Səmimi müsəlman heç vaxt belə şey etməz.

Məsələn, şiə qardaşlarıma baxıram son dərəcə təqvaları yerində, vəhhabi qardaşlarıma baxıram son dərəcə təqvaları yerində, məzhəb ayrı-seçkiliyi nə deməkdir? Onları qəribsəmək nə deməkdir? Çox anormal bir şeydir bu. **Müsəlmanlar ancaq təqvada yarışa bilərlər.** Allah Quranda ifadə edir, təqvada yarışma vardır. Təqvada yarışırıq, amma hamısı səmimi, sevdiyimiz, mükəmməl müsəlman olan qardaşlarımızdır. *(Al Baghdadia TV reportajından, 29 iyun 2008)*

**ADNAN OKTAR**: **B**u məzhəb ayrımından qaynaqlanan müxalif ruhu bir dəfəlik aradan qaldırmaq lazımdır**. Şiələr, ələvilər, bektaşilər, vəhhabilər**

**bunlar hamısı qardaşımızdır. Hamısı mömin, müttəqi, tərtəmiz insanlardır, hamısı Allaha aşiq, Peyğəmbərlərə aşiq, dərin sevgi bəsləyən insanlardır.**

Bizim üçün qardaşlarımız nemətdir. Hamısı nemətdir. Bu müxaliflik düşüncəsi aradan qalxmalıdır. Həmçinin islam əxlaqı Türk İslam coğrafiyasına yayıldığında bu çalışqanlıq, fəaliyyət, zehin açıqlığı, intizam, təvəkkül, təmizlik, keyfiyyət və dərin ağıl meydana gətirər. Bunun bərəkətini və gözəlliyini bütün bu coğrafiyanın hamısı görür. Hətta xristian aləmi, musəvilər istifadə edərlər. Bunun üçün tələsmək lazımdır. *(Denge TV, 3 iyul 2008)*

## "MÜSƏLMANLARIN BİR-BİRLƏRİNİ SEVMƏLƏRİ, BİRLİK OLMALARI ZƏNGİNLİK VƏ BƏRƏKƏT GƏTİRƏR"

**ADNAN OKTAR:** Quranda bizə, bütün islam aləminin birlik olması əmr edilir. Allah ayədə deyir, **"Qurğuşunla qaynadılmış binalar kimi"**. Müsəlmanların birlik olması kasıblıqdan qurtulmaları üçün birinci şərtdir. İkincisi, Quran əxlaqının səmimi olaraq tətbiq olunmasıdır. Bu, şəfqət, mərhəmət, sevgi və köməkləşməkdir. Onsuzda əsl müsəlman mal-mülkə həris olmaz, dünya hərisi olmaz.

Birlik və bərabərlik olduqda digər müsəlmanları öz ailəsi kimi, öz qardaşları kimi görəcək. Beləcə, zənginlik və bərəkət bu fərzlərin yerinə yetirilməsi ilə artar. Yəni bunun üçün xüsusi səyə ehtiyac yoxdur. Müsəlmanlar bir-birini sevməli, birlikdə olmalıdırlar. Onsuz da neft yataqları da, mədən sənayesi də, insani cəhətdən də ən zəngin ölkələr islam ölkələridir.

Ancaq birlik olmalı, bir-birlərinə qarşı sevgi duymalı, ağıllı şəkildə cəhd etməlidirlər. O zaman hz. Süleyman (ə.s) dövrü kimi olacaq, inşaAllah. Yəni o dövr kimi olmasa belə zənginlik və bərəkət dövrü olacaq. İslam Birliyi fikrimiz var. Türk İslam Birliyi tərzində.

Müsəlman aləminin dünyanın ən böyük super dövləti olacağını düşünürük. Türkiyənin liderliyində, Türkiyənin qardaşlığı ilə, bütün islam aləmini, bütün türk aləmini birləşdirərək. Türk aləminin hamısı

müsəlmanlardan ibarətdir, mən başa düşülsün deyə deyirəm. Yəni əslində bu eyni zamanda İslam Birliyi olmuş olur. Bu birlik içərisində bərəkət, bolluq və hüzur olacağına inanırıq. Müharibələrin bitəcəyini, müharibələrə çəkilən xərcin yerinə insanlara faydalı olan şeylərə pulların xərclənəcəyini düşünürük.

Bunun da vaxtının yaxın olduğuna inanırıq. Amma bizim əsl inancımız, Türk İslam Birliyinin meydana gəlməsində Axırzamanda zühur edəcək hz. Mehdinin (ə.s) vəsiləsi ilə bunların olacağına inanırıq. Və Hz. İsanın (ə.s) da zühur edəcəyinə və zühurunun yaxın olduğuna inanırıq.

Hz. İsanın (ə.s) enişinin Quranda ifadə edildiyinə inanırıq. hz. İsa (ə.s) ilə hz. Mehdinin (ə.s) birləşərək dünyada tək islam dininin qalacağı şəkildə bərəkət və bolluq dolu gözəl bir dövr yaradacağına inanırıq*. (Bağdat TV reportajından, 2 mart 2008)*

# TƏVAZÖKARLIQ VƏ TƏKƏBBÜR

Əvvəlki bölmədə həmrəylik mövzusunda toxunduğumuz xüsusiyyət olan təvazökarlıq Quranda ən çox vurğulanan mövzulardan biridir. Ayələrdə bildirildiyi kimi, təvazökar olmaq imanın xüsusiyyətidir; buna qarşı təkəbbür yalnız kafirlərə məxsus davranışdır.

Təvazökarlığın imanla, təkəbbürün isə inkarla eyni olmasının səbəbi budur ki, iman ağıl, inkar isə ağılsızlıq gətirir. İmanlı və ağıllı insan təkəbbürlü ola bilməz. Çünki sahib olduğu ağılla Allahın açıq-aşkar varlığını və üstün gücünü dərk edir, Onun hər şeyi idarə etdiyini anlayır. Eyni zamanda özünü də Allahın yaratdığını, Allahın onu yaşatdığını, ona nemətlər verdiyini və aciz bir bəndə olduğunu anlayır.

Ağıllı insan hər şeydə Allahın gücünü və öz acizliyini görər. İnsan acizdir; acıyır, yuxusu gəlir, təmizlənmək məcburiyyətindədir, xəstələnir, əziyyət çəkir, qocalır. İnsan bunların heç birinin qarşısını ala bilmir. Nə dünyaya gəlməsinin qarşısını ala bilir, nə də ölümünün qarşısını ala bilir.

İnsan, Allahın təyin etdiyi taleyə, Allahın təyin etdiyi müddətdə Allahın verdiyi aciz və zəif bir bədəndə yaşayacaq, sonra torpağa basdırılaraq Ona dönəcək. Öyünəcək və ya təkəbbür göstərəcək heç nəyi yoxdur. Sahib olduğu bəzi gözəl xüsusiyyətləri də Allah ona vermişdir. İnsan təkəbbürlü olmaqdan deyil, şükür etməkdən məsuldur.

Allah qarşısında hiss etdiyi bu acizlik bütün hərəkətlərində əks olunur. Bu acizlik, təbii ki, başqalarının qarşısında yazıq kimi davranmaq demək deyil. İnsan acizliyini ancaq Allaha bildirər və Ona göstərər. Digər insanların yanında ləyaqətli, yetkin, təvazökar, rahat və imanlı münasibət göstərər.

İnkarçılar isə ağılsızlığından qaynaqlanan boş qürur və təkəbbürlə doludurlar. Allahı layiqincə təqdir etmədiklərinə görə, axmaqca özlərini Allahdan asılı olmayan varlıqlar zənn edirlər. Onlar öz acizliklərini görmürlər və bunu qəbul etmək istəmirlər.

Bacardıqları qədər özlərini tərifləməyə, ucaltmağa çalışırlar. Sahib olduqları bəzi müsbət xüsusiyyətlərin (ağıl, şöhrət, zənginlik, gözəllik kimi) həqiqi sahibi olduqlarını düşünürlər; halbuki onlara bu xüsusiyyətləri Allah vermiş və istədiyi zaman geri ala bilər. İnkarçılar sahib olduqları xüsusiyyətlərlə öyünürlərsə, sahib olmadıqları şeylərə görə də kompleksə qapılarlar.

Allaha təslim olmaq, Allaha təvəkkül etmək, razılıq kimi anlayışlardan xəbərsiz olduqları üçün həmişə ya zəiflik, ya da təkəbbür kompleksi içərisindədirlər. Quranda bu cür insanların vəziyyəti belə bildirilir:

**Şübhəsiz ki, özlərinə heç bir dəlil gəlmədiyi halda Allahın ayələri barəsində mübahisə edənlərin qəlbində təkəbbürdən başqa bir şey yoxdur. Onlar buna əsla çata bilməyəcəklər. Ona görə də Allaha sığın! Həqiqətən, O, hər şeyi eşidəndir, görəndir. (Mömin surəsi, 56)**

Bu mövqedə olan insan nəfsini öz gözündə o qədər böyüdür ki, başqa heç nə görə bilmir. Dünyadakı hər şeyi öz eqoist mənliyini təmin etmək üçün bir vasitə kimi qəbul edir. Daim özünü tərifləməyə çalışır. Acizliyini və ya səhv edə biləcəyini heç vaxt qəbul etməz. Bu axmaqlığına görə də cahilcə dinə nifrət etməyə başlayar.

Çünki din əxlaqının ilk gətirdiyi şeylərdən biri də insanın aciz bir bəndə olduğu həqiqətidir. Böyüklük hissinə qapıldığına görə səhv dünyagörüşündən əl çəkib dinin göstərdiyi həqiqətlərin doğru olduğunu dərk etsə belə, qəbul etməz. Quranda bu cür ağılsızlıq edən insanlar belə təsvir edilmişdir:

**Daxilən buna əmin olduqları halda, zülm və təkəbbürləri səbəbilə onları inkar etdilər. Fitnə-fəsad törədənlərin aqibətinin necə olduğuna bir bax! (Nəml surəsi, 14)**

Öz təkəbbürlərində boğulan və öz nəfsləri üçün hər şeyi qurban verməyə hazır olan bu insanlar "yer üzündə fitnə-fəsadın" əsl cavabdehləridir. Allah ayələrdə bu insanların vəziyyətini belə bildirir:

**İnsanlardan eləsi də var ki, onun dünya həyatı haqqındakı sözləri sənin xoşuna gələr. O, qəlbində olana da Allahı şahid göstərər. Halbuki o, düşmənlərin ən qatısıdır. (O, səndən) ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli məhv etməyə çalışar. Allah fitnə-fəsadı sevməz. Ona: "Allahdan qorx!" – deyildikdə**

**lovğalıq onu günaha vadar edər. Ona cəhənnəm kifayətdir. Ora nə pis məskəndir! (Bəqərə surəsi, 204-206)**

Başqa bir ayədə isə böyük cahillik səbəbindən dinə qarşı təkəbbür göstərənlərin vəziyyəti belə bildirilir:

**O, özünə oxunan Allahın ayələrini eşidir, sonra da onları eşitmirmiş kimi təkəbbürlənərək (küfrdə) israr edir. Buna görə də ona acı bir əzabla müjdə ver! (Casiyə surəsi, 8)**

İnsanın vicdanının qəbul etdiyi bir həqiqəti təkəbbürlə rədd etməsi, şəxsin inkarı ilə imanı arasındakı dərin uçurumda təkəbbürlənmənin nə qədər ağılsız olduğunu göstərir. İnsanın dünya həyatını və əbədi axirət həyatını bir anda əzab və hüznlə boğacaq, həmişə narahat həyat sürməsinə səbəb olacaq və cəhənnəmlə bitəcək bir seçimi insana yalnız təkəbbürlənmə hissi yaşada bilər. Ona görə də insanın ən böyük düşmənlərindən biri təkəbbürdür, yəni eqoizmdir.

Şeytanın Allaha qarşı azğınlıq və üsyanının arxasında təkəbbürü dayanır. Quranda şeytanın azğınlığı ilə bağlı geniş şəkildə bəhs edilən hekayə belədir:

**Bir zaman Rəbbin mələklərə belə demişdi: "Mən palçıqdan bir insan yaradacağam. Onu insan surətinə salıb ona Öz ruhumdan üfürdüyüm zaman dərhal ona səcdə edin!" Buna görə də mələklərin hamısı birlikdə (Adəmə) səcdə etdilər. İblisdən başqa! O təkəbbürləndi və inkar edənlərdən oldu. Allah dedi: "Ey İblis! Əllərimlə yaratdığıma səcdə etməyinə mane olan nədir? Sən təkəbbürləndin, yoxsa üstün olanlardansan?" İblis: "Mən ondan daha üstünəm. Məni oddan, onu isə palçıqdan yaratmısan!" - dedi. Allah buyurdu: "Elə isə çıx oradan! Çünki sən qovulmuşsan. Şübhəsiz, qiyamət gününə qədər Mənim lənətim sənədir!" (Sad surəsi, 71-78)**

Ayələrdə bəhs edilən şeytanın sözləri son dərəcə mənalıdır və tamamilə alçaq və kompleksli ruhi vəziyyəti əks etdirir. Şeytan özünün üstün xüsusiyyətlərə malik olduğu yalanına qapılmış və böyük ağılsızlıqla özünü hz. Adəmdən üstün görməyə başlamışdı. Halbuki, istədiyini ucaldan, istədiyini də alçaldan Allahdır. Allah nə əmr etdisə o da edilər. Heç bir varlıq öz sadə məntiqi ilə Allahın əmrinə qarşı çıxa bilməz. Şeytan bu ağılsızlığı etməyə cəhd etmiş və buna görə əbədi olaraq lənətlənmişdir.

Şeytanın azğınlığı buna misaldır. Onun yolu ilə gedən insanlar da eyni şəkildə azarlar. Buna görə də şeytanın azğın ruh halının Quran ayələrinə əsaslanaraq qiymətləndirilməsi insanların da necə azdıqları haqqında yol göstərəcək. Bu qiymətləndirməni aşağıdakı kimi sıralaya bilərik:

Şeytan, ağılsızdır, Allaha üsyan edir və yanında özü ilə birlikdə üsyan edən başqa varlıqların da olmasını istəyir. Bu vəziyyət Hicr surəsində belə açıqlanır:

**Allah dedi: "Ey İblis! Sənə nə oldu ki, səcdə edənlərlə birlikdə olmadın?" (İblis) dedi: "Mən uzun müddət qalan (rəngi və qoxusu dəyişmiş) quru palçıqdan yaratdığın bir bəşərə səcdə edən deyiləm!" Allah dedi: "Elə isə oradan çıx! Çünki sən qovulmusan. Şübhəsiz, axirət gününə qədər sənə lənət olacaqdır". (İblis) dedi: "Ey Rəbbim, elə isə (insanların) dirildiləcəkləri günə qədər mənə möhlət ver!" Allah dedi: "Sən möhlət verilənlərdənsən; O məlum günə qədər!" (İblis) dedi: "Ey Rəbbim! Sən Məni azdırdığına görə mən də mütləq onlara yer üzündə (pis əməlləri) gözəl göstərəcək və onların hamısını azdıracağam." (Hicr surəsi, 32-39)**

Şeytanın özü ilə bərabər bir çox insanın da yolunu azmasını istəməsi bir növ psixoloji məmnuniyyətdir və eyni vəziyyət bəzi insanlarda da görülür. Günah edən insanlar başqalarının da eyni günahı etməsini istəyirlər. Bu, cəzanın ümumi olaraq hesablanıb, şiddətinin daha az olacağına dair cahil düşüncədən irəli gəlir.

Dini ağılsızca inkar edənlərin, Allahın əmrlərini tanımayanların və ya açıq-aşkar inkar edənlərin əsas təsəllisi, onlar kimi bir çox insanların da azğınlığa düşməsidir. "Hamı mənim kimi eyni şeyi edir" və ya "Bu qədər insan

cəhənnəmə gedəcəksə, mən də gedərəm" kimi ağılsız ifadələrin arxasındakı məntiq səhv məntiqdir.

Şeytan Allahı tanıyır, Onun varlığını və qüdrətini qəbul edir, lakin onun özünəməxsus xüsusiyyəti var və üstün olduğu yalanına qapılır. Bu ağılsızlığına görə özü üçün müəyyən imtiyazlar və üstünlüklər gözləyir.

Şeytana hz. Adəmə səcdə əmri verilərkən yoldan çıxmasının səbəbi də budur. Bir çox insan eyni səbəblərə görə yoldan çıxır. Quranda bildirilən inkarçı modellərin əksəriyyəti Allahın varlığını qəbul edir, lakin bəzi üstün xüsusiyyətlərə malik olduqlarına inandıqları üçün müəyyən imtiyazlara layiq olduqlarını düşünürlər.

Əslində buna görə də, inkar edən bir çox insan özünü "Allahın sevimli qulu" hesab edir. Bu vəziyyət Quranda bildirilir. Məsələn, ayədə "Biz Allahın övladlarıyıq və sevimliləriyik" deyərək üstünlük iddia edən bəzi yəhudi və xristianlara belə cavab verilir:

**"...De: "Bəs nə üçün günahlarınıza görə O sizə əzab verir? Xeyr, siz də Onun yaratdığı bir bəşərsiniz. O, dilədiyini bağışlayar, dilədiyinə də əzab verər. Göylərin, yerin və onların arasındakıların hakimiyyəti Allaha məxsusdur. Axır dönüş də Onadır". (Maidə surəsi, 18)**

Bu imtiyaz və üstünlük hissi müxtəlif formalarda görünə bilər. İslam öyrədir ki, insan acizdir və Allahın ona bəxş etdiyindən başqa heç bir şeyi yoxdur. Bir çox insanı yoldan çıxaran isə bu həqiqəti qəbul edə bilməmələridir.

Şeytanın "Mən oddan yaradılmışam" deyiminin səhv məntiqi kimi, bir çox insanlar yaxşı ailədən gəlməsini, zəngin olmasını, yaraşıqlı və ya gözəl olmasını axmaqca özlərinə aid olduğunu hesab edir və buna görə də, israrla və cahilcəsinə təkəbbürünə davam edir. Rəbbimiz Quranda bu mövzuda müxtəlif misallar vermişdir. Məsələn, hz. Musanın qövmündən olan və böyük sərvət verilmiş Qarunun vəziyyəti ayədə belə bildirilir:

**Qarun Musanın qövmündən idi və onlara qarşı azğınlıq etmişdi. Biz ona elə xəzinələr vermişdik ki, onun açarlarını daşımaq güclü adamlardan ibarət bir dəstəyə belə ağır gəlirdi. O zaman qövmü ona**

**belə demişdi: “Qürrələnmə! Şübhəsiz ki, Allah qürrələnənləri sevməz. Allahın sənə verdikləri ilə (Allah yolunda infaq edərək) axirət yurdunu istə! Dünyadakı nəsibini də unutma! Allahın sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et və yer üzündə fitnə-fəsad törətməyi düşünmə! Şübhəsiz ki, Allah fitnə-fəsad törədənləri sevməz”. Qarun dedi: “Bu sərvət mənə elmimə görə verilmişdir”. O, Allahın əvvəlki nəsillər içində ondan daha güclü və varlı kimsələri belə məhv etdiyini bilmirdimi?! Günahkarlardan günahları soruşulmaz. Beləliklə, (Qarun) öz ehtişamı ilə qövmünün qarşısına çıxdı. Dünya həyatını arzulayanlar: “Kaş Qaruna verilənlərin eynisi bizə də veriləydi. O, çox bəxtəvərdir”, - dedilər. Elm sahibi olanlar isə: “Vay halınıza! İman edib yaxşı işlər görən kimsə üçün Allahın mükafatı daha xeyirlidir. Buna yalnız səbir edənlər qovuşa bilər”, - dedilər. Nəhayət, onu evi ilə birlikdə yerə batırdıq. Nə Allahdan başqa ona yardım edən adamları var idi, nə də o, özünü müdafiə edə bildi. Dünən onun yerində olmağı arzulayanlar belə deməyə başladılar: “Deməli, Allah bəndələrindən dilədiyinin ruzisini artırır, dilədiyinin ruzisini də azaldırmış. Əgər Allah bizə lütf etməsəydi, həqiqətən, bizi də yerə batıracaqdı. Deməli, inkar edənlər nicat tapa bilməzlər”. Biz axirət yurdunu (cənnəti) yer üzündə təkəbbürlənmək və fitnə-fəsad törətmək istəməyənlərə veririk. Gözəl aqibət təqva sahiblərinindir. (Qəsas surəsi, 76-83)**

Ayələrdən də anlaşıldığı kimi Qarun və onun təmsil etdiyi insan modeli səhv məntiqi səbəbiylə verilən nemətlərin özünə məxsus bir xüsusiyyətin nəticəsi olduğunu zənn edərək bu nemətləri verənin Allah olduğunu unudub inkar etmiş. Ayədə bəhs edilən Qarunun “Bu, mənə malik olduğum elmimə görə verildi” ifadəsi bunu göstərir.

Bu cür səhv məntiqlə düşünən insan, ayədə bəhs edilən “harınlayaraq sevinmə” əxlaqsızlığını göstərər. Bəzi insanların uğur, var-dövlət və güc kimi müsbət hadisələrdən sonra başqa insanlara qarşı təkəbbürlü, hörmətsiz, aqressiv davranmasının səbəbi budur. Bayaq qeyd etdiyimiz kimi, bu cür insanlar da “Allahın sevimli bəndələri” vəsfinə qapılır və Allah qatında imtiyaz sahibi olduqları yalanını danışırlar. Halbuki Allah ayələrdə bu insanlar haqqında belə buyurur:

**İnsan xeyir istəməkdən bezməz. Ancaq ona bir pislik toxunarsa, o, dərhal məyus olub ümidsizliyə düşər. Əgər başına gələn müsibətdən sonra tərəfimizdən ona bir mərhəmət bəxş etsək, o: "Bu mənim haqqımdır, qiyamətin qopacağını da zənn etmirəm. Rəbbimin hüzuruna qaytarılsam belə, əlbəttə, Onun yanında mənim üçün ən gözəl nemətlər vardır", - deyəcəkdir. Həqiqətən, Biz inkar edənlərə etdikləri əməlləri xəbər verəcəyik və onlara çətin bir əzabı daddıracağıq. (Fussilət surəsi, 49-50)**

Başqa bir ayədə isə cahilcə özünü yüksək qiymətləndirən və Allah qatında özünü təmizə çıxarmağa çalışanların davranışı ilə bağlı belə bildirilir:

**Özlərini təmizə çıxaran kimsələri görmədinmi? Əksinə, Allah dilədiyi kimsəni təmizə çıxardar və onlara xurma çərdəyinin teli qədər belə haqsızlıq edilməz. (Nisa surəsi, 49)**

Bunun əksi olaraq əsl möminlər heç vaxt Allah qatında mütləq nicata çatacaqlarını, mütləq "cənnətlik" olacaqlarını düşünmürlər. Möminlərin duası **"qorxu və ümid"** (Səcdə surəsi, 16) arasındadır. Allaha **"bizi cəhənnəm əzabından qoru!"** (Bəqərə surəsi, 201); **"Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra qəlbimizə əyrilik salma"** (Ali İmran surəsi, 8); "**Bizi müsəlman olaraq öldür"** (Əraf surəsi, 126) şəklində dua edərlər.

Özünü mütləq cənnətlik olaraq görən adam isə, bunu yalnız təkəbbürünə görə edər. Halbuki təkəbbür, insanın qurtulmasını əngəlləyən əxlaqsızlıqlardan biridir; çünki bir ayədə, **"Allah özünü bəyənib qürrələnənləri sevməz.**" (Hədid surəsi, 23) şəklində bildirmişdir.

Quranda bir çox ayədə "təkəbbür"ün möminlərin qəti şəkildə çəkinməli əxlaq pozğunluğu olduğu bildirilir:

**Yer üzündə təkəbbürlənərək gəzmə! Şübhəsiz ki, sən nə yeri yara bilərsən, nə də ucalıq baxımından dağlara çata bilərsən. (İsra surəsi, 37)**

**Təkəbbürlə insanlardan üzünü çevirmə və yer üzündə lovğalanaraq gəzmə! Şübhəsiz ki, Allah özündən razı və özünü tərifləyən kimsələrin heç birini sevməz. (Loğman surəsi, 18)**

**(Allah bunları ona görə yazmışdır ki,) əlinizdən çıxanlara görə kədərlənməyəsiniz və Allahın sizə verdiklərinə görə sevinib qürrələnməyəsiniz. Allah özünü bəyənib qürrələnənləri sevməz. (Hədid surəsi, 23)**

**Allaha ibadət edin və heç bir şeyi Ona şərik qoşmayın! Ata-anaya, qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonşuya, yaxın dosta, yolda qalana və əlinizin altındakılara yaxşılıq edin! Şübhəsiz ki, Allah özündən razı halda lovğalıq edən kimsələri sevməz. (Nisa surəsi, 36)**

Allah möminlərə təvazökar olmağı əmr edir və təkəbbürlənənləri sevmədiyini bildirir. Bu, bir möminin təkəbbürlənməkdən uzaq olması üçün kifayətdir. Necə ki, Quran ayələrində, təvazökar olmağın ən əsas mömin xüsusiyyətlərindən biri olduğu belə xəbər verilir:

**...Sizin ilahınız tək olan ilahdır. Elə isə Ona təslim olun! (Ey elçi!) İxlaslı və təvazökar olanlara müjdə ver! (Həcc surəsi, 34)**

**Rəhmanın (xalis) bəndələri o kəslərdir ki, yer üzündə təvazökarlıqla yeriyər və cahillər onlara söz atdıqları zaman: "Salam!" - deyərlər. (Furqan surəsi, 63)**

**Biz axirət yurdunu (cənnəti) yer üzündə təkəbbürlənmək və fitnə-fəsad törətmək istəməyənlərə veririk. Gözəl aqibət təqva sahiblərinindir. (Qəsas surəsi, 83)**

**Bizim ayələrimizə yalnız bu ayələrlə öyüd verildiyi zaman təkəbbürlənmədən səcdəyə qapanan və Rəbbini həmd ilə təsbeh edənlər iman edərlər. (Səcdə surəsi, 15)**

Bir daha vurğulamaq lazımdır ki; bu son dərəcə vacib məsələdir. O qədər ki, insanın iman etməsi və ya inkar etməsi ilə təkəbbürlü yaxud təvazökar olması arasında çox yaxın əlaqə vardır. Allah, "yer üzündə təkəbbürlənənləri" ayələrindən uzaqlaşdıracağını belə bildirir:

**Yer üzündə haqsız yerə təkəbbürlənənləri ayələrimdən uzaqlaşdıracağam. Onlar hər cür möcüzəni görsələr də yenə ona inanmazlar. Doğru yolu görsələr, onu özləri üçün yol qəbul etməzlər. Ancaq azğınlıq yolunu görsələr, onu özləri üçün yol qəbul edərlər. Bu ona görədir ki, onlar ayələrimizi təkzib etdilər və onlardan qafil oldular. (Əraf surəsi, 146)**

Digər ayələrdə də, bütün keçmiş inkarçıların ortaq xüsusiyyətinin "təkəbbür" olduğu bildirilir. Bütün haqq yoldan azanlar təkəbbürlü olduqları üçün azmışlar.

**Xeyr (artıq dünyaya qayıda bilməzsən)! Ayələrim sənə gəlmişdi. Ancaq sən onları təkzib etdin, təkəbbürləndin və inkar edənlərdən oldun. (Zumər surəsi, 59)**

**Ona: "Allahdan qorx!" – deyildikdə lovğalıq onu günaha vadar edər. Ona cəhənnəm kifayətdir. Ora nə pis məskəndir! (Bəqərə surəsi, 206)**

**Şübhəsiz, Biz Musaya kitabı verdik. Ondan sonra da elçilər göndərdik. Məryəm oğlu İsaya açıq-aşkar möcüzələr bəxş etdik və onu müqəddəs ruhla (Cəbraillə) qüvvətləndirdik. Hər dəfə bir elçi qəlbinizə yatmayan bir şey gətirdikdə təkəbbürlənmədinizmi?!**

**Onların bir qismini təkzib etdiniz, bir qismini də öldürdünüz. (Bəqərə surəsi, 87)**

Quranın hökmünə görə, təkəbbürlənənlər yəni eqoist olan insanlar cəhənnəm əhlidir:

**Şübhəsiz ki, ayələrimizi təkzib edib təkəbbürlənərək onlardan üz çevirənlərə göyün qapıları açılmayacaq və onlar dəvə iynənin gözündən keçənə qədər cənnətə girə bilməyəcəklər. Biz günahkarları belə cəzalandırırıq. Onlar üçün cəhənnəm odundan döşəklər, üstlərində də (cəhənnəm odundan) yorğanlar vardır. Biz zalımları belə cəzalandırırıq. (Əraf surəsi, 40-41)**

**Ayələrimizi yalan sayıb təkəbbürlənərək onlardan üz çevirənlər isə cəhənnəm əhlidirlər. Onlar orada əbədi qalacaqlar. (Əraf surəsi, 36)**

Peyğəmbərlərə qarşı üsyan edənlər, onlara düşmənçilik edənlər həmişə təkəbbürlü insanlar olublar. Quranda "qövmün başçıları", "təkəbbürlənənlər" kimi sifətlərlə vəsf edilən bu insanlar qürur və təkəbbürləri səbəbindən böyük ağılsızlıq göstərmiş, peyğəmbərə itaət etməkdən boyun qaçırmışlar. Başqa bir insan tərəfindən doğru yola yönəldilməsini rədd etmişlər. Buna görə də, öz azğınlıqları içində boğuldular. Quranda qövm başçılarının təkəbbürlü olduqlarına görə kafir olduqları belə bildirilir:

**Qövmünün təkəbbürlü başçıları, özlərindən olan iman etmiş zəif kimsələrə belə dedilər: "Siz Salehin (həqiqətən) Rəbbi tərəfindən göndərilmiş bir elçi olduğunu bilirsinizmi?!" Onlar: "Biz onunla göndərilənə inanırıq!" - dedilər. Təkəbbürlənənlər: "Biz sizin inandığınızı inkar edirik", - dedilər. (Əraf surəsi, 75-76)**

**Şüeybin qövmündən olan təkəbbürlü başçılar: "Ey Şüeyb! Səni və səninlə birlikdə iman edənləri mütləq məmləkətimizdən**

**çıxaracağıq, ya da siz bizim dinimizə dönəcəksiniz!" - dedilər. (Şüeyb) dedi: "Biz (bunu) istəməsək belə?!" (Əraf surəsi, 88)**

Bu inkarçı başçılar, sahib olduqları imkanlara görə (maddi sərvət, zadəganlıq, şöhrət, ictimai mövqe kimi) təkəbbürlənib və bu imkanlara sahib olmayan birinin peyğəmbər ola biləcəyini qəbul etmirdilər. Buna görə də, onlar ağılsızca Allahın seçdiyi şəxsə üsyan etdilər və Onun hökmünə qarşı çıxdılar. Qurani-Kərimdə İsrailoğullarından olan bəzi kəslərin, onlara "imam" olaraq təyin edilən hz. Taluta qarşı təkəbbürlənərək ağılsızca etiraz etdikləri nümunə verilərək belə buyurulur:

**Elçiləri onlara dedi: "Allah Talutu sizə hökmdar göndərdi". Onlar belə dedilər: "O bizə necə hökmdar ola bilər? Axı, biz hökmdarlığa ondan daha layiqik. Ona çoxlu mal-mülk də verilməyib". O (elçi) dedi: "Həqiqətən, Allah sizin üçün onu seçdi, elm və bədəncə gücləndirdi. Allah Öz hökmranlığını dilədiyinə verər. Allah (lütfü ilə) genişdir, hər şeyi biləndir!" (Bəqərə surəsi, 247)**

Eyni şəkildə, qövmünün əyanları, Peyğəmbərimizin risalətinə də böyük cahilliklə qarşı çıxmış və ayədə xəbər verildiyi kimi "**... "Bu Quran iki şəhərdən olan böyük bir adama nazil edilməli deyildimi?" – dedilər." (Zuxruf surəsi, 31)** İnkarçıların irəli sürdükləri bu axmaq məntiq, insanları yalnız maddi zənginliyi və ya şöhrətləri ilə qiymətləndirmələrindən qaynaqlanır. Ayədə xəbər verildiyi kimi, əgər Rəsul, "iki şəhərdən birinin böyük adamı" olsa, ona itaət etməyi bəlkə də qəbul edəcəklər. Ancaq bir insana, yalnız Allah onu seçdiyinə görə itaət etmək təkəbbürlərinə ağır gəlir.

Səmud qövmünün əyanları da onlara peyğəmbər göndərilən hz. Salehə eyni səhv məntiqlə qarşı çıxmışlar:

**Onlar demişdilər: "Özümüzdən olan bir insanamı tabe olacağıq? O zaman biz azğınlığa düşmüş və çılğınlıq etmiş olarıq. Aramızdan onamı vəhy gəldi? Xeyr! O, lovğa bir yalançıdır". (Qamər surəsi, 24-25)**

“Müddəssir” surəsində təkəbbürün insanları necə azdırdığına dair son dərəcə mühüm izahlar vardır. Ayələrdə Allahın çoxlu nemətlər verdiyi şəxsdən bəhs edilir. Ancaq bu adama Quran oxunan zaman eqoistləşir. O, Allahın kəlamını dinləyib anlayır, lakin ona tabe olmaq qüruruna çox ağır gəlir. Ona görə də inkar edir. Bu adamın sonu cəhənnəmdir; təkəbbürünün nəticəsi olaraq əbədi əzaba düçar olacaq. Ayədə belə buyurulur:

**Yaratdığım o kimsəni Mənə burax! Mən ona çoxlu mal-mülk verdim. Yanındakı övladlar verdim. Ona hər cür imkanlar verdim. Bundan sonra o, yenə də (bu imkanları) artırmağımı istəyir. Xeyr! Həqiqətən, o, ayələrimizə qarşı çox inadkardır. Mən onu sərt bir yoxuşa (çətin bir əzaba) sürükləyəcəyəm. Həqiqətən, o, fikirləşib qərar verdi. Canı çıxsın! Necə qərar verdi?! Qoy canı çıxsın! Necə qərar verdi?! Sonra baxdı. Sonra üz-gözünü turşudub qaşqabağını tökdü. Sonra da arxasını çevirib təkəbbürləndi. Və dedi: “Bu (Quran), yalnız öyrənilən bir sehrdir. Bu, insan sözündən başqa bir şey deyildir”. Mən onu Səqərə (cəhənnəmə) atacağam. Sən haradan biləcəksən ki, Səqər nədir? O, heç bir şeyi sağ-salamat buraxmaz. İnsanın dərisini yandırıb-yaxar.” (Müddəssir surəsi, 11-29)**

Başqa ayələrdə, Allaha qarşı təkəbbürlü birinin cəhənnəmdəki vəziyyəti bu cür təsvir edilir:

**(Allah cəhənnəm mələklərinə belə buyuracaq:) “Onu tutun və cəhənnəmin ortasına sürükləyin! Sonra başından qaynar su tökərək ona əzab verin!” (Duxan surəsi, 47-49)**

İnsan heç vaxt aciz, zəif varlıq olduğunu, Allahın bəndəsi olduğunu unutmamalıdır. Bunu unutmadığı təqdirdə Allahın ona verəcəyi nemətlərdən daha çox zövq alar. O nemətlərə sahib olmadığını, bu nemətlərin ona verildiyini anlayar və Allahın bu ikramına şükür edərək həqiqi ləzzəti tapar. Əgər verilən nemətlərə görə lovğalanmağa, qürurlanmağa başlayarsa, əvvəl o nemətdən aldığı ləzzəti, sonra da o nemətləri itirər.

Haqq dini yaşamaq, Allahın bəndəsi olduğunu dərk etməkdən irəli gəlir. Kim Allaha qulluq edərsə, Rəbbimiz o insana hər yolu açar. Bunun əksinə davranmaq isə hüsranla nəticələnər. Allaha qarşı təkəbbür göstərənlər, Qurani-Kərimdə buyurulduğu kimi, Allahın hüzuruna toplanacaq və cəzalandırılacaqlar: **"...Kim Allaha ibadət etməyi özünə ar bilib təkəbbürlük göstərərsə, O, onların hamısını Öz hüzuruna toplayacaqdır." (Nisa surəsi, 172).** Bunlarla bağlı Allah Quranda belə buyurur:

**Ayələrimizi yalan sayıb təkəbbürlənərək onlardan üz çevirənlər isə cəhənnəm əhlidirlər. Onlar orada əbədi qalacaqlar. (Əraf surəsi, 36)**

Allaha qarşı təkəbbür göstərməyən və Onun bəndələrinə qarşı təvazökarlıq edənlərin yeri cənnətdir:

**Kim yaxşı əməllə gələrsə, onun üçün bundan daha yaxşısı vardır. Kim də pis əməllə gələrsə, pis işlər görənlərə ancaq etdikləri əməllər qədər cəza verilər. (Qəsas surəsi, 84)**

# ALLAHA İNAM VƏ TƏSLİMİYYƏT

İmanın ən əhəmiyyətli bir neçə göstəricilərindən biri, insanın Allaha olan etibarı və təslimiyyətidir. Quranda "təvəkkül" olaraq bildirilən bu xüsusiyyət, həqiqətən də iman edən insanla iman etməyən arasındakı ən böyük fərqlərdən biridir.

İnkar edən insan üçün bütün dünya kabus kimidir. Özünün guya "təsadüfən" var olduğunu, ətrafındakı dünyanın da təsadüflər nəticəsində meydana gəldiyi yalanına inanır. Buna görə də, heç vaxt həqiqi güvən və hüzur tapa bilməz. Çünki hər an başına bir şey gələ bilər, onu üzəcək hadisələr ola bilər düşüncəsinə qapılır. Zamanının böyük hissəsini gələcəklə bağlı narahatlıqla keçirər.

Bu cür səhv məntiqə sahib olan insan onun xoşbəxtliyinə təsir edəcək yüzlərlə, hətta minlərlə bir-birindən müstəqil amil vardır və bunların hər hansı biri "təsadüfən" pisə doğru irəliləyib həyatını məhv edə bilər. Məsələn, sağlamlığını itirə, ya da işdən atıla bilər, sevdiyi bir insan ölə bilər. Hər hadisəni müstəqil və nəzarətsiz zənn etdiyi üçün hər birinə görə ayrı-ayrı narahatlıq keçirir. Bu, yüzlərlə müstəqil amili ağılsız şəkildə əldə etməsi mənasına gəlir (Allahı tənzih edirik). Çünki bir şeydən qorxmaq, yaxud ona güvənmək, Quranda xəbər verildiyi kimi, onu ilahlaşdırmaq deməkdir.

Ancaq mömin, dünyanın sirrini qavramışdır: Bu sirr, hər şeyin, hər maddənin, hər canlının, hər varlığın Allahın idarəsi altında olduğu və Onun izni və elmi xaricində heç bir şeyin reallaşmayacağı sirridir.

**"Elə bir canlı yoxdur ki, Allah onun kəkilindən tutmuş olmasın**" (Hud surəsi, 56), yaxud, **"Göylərdə və yerdə kim varsa, Ona aiddir və hamısı Ona boyun əymişdir** (Rum surəsi, 26), ayələrində xəbər verilən bu sirr, ancaq möminlərin sahib olduğu **"fərasətlə"** (Hicr surəsi, 75) aydın ola bilər.

Bu halda mömin hər şeyin Allahın yaratdığı taleyə uyğun baş verəcəyinə əmin olur. Həyatı boyu qarşılaşacağı hər hadisə onun taleyindədir və taleyini də Allah təyin etmişdir. Ona görə də, mömin üçün heç vaxt "pis" deyə hadisə ola bilməz. Bəzi şeylər pis görünsə də, əslində mömin üçün yaxşı nəticələr verəcəkdir. Əgər Allah mömininin qarşısına bir hadisə çıxarıbsa, onda mütləq bir xeyir vardır. Mömin pis görünən hadisələr qarşısında son dərəcə səbirli və əmin olmalıdır. İlk baxışda pis görünən o hadisəni Allah mütləq xeyirlə yaradar.

Çətin fikri mübarizədə, möminə ən böyük rahatlığı və hüzuru verən şey, məhz bu ruh halıdır. Qurana nəzər saldıqda bütün elçilərin və onlarla birlikdə olan möminlərin çox çətin hadisələrlə qarşılaşdıqlarını, zahirən çox "pis" vəziyyətlərdə olduqlarını görürük. Demək olar ki, hər bir mömin inkarçılar tərəfindən hücuma məruz qalmış, ölümlə təhdid edilmiş, əzab və işgəncələr görmüş, təhqirlərə məruz qalmış, bəziləri isə şəhid olmuşdur.

Ancaq Qurana nəzər saldıqda möminlərin bütün bu hücumlara qarşı son dərəcə inamlı və rahat olduqlarını görürük. Çünki Quranda bizə nümunə olaraq verilən bu möminlər hər hadisəni Allahın yaratdığını və buna görə də, hər hadisədə bir xeyir olduğunu bilərək hərəkət ediblər.

Allahın möminləri köməksiz qoymayacağına, möminləri dözə bilməyəcəkləri çətinliyə salmayacağına, çəkdikləri bəlaların mükafatını axirətdə verəcəyinə əmindirlər. Quranda yüzlərlə ayə Allaha təvəkkül və təslim olmağın vacibliyini bildirir. Bir ayədə belə buyurulur:

**De: "Allahın bizim üçün təqdir etdiyindən başqası bizə üz verməz. O, bizim himayədarımızdır (yardımçımızdır). Ona görə də möminlər Allaha təvəkkül etsinlər!" (Tövbə surəsi, 51)**

Quranda istifadə edilən "təvəkkül" sözü çox əhəmiyyətlidir. Təvəkkül etmək, "vəkil qəbul etmək" mənasına gəlir. Bu, xalq arasında məşhur olan təvəkkül anlayışından fərqlidir. Xalq arasında məşhur olan inanc, "əlindən gələn hər şeyi etmək, sonra da işi Allaha buraxmaq" şəklindədir. Halbuki "vəkil qəbul etmək" termini, o işi edənin və yaradanın Allah olduğunu, hər şeyi tamamilə Allahın təqdirinə buraxmaq mənasını verir.

Ancaq bu mövzunu səhv anlamamaq lazımdır: Hadisəni tamamilə Allaha buraxmaq, şəxs özünü hadisənin xaricində tutması demək deyil. Əksinə, mömin hadisələrin içinə girər, dini maraqlandıran hər cür məsuliyyəti üzərinə alar. Məhz təvəkkülün həqiqi mənası burada ortaya çıxır: Mömin, etdiyi hərəkətləri də əslində Allahın etdirdiyini, varlığının idarəsinin də, Allahın əlində olduğunu bilir və Onu vəkil qəbul edərək bir işə başlayır.

Quranda Peyğəmbərlərin bəzi duaları bu mövzunu anlamağımıza kömək edər. Nəml surəsinin 19-cu ayəsində, hz. Süleymanın, **"Süleyman onun sözünə gülümsəyib dedi: "Ey Rəbbim! Həm mənə, həm də ata-anama verdiyin nemətə görə şükür etməyim və Sənin razı qalacağın yaxşı işlər**

**görməyim üçün mənə güc ver! Öz mərhəmətinlə məni saleh bəndələrinin arasına daxil et!"** dediyi bildirilir. Bu dua, hz. Süleymanın öz hərəkətlərinin də Allahın idarəsində olduğunu bildiyini və Onun rizasına uyğun işlər görmək üçün Allahdan istədiyini göstərir.

Məhz təvəkkülün ardındakı məntiq də budur. Mömin, özü də daxil olmaqla bütün varlıqların Allahın nəzarətində olduğunu bilir və həm xarici dünyanı, həm də öz bədən və ruhunu Allaha əmanət edir, bunların idarəsi üçün Allahı vəkil tutur. Bu vəziyyətdə ortaya dünyanın ən qorxusuz, ən etibarlı, ən rahat, ən güclü insanı çıxar. Təvəkkülü yaşayan mömin, cəsur və əzmli, rahat və sakitdir. Quranda peyğəmbərlərin və möminlərin sahib olduqları təvəkkülün bir çox nümunəsi verilir. Hz. Nuh (ə.s), üstün əxlaqı və təvəkkülü ilə Quranda nümunə göstərilən peyğəmbərlərdən biridir:

**Onlara Nuhun xəbərini oxu! Vaxtilə o öz qövmünə demişdi: "Ey qövmüm! Əgər aranızda qalmağım və Allahın ayələrini xatırlatmağım sizə ağır gəlirsə, bilin ki, mən Allaha təvəkkül edirəm. Siz də şəriklərinizlə birlikdə işinizi qərarlaşdırın. Sonra işiniz başınıza dərd olmasın. Sonra haqqımda verdiyiniz hökmü icra edin və mənə heç möhlət də verməyin!" (Yunis surəsi, 71)**

Hz. Şueyb (ə.s) də eyni əxlaqı göstərmişdir:

**(Şueyb) dedi: "Ey qövmüm! Deyin görək, əgər mən Rəbbimdən gələn açıq-aşkar bir dəlilə əsaslanıramsa və Allah mənə Öz dərgahından gözəl bir ruzi veribsə, onda necə?! Mən sizə qadağan etdiyimin əksinə hərəkət etmək istəmirəm. Yalnız gücüm çatdığı qədər (sizi) islah etmək istəyirəm. Mənim müvəffəqiyyətim yalnız Allahdandır. Mən Ona təvəkkül etmişəm və Ona dönəcəyəm." (Hud surəsi, 88)**

Digər bir çox ayələrdə, möminlərin təvəkkül və səbri belə xəbər verilir:

(Ey elçi!) Əgər onlar (haqdan) üz döndərsələr, de ki: “Mənə Allah yetər! Ondan başqa heç bir ilah yoxdur. Mən Ona təvəkkül etmişəm. O, böyük ərşin sahibidir”. (Tövbə surəsi, 129)

Möminlər yalnız o kəslərdir ki, Allahın adı çəkildiyi zaman qəlbi titrəyər, onlara Allahın ayələri oxunduğu zaman bu, onların imanlarını artırar və yalnız Rəbbinə təvəkkül edərlər. (Ənfal surəsi, 2)

Göylərin və yerin qeybi Allaha məxsusdur. Bütün işlər Ona qaytarılacaqdır. Elə isə, yalnız Ona ibadət et və yalnız Ona təvəkkül et! Rəbbin sizin etdiklərinizdən qafil deyildir. (Hud surəsi, 123)

(Ey elçi!) Beləcə, səni özlərindən əvvəl neçə-neçə ümmətlərin gəlib keçdiyi bir ümmətə elçi göndərdik ki, sənə vəhy etdiyimizi (Quranı) onlara oxuyasan. Ancaq onlar Rəhmanı inkar edirlər. De ki: “O mənim Rəbbimdir. Ondan başqa heç bir ilah yoxdur. Mən Ona təvəkkül etmişəm. Tövbəm də Onadır!” (Rad surəsi, 30)

Elçiləri onlara dedilər: “Biz də sizin kimi bir insanıq. Lakin Allah nemətini (elçiliyi), Öz bəndələrindən dilədiyi kimsəyə bəxş edər. Allahın izni olmadan sizə bir dəlil (möcüzə) gətirə bilmərik. Möminlər Allaha təvəkkül etsinlər! Bizə yollarımızı (iman və qurtuluş yolunu) göstərdiyi halda nəyə görə Allaha təvəkkül etməməliyik?! Sizin bizə verdiyiniz əziyyətlərə mütləq səbir edəcəyik. Təvəkkül edənlər də Allaha təvəkkül etsinlər!” (İbrahim surəsi, 11-12)

De: “O, Rəhmandır (çox mərhəmətlidir)! Biz Ona iman etmiş və Ona təvəkkül etmişik. Kimin açıq-aydın bir azğınlıq içində olduğunu yaxın bir vaxtda biləcəksiniz.” (Mülk surəsi, 29)

Təvəkkül edən adam bilməlidir ki, o Allahı vəkil etmişdir və Allahdan başqa vəkil yoxdur. Buna görə də, təvəkkül etməklə ən doğru və ağıllı hərəkəti etmişdir. Allaha dua edib, Ona yönəlib, Ona təvəkkül etdikdən sonra narahat olacaq heç bir şey yoxdur. Allah, mütləq mömin üçün ən xeyirli nəticəni yaradacaq. Qurandakı, "**Allaha təvəkkül et; vəkil olaraq Allah yetər**" (Əhzab surəsi, 3) hökmü ilə Allah möminlərə bu zəmanəti verir. Başqa ayələrdə də belə buyurulur:

**"... Kim Allahdan qorxarsa, Allah onun üçün bir çıxış yolu yaradar. Və heç gözləmədiyi bir yerdən Allah ona ruzi yetirər. Kim Allaha təvəkkül edərsə, Allah ona yetər. Şübhəsiz ki, Allah istədiyini edəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur. (Talaq surəsi, 2-3)**

Heç kim, Allah diləmədikcə başqa birinə zərər verə bilməz. Heç kim, Allahın izni xaricində başqa birini öldürə bilməz; canı verən yalnız Allahdır. Buna görə də Allahdan başqa hər hansı bir varlıqdan qorxmağın mənası yoxdur. Quranda bu həqiqət tez-tez xatırladılır:

**Şübhəsiz ki, gizli danışıqlar şeytanın iman edənləri kədərləndirmək üçün etdiyi işlərdəndir. Ancaq o, Allahın izni olmadıqca onlara heç bir zərər verə bilməz. Möminlər yalnız Allaha təvəkkül etsinlər! (Mücadilə surəsi, 10)**

**İnkar edənlərə və münafiqlərə boyun əymə! Onların verdikləri əziyyətlərə əhəmiyyət vermə və Allaha təvəkkül et! Vəkil olaraq Allah yetər. (Əhzab surəsi, 48)**

**Onlardan: "Göyləri və yeri kim yaratmışdır?" - deyə soruşsan, onlar hökmən: "Allah!" - deyəcəklər. De ki: "Elə isə deyin görək, əgər Allah mənə bir zərər yetirmək istəsə, Allahdan başqa dua etdikləriniz Onun zərərini dəf edə bilərlərmi? Yaxud Allah mənə mərhəmət etmək istəsə, onlar Onun mərhəmətinə mane ola**

**bilərlərmi?" De: "Allah mənə yetər. Təvəkkül edənlər ancaq Ona təvəkkül edərlər!" (Zumər surəsi, 38)**

Allaha güvənən, Ona təslim olan, Ona təvəkkül edən insan, nəfsinin və şeytanın vəsvəsələrindən də qorunmuş olur. Quranda bu sirr, **"Əlbəttə, iman edib Rəbbinə təvəkkül edənlərin üzərində onun (şeytanın) heç bir hökmranlığı yoxdur."** (Nəhl surəsi, 99) hökmü ilə xəbər verilir. Allahın böyük nemətinə, yəni cənnətinə qovuşacaq olanlar təvəkkül edənlərdir:

**Sizə verilənlər dünya həyatının dolanacağıdır. Ancaq Allah yanındakı (mükafat) iman edib Rəbbinə təvəkkül edənlər üçün daha yaxşı və əbədidir. (Şura surəsi, 36)**

Əslində, Allahdan başqa güvənilən və yardımı gözlənilən heç bir varlıq yoxdur. Hz. Yaqubun (ə.s.) ayədə bəhs edilən **"...Hökm yalnız Allahındır. Mən Ona təvəkkül etmişəm. Qoy təvəkkül edənlər də yalnız Ona təvəkkül etsinlər!"** (Yusif surəsi, 67) ifadəsində olduğu kimi, vəkil olmağa laiq olan, Ona təvəkkül edənlərə kömək edən yalnız Allahdır. Allahdan başqa ilah olmadığı üçün Ondan başqa vəkil də yoxdur:

**Allahdan başqa heç bir ilah yoxdur! Ona görə də möminlər yalnız Allaha təvəkkül etsinlər! (Təğabun surəsi, 13)**

Bir başqa ayədə isə belə buyurulur:

**Ölümsüz və daim diri olan Allaha təvəkkül et və Onu həmd ilə təsbeh et! Onun, bəndələrinin günahlarından xəbərdar olması kifayətdir. (Furqan surəsi, 58)**

# BAĞIŞLANMA VƏ TÖVBƏ

Bəzi insanlar var ki, qüsursuz olmağa çalışırlar. Bacardıqları qədər özlərini mükəmməl insan kimi təqdim etməyə və görməyə çalışırlar. Çünki səhv etdiklərini etiraf etsələr, alçaldılacaqlarından qorxurlar. Onların fikrincə, ideal insan heç bir qüsuru olmayandır.

Halbuki haqqında bəhs etdiyimiz bu "nöqsansızlıq" axtarışı xurafatdan başqa bir şey deyil. Əslində Quranda belə bir mömin modeli bizə verilməmişdir. Belə bir modelin olması mümkün deyil. Çünki insan Allah qarşısındakı acizliyinin nəticəsində həyatı boyu çoxlu səhvlər və günahlar edə bilər. Təbii ki, bunlardan uzaq durmalı, Allahın dinini tətbiq edərkən səhv etməməyə, günaha yol verməməyə çalışmalıdır. Ancaq unutmamalıdır ki, o, Allahın aciz bir bəndəsidir və səhvlərdən tamamilə qaça bilməz.

Necə ki, bir ayədə, yer üzündəki hər insanın Allaha qarşı səhv və günah işləyə biləcəyi belə xəbər verilir:

**Əgər Allah insanları qazandıqları günahlarına görə (dərhal) cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin onları təyin edilmiş bir vaxta qədər təxirə salır. Onların vaxtı gəldiyi zaman (əməllərinin qarşılığını verəcəkdir)! Həqiqətən, Allah bəndələrini görür. (Fatir surəsi, 45)**

Bu İlahi hökmə uyğun olaraq, Allah Quranda insanların səhv və ya günah edə biləcəyini, lakin bunda israr etməmələrini bildirmişdir. Mömindən gözlənilənsə, etdiyi bütün səhv və günahlar üçün həmişə Allahdan bağışlanma diləməsidir.

Bu, kafirlərlə möminləri bir-birindən fərqləndirən ən mühüm xüsusiyyətlərdən biridir. İnkarçılar özlərini qüsursuz və günahsız hesab etməyə çalışırlar. Halbuki möminlərin belə bir iddiası yoxdur. Təbii ki, Allaha qarşı heç bir günah işləmək istəmirlər. Ancaq insan fitrətinə görə bəzən müvəqqəti olaraq nəfsinə tabe ola bilər, günah işləyə bilər. Allahın əmrlərini yerinə yetirməkdə laqeydlik göstərərək qəflətə düşə bilər. Amma sonunda bütün bunlardan peşman olub Allaha üz tutması və Rəbbimizdən bağışlanma diləməsi vacibdir.

Qurana nəzər saldıqda görürük ki, Allahdan bağışlanma diləmək möminin təbii və daimi xüsusiyyətidir. Bu da bizə bir daha göstərir ki, möminlər heç vaxt özlərini günahdan uzaq görmürlər, əksinə, nöqsan və çatışmazlıqları üçün daima Allahın rəhmətinə sığınırlar. Bir ayədə tövbə, möminin ən mühüm xüsusiyyətlərindən biri kimi qeyd edilir:

**Onlar tövbə edən, ibadət edən, şükür edən, oruc tutan, rüku və səcdə edən, yaxşı işləri əmr edib pis işləri qadağan edən və Allahın (halal-haram) hüdudlarını qoruyanlardır. Belə möminləri müjdələ! (Tövbə surəsi, 112)**

Həmçinin tövbə və bağışlama anlayışları arasındakı fərqə diqqət yetirmək lazımdır.

Allahın Quranda bizə göstərdiyi, Allahdan bağışlanma diləmək möminin həmişə etdiyi bir ibadətdir. İnsan bilərəkdən və ya bilməyərəkdən etdiyi bütün günahlar üçün səhər-axşam Allahdan bağışlanma diləyə bilər. Üstəlik, ayələrə əsasən, həm özü, həm də digər möminlər adına bağışlanma diləyə bilər.

Bağışlanma diləmək mənasını verən "istiğfar" sözünün ərəbcə tərcüməsi "Allahın Qafur sifətini istəmək"dir. Qafur sifəti "qafere" felindən törəmişdir, bu felin dilimizə tərcüməsi "bir şeyi gizlətmək, örtmək, qorumaq, düzəltmək və ya bükmək"dir.

Demək ki, Allahdan bağışlanma diləmək, insanın günahlarını örtməsi üçün Allaha yalvarması və bu məqsədlə Onun sonsuz şəfqət və rəhmətinə sığınması deməkdir. Necə ki, Quranda möminlərin Allaha, **"Ey Rəbbimiz! Günahlarımızı bağışla, pis əməllərimizin üstünü ört və canımızı yaxşılarla birlikdə al!"** (Ali-İmran surəsi, 193) şəklində yalvardıqları bildirilir. Buna cavab olaraq Allah belə hökm verir:

**"...Allah (onlara) demişdi: "Mən sizinləyəm. Əgər namazı qılsanız, zəkatı versəniz, elçilərimə iman edib onlara kömək etsəniz və Allaha gözəl bir borc versəniz əlbəttə, günahlarınızın üstünü örtər və sizi (ağacları) altından çaylar axan cənnətlərə daxil edərəm. Bundan**

**sonra sizdən kim küfrə düşərsə, doğru yoldan azmış olar". (Maidə surəsi, 12)**

Yuxarıda da, qeyd etdiyimiz kimi, insanın bildiyi və ya bilmədiyi bütün günahları üçün və digər möminlər üçün də bağışlanma diləmək olar. Tövbəni bağışlanmaqdan fərqləndirən ən mühüm fərq budur: İstiğfar, bağışlanmaq üçün edilən ümumi dua mahiyyəti daşıdığı halda, tövbədə, işlənmiş konkret günaha qarşı alınan feli münasibətdir.

Tövbə, insanın etdiyi müəyyən günaha görə Allahın rəhmətinə sığınıb, bir daha o günahı etməyəcəyinə dair Allaha söz verib, Ondan kömək istəməsidir. Sözün hərfi mənası "qayıtmaq" deməkdir. Odur ki, tövbə, qəti qərarla günahdan üz döndərmək, ondan peşman olub əl çəkmək deməkdir.

Tövbədə niyyət eyni günahı təkrar etməmək olmalıdır. Necə ki, Allah buyurur: **"Ey iman edənlər! Allaha səmimi-qəlbdən tövbə edin! Ola bilsin ki, Rəbbiniz sizin pisliklərinizin üstünü örtər və Allah elçisini və onunla birlikdə iman edənləri utandırmayacağı bir gündə sizi (ağacları) altından çaylar axan cənnətlərə daxil edər..."** (Təhrim surəsi, 8).

Ayədə tövbə etmək üçün istifadə edilən "nəsuh" ifadəsi nəsh edən, yəni ortadan götürən, unutduran mənasını verir. Buna görə də səmimi tövbə o günahı bir daha etməmək niyyəti ilə edilməlidir. Lakin bu o demək deyil ki, insan günaha görə yalnız bir dəfə tövbə etməlidir. İnsan etdiyi günaha görə tövbə edə bilər, sonra qəflətə qapılıb eyni günahı təkrar edə bilər.

Bu şəxs dəfələrlə etdiyi tövbəni pozmuş və eyni günahı təkrarlamış ola bilər. Amma yenə də Allah ona rəhmətini davam etdirər. Bu mərhəmətə görə insan dəfələrlə tövbəsini pozsa belə, son dəfə səmimi tövbə edib yenidən Ona sığına bilər. Bir ayədə Allahın bu sonsuz rəhməti və bağışlayıcı olması insanlara belə xəbər verilir:

**De: "Ey özlərinə qarşı həddi aşan bəndələrim, Allahın mərhəmətindən ümidinizi kəsməyin! Şübhəsiz, Allah bütün günahları bağışlayar. Həqiqətən, O, bağışlayandır, rəhmlidir. Sizə əzab gəlməmişdən əvvəl Rəbbinizə dönün və Ona təslim olun! Yoxsa sonra sizə yardım olunmaz. (Zumər surəsi, 53-54)**

Ancaq yuxarıdakı ayələrdən də aydın olduğu kimi, Allahın qəbul etməyəcəyi tövbə də vardır: Ölüm anı gəlib çatdığında, artıq ölüm mələklərini görəcək mərhələyə gəlmiş bir adamın səmimiyyətsiz şəkildə etdiyi yalvarışdır. Bir ayədə bu mövzu belə açıqlanır:

**Allahın qəbul etdiyi tövbə yalnız bilmədən pis iş görən, sonra da dərhal tövbə edənlərin tövbəsidir. Allah onların tövbəsini qəbul edər. Allah hər şeyi biləndir, hikmət sahibidir. Yoxsa günah işlər görməyə davam edib və nəhayət ölümü çatdığı zaman: "Mən indi tövbə etdim", - deyən kimsələrin və inkar edən olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Onlar üçün şiddətli bir əzab hazırlamışıq. (Nisa surəsi, 17-18)**

Quranda, Allahın qəbul etməyəcəyini bildirdiyi bu "son an tövbəsi"nin nümunəsi də verilir. Hz. Musa (ə.s) və yanındakı möminləri şəhid etmək üçün onların arxasınca gedən Firon dənizdə boğulmaq üzrə olduğu sırada tövbə etmək istəyir.

Quranda bildirildiyi üzrə, **"İsrail oğullarını dənizdən keçirtdik. Firon və əsgərləri zalımcasına və düşməncəsinə onları izlədilər. Nəhayət, Firon boğularkən dedi: "Mən İsrail oğullarının inandığı ilahdan başqa bir ilah olmadığına iman etdim. Mən də müsəlmanlardanam!"** (Yunis surəsi, 90) deyir. Ona verilən cavab ayədə belə xəbər verilir:

**İndimi (iman etdin)? Halbuki daha əvvəl (Allaha) üsyan etmişdin və fitnə-fəsad törədənlərdən idin. (Yunis surəsi, 91)**

Tövbə çox böyük və dəyərli bir ibadətdir. İnsanın əbədi nicatı üçün böyük əhəmiyyət kəsb edir, bunun üçün insan bu qapını sonuna qədər geniş açmalıdır. İnsan böyük günahlar işləmiş, böyük səhvlər etmiş, dinə uyğun olmayan həyat yaşamış ola bilər. Halbuki, Allah o qədər böyük mərhəmət sahibidir ki, insan bircə səmimi tövbə ilə axirətini xilas edə bilər. Bir ayədə Allahın tövbə yoluyla insanlara yaydığı sonsuz şəfqəti belə bildirilir:

**“Ayələrimizə iman edənlər sənin yanına gəldikləri zaman (onlara) de: “Sizə salam olsun! Rəbbiniz mərhəmətli olmağı Özünə vacib etdi. Odur ki, sizlərdən hər kim bilməyərək pis bir iş görərsə, sonra onun arxasınca tövbə edib özünü islah edərsə, bilsin ki, Allah bağışlayandır, rəhmlidir”. (Ənam surəsi, 54)**

Bilinməlidir ki, Allah hətta ən böyük günahları edən, Allaha və Onun elçisinə qarşı müharibə edən kafirləri və münafiqləri belə, əgər həqiqətən səmimi şəkildə Ona tövbə edərək haqq dinə dönsələr, onları bağışlayacağını belə bildirir:

**Şübhəsiz, münafiqlər cəhənnəmin ən alt təbəqəsindədirlər. Artıq onlar üçün heç bir yardımçı tapa bilməzsən. Ancaq tövbə edib özlərini islah edən, Allaha (Allahın dininə) sarılan və Allah üçün dinlərini (ibadətlərini) ixlasla yerinə yetirən kimsələr istisnadır. Onlar möminlərlə bərabərdirlər. Allah möminlərə böyük mükafat verəcəkdir. (Nisa surəsi, 145-146)**

**Kitabda insanlar üçün açıq-aydın dəlilləri və doğru yolu nazil edib bəyan etdikdən sonra onları gizlədənlərə Allah və (bütün) lənət edicilər lənət edərlər. Ancaq tövbə edib özlərini islah edənlər və (haqqı) bəyan edənlər bundan istisnadır. Çünki onların tövbələrini qəbul edərəm. Mən tövbələri qəbul edənəm, mərhəmətliyəm! (Bəqərə surəsi, 159-160)**

Bu hökmlər, tövbənin, Allahın bəndələri üçün açdığı böyük nicat qapısı olduğunu və hər bir insanın etdiyi günahdan ümidini kəsmədən Allaha yönəlməsinin lazım olduğunu göstərir. Ancaq bu vəziyyəti səhv izah etmək və qeyri-səmimi məntiqlə istifadə etmək böyük fəlakətə səbəb olar. Bu məntiq, dini çox yaxşı bildiyi halda, “sonra tövbə edərəm” deyərək bilərəkdən günah edənlərin azğın məntiqidir.

Allah bu cür səmimiyyətsizliyi heç vaxt bəyənməz. Bunu edən insanlar “iman etdikdən sonra kafir olub, sonra inkarını artıranlar” sinfinə daxil

edilirlər. Bunun nəticəsində də cəhalət, ya da iradəsizliyi səbəbiylə günah işləyən insanların tövbəsi qəbul olunduğu halda, bilə-bilə günah işləyən və tövbələri də "günah işləmə azadlığını təmin edən vasitə" sayan bu səmimiyyətsiz insanların tövbəsi qəbul olunmaz. Quranda bu həqiqət belə bildirilir

> **"İman etdikdən sonra inkar edən olub, sonra küfrlərini daha da artıranların tövbələri əsla qəbul olunmaz! Onlar (doğru yoldan) azanlardır. (Ali İmran surəsi, 90)**

Buradakı incəliyə diqqət yetirmək lazımdır: Əgər insan öz cahilliyi, nəfsi, qəfləti ucbatından günah etsə, lakin sonra etdiklərini dərk edib tövbə etsə, bu insan səmimi insan ola bilər. Və Allahın onu bağışlayacağına ümid edə bilər. Ancaq dini çox yaxşı bilən və günah işləyərkən "onsuz da sonra tövbə edəcəyəm" kimi səhv məntiqə sahib insanlar açıq-aşkar saxtakardırlar. Buna görə də onların tövbəsinin səmimi olması mümkün deyil. Allah bu tövbəni səmimi olmadığı üçün qəbul etməyə bilər (Doğrusunu Allah bilir).

Bu məqam son dərəcə əhəmiyyətlidir: Unudulmamalıdır ki, həm bağışlanma, həm də tövbə son dərəcə səmimi, peşmançılıq hissi ilə edilməlidir. Qurani-Kərimdəki **"Rəbbinizə yalvarıb yaxararaq və gizlicə dua edin!..."** (Əraf surəsi, 55) əmrində nəzərdə tutulan səmimi ruh halına, tövbə və bağışlanmağa da aiddir. Xüsusilə də, böyük günahlar üçün edilən tövbə dərin peşmanlıq hissi ilə edilməlidir. Quranda Peyğəmbərimizin dövründə, Allah yolunda döyüşə getməmək kimi böyük günah işləmiş üç müsəlmanın etdiyi bu cür tövbə belə təsvir edilmişdir:

> **Müsəlmanlardan bir qrupun qəlbi əyriliyə meyil etmək üzrə ikən elçinin və çətin vaxtda ona tabe olan mühacirlərlə ənsarın tövbəsini şübhəsiz ki, Allah qəbul etdi. Sonra da onları bağışladı. Həqiqətən, Allah onlara qarşı çox şəfqətli və mərhəmətlidir. (Döyüşə qatılmayıb) arxada qalan üç nəfəri də (Allah bağışladı). Nəhayət, yer üzü genişliyinə rəğmən onlara dar gəlib qəlbi sıxıldığı zaman Allahdan (Allahın əzabından) qorunmaq üçün yalnız Onun Özünə sığınmalı olduqlarını anladılar. Sonra Allah onları tövbə etməyə**

**müvəffəq etdi. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir. (Tövbə surəsi, 117-118)**

Allahdan bağışlanma diləmək və günahlara görə Ona tövbə etmək qulluğun ən təmiz ifadələrindəndir. Mömin günahlardan azad olmadığını bilər və bütün qüsurlarına qarşı Allahın rəhmətinə sığınar.

İnsan bilməlidir ki, Quranda bildirildiyi kimi, peyğəmbərlər də, səhvlər etmiş, ancaq səmimi qəlbdən tövbə etdikdən sonra mübarizələrini davam etdiklərini bilməli və Allahın əfvinə təvəkkül etməlidirlər. Quranda bağışlanma və tövbə etməyin ən böyük qurtuluş olduğu bu şəkildə ifadə edilir:

**Əgər Allahın sizə olan lütfü və mərhəməti olmasaydı (halınız necə olardı)?! Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, hikmət sahibidir. (Nur surəsi, 10)**

# DUA

İnsanın Allaha iman etdiyini göstərən mühüm əlamətlərdən biri də, duadır. Dua edən insan, aciz və zəif bəndə olduğunu, istəklərini təkbaşına yerinə yetirə bilməyəcəyini və yalnız Allahın ona verəcəyini qəbul etmiş olur. Dua, Allaha bəndə olmağın ən təmiz, ən saf və ən səmimi ifadələrindən biridir. Quranda möminlərin əsas xüsusiyyətlərindən birinin "səhər-axşam Allaha səbirlə dua etmək" olduğu bildirilir:

**Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona dua edənlərlə birlikdə (çətinliklərə qarşı) səbir et! Dünya həyatının zinətini istəyərək gözlərini onlardan çevirmə! Qəlbini Bizi anmaqdan qafil etdiyimiz, nəfsinin istəklərinə uyan və işində ifrata varan kimsəyə boyun əymə! (Kəhf surəsi, 28)**

Ancaq duanın nə demək olduğunu və necə edildiyini yaxşı bilmək lazımdır. Çünki bəzi cahil təfsirlər səbəbindən bəzi insanların dua anlayışı çox vaxt Quranda təsvir edilən dua anlayışına uyğun gəlmir. Buna görə də, Rəbbimizin Quranda bildirdiyi ruh halını yaxşı anlamaq lazımdır.

Dua, ürəkdən, Allah qarşısında acizliyini və möhtaclığını həqiqi mənada dərk edilərək edilməlidir. Bu halda edilən dua Quranda bildirildiyi kimi "yalvarıb-yaxararaq" edilməsi uyğun olar. Allah ayələrin birində belə buyurur:

**Rəbbinizə yalvarıb yaxararaq və gizlicə dua edin! Şübhəsiz ki, O, həddi aşanları sevməz. (Əraf surəsi, 55)**

Qurani-Kərimdə möminlərin duaları təsvir olunarkən, onların gizli və son dərəcə səmimi ruh halı ilə dua etdikləri bildirilir. Hz. Zəkəriyya bu mövzuda nümunə olaraq verilən peyğəmbərlərdəndir:

**(Bu,) Rəbbinin Zəkəriyyə bəndəsinə olan mərhəmətinin yad edilməsidir! Bir zaman o, astadan Rəbbinə səslənmişdi. Demişdi ki: "Ey Rəbbim! Sümüklərim zəifləyib, başım da ağappaq ağarıb. Ey**

**Rəbbim! Sənə etdiyim dua sayəsində heç vaxt bədbəxt olmamışam. Doğrusu mən özümdən sonra gələn qohumlarımdan qorxuram. Zövcəm də qısırdır. Ona görə də Öz tərəfindən mənə bir dost (oğul) ver! (Məryəm surəsi, 2-5)**

Bir başqa ayədə isə duanın "ümid və qorxu" içində edilməsi bildirilir: "**Onlar qorxu və ümid içində Rəbbinə dua etmək üçün yataqdan qalxar...**" (Səcdə surəsi, 16). Mömin, həm Allaha qarşı səmimi, hörmət dolu qorxu hissi duyar, həm də Onun rəhmət və nemətini ümid edər.

Allah, səmimi şəkildə, Onun rizasını istəyərək edilən duanı qəbul edər. Quranda, bu mövzuda bildirilən ayələr belədir:

**Bəndələrim Məni səndən soruşsalar, (de ki:) "Mən (onlara) yaxınam. Mənə dua etdiyi vaxt dua edənin duasını qəbul edərəm. Ona görə də dəvətimi qəbul edib Mənə iman etsinlər. Ola bilsin ki, onlar doğru yola yönələrlər". (Bəqərə surəsi, 186)**

**Rəbbiniz belə buyurdu: "Mənə dua edin ki, dualarınızı qəbul edim! Şübhəsiz ki, Mənə ibadət etməyi tərk edib təkəbbürlənənlər zəlil bir halda cəhənnəmə girəcəklər." (Mömin surəsi, 60)**

İnsan dua etdiyi zaman Allahın ona qarşılıq verəcəyinə əmin olmalıdır. Allahın hər şeyi əhatə etdiyini dərk edən və buna səmimi qəlbdən inanan bir mömin, Allahın onu hər an, hər tərəfdən gördüyünü və eşitdiyini bilərək dua edər. Mömin, bir an belə ümidini kəsmədən duasının qəbul olunmasını həvəslə gözləyir.

Allahın ədalətinə qəti şəkildə inandığı üçün səbirsiz və ümidsiz davranmaqdan çəkinər. Quran ayələrinin rəhbərliyi ilə davranan möminin duasının qarşılığını görməməsi ilə bağlı beynində zərrə qədər belə şübhəyə yer yoxdur.

Duanı, Allahın kömək etməsinə şəkk-şübhə etmədən və qəbul olacağına qəti inanaraq etmək lazımdır. Bunun əksini qəbul edən, yəni Allahın duasına qarşılıq verib-verməməsinə şübhə ilə yanaşan bir insan hər şeydən

əvvəl Quran əxlaqına uyğun olmayan əxlaq göstərmiş olur. Çünki duanın mahiyyəti qəti iman və ixlasla Allaha yönəlməkdir. Bir ayədə xəbər verilən hz. Salehin **"...Həqiqətən, mənim Rəbbim (bəndələrinə) yaxındır, (dualarını) qəbul edəndir".** (Hud surəsi, 61) sözləri ilə ifadə etdiyi kimi mömin, Allaha tam təvəkkül etməlidir.

Ancaq bu qarşılıq, mütləq insanın istədiyi şeyin eynilə reallaşacağı mənasına gəlməz. Çünki bəzən insan həqiqətdə özü üçün zərərli olan bir şeyi də Allahdan istəyə bilər. Bu vəziyyətdə Allah ona istədiyini vermək yerinə daha xeyirli və gözəl olan başqa şeyi verər.

Allah həmişə səmimi duaya qarşılıq verər. Ancaq bu qarşılıq, həmişə insanın tələbinin eynilə yerinə yetirilməsi demək deyil. Çünki insan, ayədə xəbər verilən **"...Bəlkə də xoşlanmadığınız bir şey sizin üçün xeyirli, xoşlandığınız bir şey isə sizin üçün zərərlidir. Allah bilir, ancaq siz bilməzsiniz.** (Bəqərə surəsi, 216) hökmə görə, nəyin yaxşı nəyin pis olduğunu həmişə ayırd edə bilməz. Və buna görə bilmədən, **"İnsan (özü üçün) xeyir istədiyi kimi, şər də istəyər."** (İsra surəsi, 11) ayəsinə görə həqiqətdə zərərli olan bir şeyi də istəmiş ola bilər.

Buna görə də, insan ilk növbədə Allahdan rizasını, rəhmətini istəməlidir. Allahdan onu elm verməsini, yetkinləşdirməsini istəməlidir. Bunun necə olacağını ən yaxşı Allah bilir. Belə ki, peyğəmbərlərin duaları da bu şəkildədir. Hz. Süleymanın **"...Sənin razı qalacağın yaxşı işlər görməyim üçün mənə güc ver!"** (Nəml surəsi, 19) şəklindəki duası nümunədir.

Bundan əlavə, mömin, Allahın Quranda təriflədiyi və hədəf olaraq göstərdiyi hər cür nemətləri Allahdan istəyə bilər. Bu mövzularda etdiyi dualarda son dərəcə səmimi olmalı, istədiyi hər şey üçün Allaha dua etməkdən çəkinməməlidir. Çünki insanların nə istədiklərini bilən və bu istəyi onlara istədən Allahdır.

Allah duaları qəbul edəndir. Möminlərin səmimi dualarını heç vaxt cavabsız qoymur. Allah bir çox peyğəmbərləri və saleh möminləri dualarına qarşılıq olaraq bəlalardan xilas etmiş və onlara bərəkət vermişdir:

**Əyyubu da (yada sal)! Bir zaman o, Rəbbinə: "Mənə zərər dəydi (başıma bəla gəldi). Sən mərhəmətlilərin ən mərhəmətlisisən!" - deyərək səslənmişdi. Beləliklə, Biz onun duasını qəbul edib dərgahımızdan bir mərhəmət və ibadət edənlər üçün bir xatirə**

**olsun deyə onun başına gəlmiş bütün bəlaları sovuşdurduq, ailəsini geri verdik və onlarla yanaşı bir o qədərini də ona bəxş etdik. İsmaili, İdrisi və Zülkifli də (yad et)! Hər biri səbir edən kimsələrdəndi. Biz onları mərhəmətimizə daxil etdik. Həqiqətən, onlar saleh kimsələrdən idilər. Zünnunu da (Yunisi də yad et)! Bir zaman o, qəzəbli bir halda çıxıb getmiş və ona gücümüzün çatmayacağını zənn etmişdi. Nəhayət, (balığın qarnında) qaranlıqda ikən o, belə səslənmişdi: "(Ey Rəbbim!) Səndən başqa heç bir ilah yoxdur. Sən pak və müqəddəssən! Həqiqətən, mən zalımlardan olmuşam." Biz də onun duasını qəbul etdik və onu bu kədərdən xilas etdik. Biz möminləri belə xilas edirik. Zəkəriyyanı da (yad et)! Vaxtilə o: "Ey Rəbbim, məni yalnız qoyma! Sən varislərin ən xeyirlisisən!" - deyərək Rəbbinə səslənmişdi. Onun duasını da qəbul etdik və ona Yəhyanı verdik. Zövcəsini də, onun üçün (uşaq doğmağa) qadir bir hala gətirdik. Onlar xeyirli işlər görməyə tələsir, ümid və qorxu içində Bizə dua edirdilər. Onlar Bizə qarşı çox itaətkar idilər. (Ənbiya surəsi, 83-90)**

Dua edən insan Allahın onu gördüyünü və eşitdiyini bilər, Ona olan hörmət və qorxusunu bildirər, Onun qarşısında qulluğunu açıq şəkildə qəbul etmiş olar. Ona görə də dua böyük ibadətdir. Dua, təkcə dua əsnasında istənən bir şey üçün deyil, bir ibadət olduğu üçün edilər. İnsanı duaya sövq edən hər hansı bir istək, bu ibadətin vaxtının yetişdiyinin göstəricisidir.

İnsanın istəkləri həmişə olduğu üçün duası da həmişə olmalıdır. İnsanın güclü konsentrasiya yaşayacağı müəyyən vaxtlar, məsələn, Quranda sübh namazından sonra duaya və gecə vaxtına diqqət çəkilir. Amma mömin gün boyu həmişə dua etməlidir. Hər iş, hər hadisə Allahın nəzarəti ilə inkişaf etdiyi üçün hər şeydə Allaha üz tutmaq, Ondan istəmək lazımdır.

Mömin hər hansı bir işi görərkən, gördüyü işdə müvəffəqiyyət əldə etmək və gördüyü işlə Allahın rizasını qazanmaq üçün dua edə bilər. Quranda hz. İbrahimin (ə.s) duası misal olaraq verilmişdir:

**Bir zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini ucaldırdılar (və belə dua edirdilər:) "Ey Rəbbimiz, bizdən (bunu) qəbul et! Şübhəsiz ki, Sən hər şeyi eşidənsən, bilənsən! (Bəqərə surəsi, 127)**

Mömin, "**Onlar ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar...**" (Ali İmran surəsi, 191) ayəsində bildirildiyi kimi, hər vəziyyətdə Allaha dua edə bilər. Necə ki, Quranda möminlərin bu xüsusiyyəti tez-tez təriflənərək izah edilir:

**Həqiqətən, İbrahim yumşaq qəlbli, Allaha çox yalvaran və özünü Ona həsr edən bir kəs idi. (Hud surəsi, 75)**

**Həqiqətən, İbrahim Allaha itaət edən və haqqa yönələn bir öndər idi. O, müşriklərdən də deyildi. (Nəhl surəsi, 120)**

**(Ey elçi!) Onların söylədiklərinə səbir et və güclü bəndəmiz Davudu xatırla! Həqiqətən, o, daim Allaha yönəlirdi. (Sad surəsi, 17)**

**...Biz onu səbir edən gördük. O nə gözəl bəndədir! Həqiqətən, o, daim Allaha yönəlirdi. (Sad surəsi, 44)**

Duanın əhəmiyyətini qavramaq üçün, aşağıdakı ayə əhəmiyyətlidir:

**De: "Əgər duanız (ibadətiniz) olmazsa, Rəbbim sizə nə üçün dəyər versin! (Ey inkar edənlər!) Siz (haqqı) təkzib etdiniz. Buna görə də (sizə əzab) vacib olacaqdır!" (Furqan surəsi, 77)**

Bu arada Quranda xəbər verilən başqa bir mühüm məqam da var. Quranda bildirildiyi kimi, Allahdan başqa ilah qəbul edənlər (müşriklər) bəzən Allaha dua edərlər. Lakin bu insanların duası ilə möminlərin duası arasında

böyük fərq var. Möminlər hər an və hər vəziyyətdə Allaha yönələrlər. Çətinlik və rahatlıq qarşısında davranışları dəyişmir.

Daim Allah qarşısında acizliklərini bilirlər və dua edirlər. Müşriklər isə həyatının böyük hissəsində Allahı unudub Ondan üz çevirmişlər. Allahdan başqa cahilcə ibadət etdikləri varlıqların arxasınca düşər və onlara yönələrlər. Ancaq böyük çətinlik və sıxıntı ilə qarşılaşdıqları zaman Allahı xatırlayar, Onun qarşısında acizliklərini qəbul edər və dua edərlər.

Onların sıxıntıda etdikləri bu dua səmimidir; ancaq çətinliklər keçdikdən sonra əvvəlki pis əxlaqlarına qayıdarlar. Allaha dua etdiklərini, Ondan kömək istədiklərini unudub nankorluq edərlər. Quranda, bu müşrik əxlaqın bir çox nümunəsi verilir:

**İnsana bir ziyan dəydiyi zaman uzanaraq və ya oturaraq, yaxud ayaq üstə Bizə dua edər. Ancaq onu ziyandan xilas etdiyimiz zaman özünə dəymiş ziyan üçün Bizə dua etməmiş kimi keçib gedər. Həddi aşanlara, etdikləri əməllər bu şəkildə gözəl göstərildi. (Yunis surəsi, 12)**

**Biz insana nemət verdiyimiz zaman o (Bizdən) üz döndərib (haqdan) uzaqlaşar. Ancaq ona bir pislik toxunduqda yalvarıb-yaxarar. (Fussilət surəsi, 51)**

**İnsana bir zərər toxunduğu zaman Rəbbinə yönələrək Ona dua edər. Sonra Allah Öz tərəfindən ona bir nemət versə, daha əvvəl dua etdiyini unudar və Allahın yolundan azdırmaq üçün Ona şəriklər qoşar. De: "Küfrünlə bir az kef çək. Şübhəsiz ki, sən cəhənnəm əhlindənsən!" (Zumər surəsi, 8)**

**İnsana bir zərər toxunduğu zaman Bizə yalvarar. Sonra tərəfimizdən ona bir nemət verildikdə: "Bu mənə yalnız elmimə görə verilmişdir!" - deyər. Əksinə, bu, bir sınaqdır. Ancaq onların çoxu bunu bilməz. (Zumər surəsi, 49)**

**İnsanlara bir zərər toxunduğu zaman Rəbbinə yönəlib Ona dua edərlər. Sonra Allah onlara Öz tərəfindən bir rəhmət daddıran kimi onlardan bir qrup yenə Rəbbinə şərik qoşar. (Rum surəsi, 33)**

Bəzi ayələrdə isə dənizdə çarəsiz qalmış insanların nümunəsi verilir: İnsanlar, batmaq üzrə olan gəmidə olduqları vaxt çox səmimi şəkildə dua edir, Allahdan bağışlanma və qurtuluş istəyirlər. Burada etdikləri dua səmimidir, çünki Allahdan başqa ibadət etdikləri hər hansı bir varlığın (məsələn ailələri, qövmləri, liderləri və s.) onları xilas edə bilməyəcəyini anlamış və yalnız Allaha yönəlmişlər. Ancaq Allah onları boğulmaqdan xilas edib quruya çıxartdıqda dərhal yenidən müşrik əxlaqı göstərərək Allahı unudurlar. Quranda onların bu davranışı belə bildirilir:

**Sizi quruda və dənizdə yeridən Odur. Siz gəmidə olduğunuz zaman və xoş bir külək vasitəsilə gəmilər içindəkiləri apararkən onlar sevindikləri bir vaxtda şiddətli bir qasırğa gəlib dalğalar hər tərəfdən onların üzərinə hücum etdikdə və hər tərəfdən əhatə edildiklərini anladıqlarında: "Əgər bizi bundan xilas etsən, mütləq şükür edənlərdən olacağıq!" - deyə sırf Allaha dua edərlər. Ancaq onları xilas etdiyi zaman bir də görərsən ki, onlar yer üzündə haqsız yerə azğınlıq edirlər. Ey insanlar! Dünya həyatının fani zövqü olan azğınlığınız yalnız öz əleyhinizədir. Sonra dönüşünüz Bizədir. Biz də etdiyiniz əməlləri sizə xəbər verəcəyik. (Yunis surəsi, 22-23)**

**Dağlar kimi dalğalar onları bürüdüyü zaman onlar dini Allaha məxsus edərək Ona dua edərlər. Ancaq Allah onları quruya çıxartdığı zaman onlardan bir qismi orta yolu (haqq yolu) tutar. Bizim ayələrimizi yalnız nankorlar və xainlər inkar edər. (Loğman surəsi, 32)**

**De: "Qurunun və dənizin qaranlıqlarından (təhlükələrindən) sizi kim xilas edir?" O zaman siz gizli-gizli yalvararaq: "Əgər bizi bundan xilas etsən, mütləq (Sənə) şükür edənlərdən olacağıq!" – deyə dua**

**edirdiniz. De: "Allah sizi ondan da, hər cür çətinlikdən də xilas edər. Sonra siz (yenə Ona) şərik qoşursunuz?" (Ənam surəsi, 63-64)**

Halbuki möminlər hər mühitdə dua edər, Allahdan başqa dost və köməkçi olmadığını qavrayaraq Allaha güvənər:

**İnkar edənlərin xoşuna gəlməsə də, dini yalnız Allaha məxsus edərək Ona dua edin! (Mömin surəsi, 14)**

**De: "Mən yalnız Rəbbimə dua edirəm və heç kimi Ona şərik qoşmuram". (Cin surəsi, 20)**

Mömin dua edib Allahdan kömək diləyəndə həqiqi xoşbəxtlik və rahatlıq tapır. Öz gücünün heç bir şeyə çatmadığını, ancaq hər şeyə sahib olan Rəbbimizin onu qoruduğunu və nəzarət etdiyini hiss edər. Bu, insan üçün ən böyük xoşbəxtlikdir. Buna görə də dua bir zövqdür və cənnətdə də olacaq. Möminlərin cənnətdə də dua etdikləri Quranda belə bildirilir:

**Şübhəsiz ki, iman edib yaxşı işlər görənləri, iman etdiklərinə görə Rəbbi doğru yola yönəldər. Nemətlərlə dolu cənnətlərdə onların altından çaylar axar. Onların oradakı duası: "Ey Allahım, Sən pak və müqəddəssən!", salamlaşmaları: "Salam!", dualarının sonu isə: "Həmd, aləmlərin Rəbbi olan Allaha məxsusudur!" sözləridir. (Yunis surəsi, 9-10)**

# QURANDA ALLAHIN BİLDİRDİYİ DUALAR

♦ Rəhman və Rəhim olan Allahın adı ilə! Həmd olsun aləmlərin (insan, cin və mələklər aləminin) Rəbbi olan Allaha, Rəhman və Rəhim olana, Din (axirət) gününün sahibinə! Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik. Bizi doğru yola yönəlt! Nemət bəxş etdiyin kəslərin yoluna (yönəlt), qəzəbə düçar olmuşların və azmışların yoluna yox! (Fatihə surəsi, 1-7)

♦ O zaman İbrahim demişdi: "Ey Rəbbim, buranı təhlükəsiz bir şəhər et! Əhalisindən Allaha və axirət gününə inananlara (hər növ) məhsullardan ruzi ver!" Allah dedi: "İnkar edənləri (dünya nemətlərindən) bir qədər faydalandırar, sonra da cəhənnəm əzabına düçar edərəm. Ora nə pis dönüş yeridir!" (Bəqərə surəsi, 126)

♦ Bir zaman İbrahim və İsmail evin (Kəbənin) bünövrəsini ucaldırdılar (və belə dua edirdilər:) "Ey Rəbbimiz, bizdən (bunu) qəbul et! Şübhəsiz ki, Sən hər şeyi eşidənsən, biləns ən!" (Bəqərə surəsi, 127)

♦ "Ey Rəbbimiz! Bizi Sənə təslim olanlardan et və nəslimizdən də Sənə təslim olan bir ümmət çıxart! Bizə (həcc üçün) ibadət qaydalarını göstər və tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən, mərhəmətlisən. Ey Rəbbimiz! Onların içərisindən özlərinə Sənin ayələrini oxuyan, onlara kitabı və hikməti öyrədən və onları (günahlardan) təmizləyən bir elçi göndər! Şübhəsiz ki, Sən qüdrətlisən, hikmət sahibisən". (Bəqərə surəsi, 128-129)

♦ Onlardan eləsi də var ki: "Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər bəxş et və bizi cəhənnəm əzabından qoru!" -

**deyər. Onlar üçün qazandıqlarından (axirətdə) bir pay (mükafat) vardır. Allah çox sürətli haqq-hesaba çəkəndir. (Bəqərə surəsi, 201-202)**

**♦ Onlar Calut və əsgərləri ilə qarşılaşdıqları zaman: "Ey Rəbbimiz, bizim üzərimizə səbir yağdır, ayaqlarımıza qüvvət ver və inkar edən qövmə qarşı bizə yardım et!" - dedilər. (Bəqərə surəsi, 250)**

**♦ Allah heç kəsi gücü yetdiyindən artıq yükləməz. Hər kəsin qazandığı (yaxşı əməli) lehinə, qazandığı (pis əməli) isə əleyhinədir. "Ey Rəbbimiz, unutsaq və ya yanılsaq, bizi cəzalandırma! Ey Rəbbimiz, bizə, bizdən əvvəlkilərə yüklədiyin kimi ağır bir yük yükləmə! Ey Rəbbimiz, gücümüzün çatmadığı bir şeyi bizə yükləmə! Bizi əfv et! Bizi bağışla! Bizə rəhm et! Sən himayədarımızsan. İnkar edənlər qövmünə qarşı bizə yardım et!" (Bəqərə surəsi, 286)**

**♦ (Onlar belə dua edərlər:) "Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra qəlbimizə əyrilik salma və bizə, Öz tərəfindən bir mərhəmət bəxş et! Sən, həqiqətən (mərhəmət) bəxş edənsən. Ey Rəbbimiz! Olacağına şübhə edilməyən bir gündə insanları toplayacaq olan Sənsən!" Şübhəsiz ki, Allah, Öz vədinə xilaf çıxmaz. (Ali İmran surəsi, 8-9)**

**♦ "Ey Rəbbimiz, biz həqiqətən, (Sənə) iman etdik. Günahlarımızı bağışla və bizi cəhənnəm əzabından qoru!"... (Ali İmran surəsi, 16)**

**♦ Bir zaman İmranın zövcəsi belə demişdi: "Ey Rəbbim, mən bətnimdəkini azad bir bəndə olaraq Sənə həsr etdim. (Onu) məndən qəbul et! Şübhəsiz ki, Sən eşidənsən, biləsən." (Ali İmran surəsi, 35)**

**♦ Orada Zəkəriyya Rəbbinə dua edib dedi: “Ey Rəbbim! Mənə, Öz tərəfindən xeyirli bir nəsil bəxş et! Sən, həqiqətən, duanı eşidənsən.” (Ali İmran surəsi, 38)**

**♦ (Həvarilər dedilər:) “Ey Rəbbimiz, nazil etdiyinə (İncilə) iman etdik və elçisinə tabe olduq. Elə isə, bizləri (Sənin birliyini və elçisini təsdiq edən) şahidlərlə birlikdə yaz!” (Ali İmran surəsi, 53)**

**♦ Onlar yalnız: “Ey Rəbbimiz, günahlarımızı və işlərimizdəki həddi aşmaları bağışla! Ayaqlarımızı (Sənin yolunda) möhkəmləndir və inkar edənlər qövmünə qarşı bizə yardım et!” – deyirdilər. (Ali İmran surəsi, 147)**

**♦ Onlar ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlayar, göylərin və yerin yaradılması haqqında düşünərlər (və belə deyərlər:) “Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan. Sən pak və müqəddəssən! Bizi cəhənnəm əzabından qoru! Ey Rəbbimiz! Sən, cəhənnəmə atdığın kəsi rüsvay etmiş olarsan. Zalımların heç bir köməkçisi yoxdur. Ey Rəbbimiz! Həqiqətən, “Rəbbinizə iman edin!” – deyə imana çağıran kimsəni (elçini) eşitdik və dərhal iman etdik. Ey Rəbbimiz! Günahlarımızı bağışla, pis əməllərimizin üstünü ört və canımızı yaxşılarla birlikdə al! Ey Rəbbimiz! Elçilərin vasitəsilə vəd etdiklərini bizə bəxş et və qiyamət günü bizi rüsvay etmə! Şübhəsiz ki, Sən vədinə xilaf çıxmazsan.” (Ali İmran surəsi, 191-194)**

**♦ Elçiyə nazil olanı eşitdikləri zaman bildikləri həqiqətə görə onların gözlərindən yaş axdığını görərsən. Onlar deyərlər: “Ey Rəbbimiz! Biz iman etdik. Bizi (haqqa) şahid olanlarla birlikdə yaz!” (Maidə surəsi, 83)**

**♦ O ikisi belə dedi: “Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər Sən bizi bağışlamaz və bizə rəhm etməzsən, həqiqətən, biz ziyana uğrayanlardan olarıq.” (Əraf surəsi, 23)**

**♦ Musa dedi: “Ey Rəbbim! Məni və qardaşımı bağışla! Bizi Öz mərhəmətinə daxil et. Sən rəhm edənlərin ən rəhmlisisən!” (Əraf surəsi, 151)**

**♦ “...Ey Rəbbimiz, bizimlə qövmümüz arasında ədalətlə hökm ver! Sən hökm verənlərin ən xeyirlisisən”. (Əraf surəsi, 89)**

**♦ “...Ey Rəbbimiz, bizə bol-bol səbir ver və müsəlman olaraq canımızı al!” (Əraf surəsi, 126)**

**♦ Musa təyin etdiyimiz vaxt üçün öz qövmündən yetmiş adam seçdi. Onlar zəlzələyə məruz qaldıqları zaman Musa dedi: “Ey Rəbbim! Əgər istəsəydin, onları da, məni də daha əvvəl məhv edərdin. Aramızdakı səfehlərin etdikləri əməllərə görə bizi (hamımızı) məhv edəcəksən? Bu, Sənin imtahanından başqa bir şey deyil. Sən onunla dilədiyin kimsəni zəlalətə düçar edər, dilədiyini də doğra yola yönəldərsən. Sən bizim himayədarımızsan. Bizi bağışla və bizə rəhm et! Sən bağışlayanların ən xeyirlisisən. Bizə bu dünyada da, axirətdə də yaxşılıq yaz (nəsib et)! Biz Sənə döndük!” Allah buyurdu: “Dilədiyim kimsəni əzabıma düçar edərəm. Mərhəmətim isə hər şeyi əhatə etmişdir. Mərhəmətimi müttəqi olan, zəkatı verən və ayələrimizə iman edən kimsələrə yazacağam (nəsib edəcəyəm).” (Əraf surəsi, 155-156)**

**♦ Onlar da belə dedilər: “Biz Allaha təvəkkül etdik. Ey Rəbbimiz, bizi zalımların sınağına çevirmə! Mərhəmətinlə bizi inkar edən qövmdən xilas et!” (Yunis surəsi, 85-86)**

♦ Musa dedi: “Ey Rəbbimiz! Sən Firona və qövmünə dünya həyatında zinət və mal-mülk vermisən. Ey Rəbbimiz! (İnsanları) sənin yolundan azdırsınlar deyəmi (verdin)? Ey Rəbbimiz! Onların mal-mülkünü yox et və qəlbini elə sərtləşdir ki, şiddətli əzabı görməyincə iman etməsinlər!” (Yunis surəsi, 88)

♦ “Ey Rəbbim! Mənə mülkündən bir pay verdin və mənə yuxuların yozumunu öyrətdin. Ey göyləri və yeri yaradan! Sən dünya və axirətdə mənim sahibimsən. Canımı müsəlman olaraq al və məni əməlisalehlərə qovuşdur!” (Yusif surəsi, 101)

♦ “Ey Rəbbimiz! Həqiqətən, mən nəslimdən bəzilərini Sənin mübarək evinin yanında, əkin bitməyən bir vadidə məskunlaşdırdım. Ey Rəbbimiz! Namazı qılsınlar deyə (bunu etdim). Sən də insanlardan bir qisminin qəlbini onlara meyil etdir və onlara meyvələrdən ruzi ver ki, bəlkə, onlar şükür edələr. Ey Rəbbimiz! Şübhəsiz ki, Sən bizim gizlətdiklərimizi də, aşkar etdiklərimizi də bilirsən. Nə yerdə, nə də göydə heç bir şey Allahdan gizli qalmaz.” (İbrahim surəsi, 38)

♦ Onları təvazökarlıqla mərhəmət qanadının altına al və (dua edərək) de: “Ey Rəbbim, kiçikliyimdən onlar məni böyütdükləri kimi, Sən də onlara rəhm et!” (İsra surəsi, 24)

♦ De: “Ey Rəbbim! Daxil olacağım yerə məni xoşluqla daxil et, çıxaracağın yerdən də məni xoşluqla çıxart və Öz dərgahından mənə yardım edən bir güc ver!” (İsra surəsi, 80)

♦ Bir vaxt gənclər mağaraya sığınaraq: “Ey Rəbbimiz! Bizə Öz dərgahından mərhəmət bəxş et və bizə bu vəziyyətdən çıxış yolu göstər!” - demişdilər. (Kəhf surəsi, 10)

**♦ (Bu,) Rəbbinin Zəkəriyyə bəndəsinə olan mərhəmətinin yad edilməsidir! Bir zaman o, astadan Rəbbinə səslənmişdi. Demişdi ki: "Ey Rəbbim! Sümüklərim zəifləyib, başım da ağappaq ağarıb. Ey Rəbbim! Sənə etdiyim dua sayəsində heç vaxt bədbəxt olmamışam. Doğrusu mən özümdən sonra gələn qohumlarımdan qorxuram. Zövcəm də qısırdır. Ona görə də Öz tərəfindən mənə bir dost (oğul) ver! O mənim və Yaqub nəslinin varisi olsun. Ey Rəbbim, onu razı qalacağın biri et!" (Ona belə vəhy olundu:) "Ey Zəkəriyyə, Biz səni Yəhya adlı bir oğulla müjdələyirik! Bundan əvvəl bu adı heç kimə verməmişik." O dedi: "Ey Rəbbim! Zövcəm qısır, özüm də qocalığın son həddinə çatdığım halda mənim necə oğlum ola bilər?" (Məryəm surəsi, 2-8)**

**♦ "Ey Rəbbim, məni və nəslimdən gələnləri namaz qılanlardan et! Ey Rəbbimiz, duamı qəbul et! Ey Rəbbimiz, haqq-hesab günü məni, ata-anamı və möminləri bağışla!" (İbrahim surəsi, 40-41)**

**♦ Musa dedi: "Ey Rəbbim, qəlbimi genişlət! İşimi asanlaşdır! Dilimdəki düyünü aç (pəltəkliyimi götür) ki, sözümü başa düşsünlər! Ailəmdən də mənə bir köməkçi ver - Qardaşım Harunu! Onunla arxamı möhkəmləndir! Onu işimə ortaq et ki, Səni çox təsbeh edək (şəninə təriflər deyək). Və Səni çox zikr edək. Şübhəsiz ki, Sən bizi görürsən." (Taha surəsi, 25-35)**

♦ Zünnunu da (Yunisi də yad et)! Bir zaman o, qəzəbli bir halda çıxıb getmiş və ona gücümüzün çatmayacağını zənn etmişdi. Nəhayət, (balığın qarnında) qaranlıqda ikən o, belə səslənmişdi: "(Ey Rəbbim!) Səndən başqa heç bir ilah yoxdur. Sən pak və müqəddəssən! Həqiqətən, mən zalımlardan olmuşam. Biz də onun duasını qəbul etdik və onu bu kədərdən xilas etdik. Biz möminləri belə xilas edirik. Zəkəriyyanı da (yad et)! Vaxtilə o: "Ey Rəbbim, məni yalnız qoyma! Sən varislərin ən xeyirlisisən!" – deyərək Rəbbinə səslənmişdi. (Ənbiya surəsi, 87–89)

**♦ De: “Ey Rəbbim! Əgər onlara vəd olunanı (dünyadakı əzablarını) mənə göstərəcəksənsə, Məni zalım qövmün içində buraxma, ey Rəbbim! (Muminun surəsi, 93-94)**

**♦ Sən yanındakılarla birlikdə gəmiyə mindiyin zaman: “Bizi zalım qövmdən xilas edən Allaha həmd olsun!” – de. Bir də: “Ey Rəbbim! Məni bərəkətli bir yerə endir. Axı sən məskunlaşdıranların ən xeyirlisisən!” – de. (Muminun surəsi, 28-29)**

**♦ Nuh dedi: “Ey Rəbbim, məni yalanlamalarına qarşı mənə yardım et!” (Muminun surəsi, 26)**

**♦ Elçi dedi: “Ey Rəbbim! Məni yalanlamalarına qarşı mənə yardım et!” (Muminun surəsi, 39)**

**♦ De: “Ey Rəbbim! Şeytanların vəsvəsələrindən Sənə sığınıram! Ey Rəbbim! Onların mənə yaxın gəlməsindən də Sənə sığınıram!” (Muminun surəsi, 97-98)**

**♦ De: “Ey Rəbbim, (bizi) bağışla və (bizə) rəhm et! Sən rəhm edənlərin ən xeyirlisisən!” (Muminun surəsi, 118)**

**♦ Onlar: “Ey Rəbbimiz! Bizə gözümüzü aydınladan zövcə və nəsillər bəxş et və bizi müttəqilərə rəhbər et!” – deyərlər. (Furqan surəsi, 74)**

**♦ “Ey Rəbbim, mənə hökm (elm) ver və məni salehlərin arasına daxil et! Mənə, gələcək nəsillər tərəfindən xeyirlə yad edilməyi qismət et! Məni Nəim cənnətinin varislərindən et! Atamı da bağışla! Həqiqətən, o, haqq yoldan azanlardandır. İnsanların dirildiləcəkləri gün məni rüsvay etmə!” (Şuəra surəsi, 83-87)**

**♦ Nuh dedi: "Ey Rəbbim! Qövmüm məni yalanladı. Artıq mənimlə onların arasında Sən hökm ver! Məni və mənimlə olan möminləri xilas et!" (Şuəra surəsi, 117-118)**

**♦ Süleyman onun sözünə gülümsəyib dedi: "Ey Rəbbim! Həm mənə, həm də ata-anama verdiyin nemətə görə şükür etməyim və Sənin razı qalacağın yaxşı işlər görməyim üçün mənə güc ver! Öz mərhəmətinlə məni saleh bəndələrinin arasına daxil et!" (Nəml surəsi, 19)**

**♦ Musa: "Ey Rəbbim! Həqiqətən, mən özümə zülm etdim. Məni bağışla!" - dedi. O da onu bağışladı. Şübhəsiz ki, O, bağışlayandır, mərhəmətlidir. Musa: "Ey Rəbbim, mənə verdiyin nemətlərin haqqı üçün günahkarlara əsla dayaq olmayacağam!" - dedi. (Qəsas surəsi, 16-17)**

**♦ Beləcə, Musa qorxu içində ətrafa göz qoya-qoya oradan çıxıb belə dedi: "Ey Rəbbim, məni zalım qövmdən xilas et!" (Qəsas surəsi, 21)**

**♦ Musa onların heyvanlarını suladı, sonra da kölgəyə çəkilib belə dedi: "Ey Rəbbim! Sənin mənə bəxş etdiyin hər xeyrə möhtacam." (Qəsas surəsi, 24)**

**♦ Lut dedi: "Ey Rəbbim, fitnə-fəsad törədən bu qövmə qarşı mənə yardım et!" (Ənkəbut surəsi, 30)**

**♦ "Ey Rəbbim, mənə salehlərdən olan bir övlad ver!" (Saffat surəsi, 100)**

**♦ Süleyman dedi: "Ey Rəbbim, məni bağışla və mənə bundan sonra heç kimin əldə edə bilməyəcəyi bir hökmranlıq bəxş et! Şübhəsiz ki, Sən lütf sahibisən." (Sad surəsi, 35)**

**♦ Ərşi daşıyanlar və onun ətrafındakılar (mələklər) Rəbbini həmd ilə təsbeh edir, Ona inanır və möminlərin bağışlanmasını diləyərək belə deyirlər: "Ey Rəbbimiz! Sənin mərhəmətin və elmin hər şeyi əhatə etmişdir. Ona görə də tövbə edib Sənin yoluna tabe olanları bağışla və onları cəhənnəm əzabından qoru! Ey Rəbbimiz! Həm onları, həm də onların atalarından, zövcələrindən və nəsillərindən əməlisaleh olanları özlərinə vəd etdiyin Ədn cənnətlərinə daxil et! Şübhəsiz ki, Sən qüdrətlisən, hikmət sahibisən. Onları pisliklərdən qoru! Şübhəsiz ki, o gün Sən kimi pisliklərdən qorusan, ona rəhm etmiş olarsan. Böyük uğur məhz budur!" (Mömin surəsi, 7-9)**

**♦ Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Anası onu (bətnində) əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun (ana bətnində) daşınması və süddən kəsilməsi otuz ay ərzindədir. Nəhayət, o, yetkinləşib qırx yaşına çatanda belə deyər: "Ey Rəbbim! Mənə və ata-anama verdiyin nemətlərə görə şükür etməyim və Sənin razı qalacağın yaxşı işlər görməyim üçün mənə ilham ver! Mənim nəslimi islah et! Həqiqətən, mən tövbə edib Sənə yönəlmişəm və mən Sənə təslim olanlardanam". Etdikləri yaxşı əməllərini qəbul edəcəyimiz və günahlarını bağışlayacağımız bu kimsələr cənnət əhli arasında olacaqlar. Bu, onlara verilmiş haqq bir vəddir. (Əhqaf surəsi, 15-16)**

**♦ Onlardan sonra gələnlər isə: "Ey Rəbbimiz, bizi və bizdən əvvəl iman etmiş qardaşlarımızı bağışla! İman edənlərə qarşı qəlbimizdə heç bir kin-küdurətə yer vermə! Ey Rəbbimiz, həqiqətən, Sən şəfqətlisən, mərhəmətlisən!" - deyərlər. (Həşr surəsi, 10)**

**♦ ...“Ey Rəbbimiz! Biz Sənə təvəkkül etmişik, Sənə yönəlmişik. Axır dönüş Sənədir! Ey Rəbbimiz, bizi inkar edənlər üçün imtahan vasitəsi etmə! Ey Rəbbimiz, bizi bağışla! Şübhəsiz ki, Sən qüdrətlisən, hikmət sahibisən!” (Mumtəhənə surəsi, 4-5)**

**♦ Allah iman edənlər üçün də Fironun zövcəsini misal çəkdi. Bir zaman o: “Ey Rəbbim! Mənim üçün Öz dərgahında - cənnətdə bir ev inşa et! Məni Firondan və onun əməlindən xilas et! Məni zalım qövmdən xilas et!” - demişdi. (Təhrim surəsi, 11)**

**♦ Nuh dedi: “Ey Rəbbim, yer üzündə heç bir inkar edəni sağ buraxma! Əgər onları sağ buraxsan, Sənin bəndələrini azdıracaq və əxlaqsız inkar edənlər dünyaya gətirəcəklər.” (Nuh surəsi, 26-27)**

**♦ Ey Rəbbim! Məni, ata-anamı, mömin olaraq evimə daxil olanları, mömin kişiləri və mömin qadınları bağışla! Zalımların da yalnız məhvini artır!” (Nuh surəsi, 28)**

Gündəlik həyatda tez-tez istifadə edilən bəzi anlayışlar Quranın bir çox ayəsində yer alır. Ağıl, səbir, vəfa, inkar, nemət və hikmət bu anlayışlardan bir neçəsidir. Bu anlayışlar Quranın başa düşülməsində və həyata keçirilməsində mühüm rol oynayır. Halbuki gündəlik həyatda bunların bir çoxu Qurandakı həqiqi mənalarından fərqli mənalarda istifadə olunur.

Quranın düzgün və ən doğru şəkildə başa düşülməsi, qəlbə yerləşməsi və tətbiqi üçün Qurandakı əsas anlayışların hansı mənada və hansı məqsədlə istifadə edildiyini, hansı hikmətləri ehtiva etdiyini dəqiq bilmək lazımdır.

Bu kitabda, Quranda ən çox bəhs edilən anlayışlar, içərisində keçən ayələrin işığında araşdırılaraq bunların ümumi və konkret olaraq hansı mənada, hansı hikmətlə işlədildiyi açıqlanmışdır.